RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 74 (9819) 16 aprel 2025-ci il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# Regionun lideri, qlobal proseslərin fəal iştirakçısı

## Azərbaycan öz qətiyyətli və müstəqil siyasəti ilə müasir dünya nizamına mühüm töhfələr verir

Azərbaycan Prezidenti İlham Əliyevin dünyadakı siyasi qütblər arasındakı gərginliklərin aradan qaldırılmasında birbaşa rol oynaması ilə bağlı kifayət qədər misallar göstərmək, nümunələr çəkmək mümkündür. Məsələn, siyasi əlaqələri korlanmış, hətta müharibə səviyyəsinə qədər gəlmiş Türkiyə və Rusiya münasibətləri bir müddət əvvəl məhz Azərbaycanın hər iki ölkə arasında uğurlu vasitəçiliyi sayəsində normallaşmışdı.

Həm Türkiyə, həm də İsraillə yüksək səviyyədə əlaqələri olan Azərbaycan üçün bu iki ölkə arasında münasibətlərin gərgin olması arzuedilən deyil. Buna görə də ölkəmiz siyasi münasibətləri heç də yaxşı olmayan, hətta zaman-zaman gərginləşən Türkiyə ilə İsrail arasında münasibətlərin normallaşması üçün daim çalışıb. Bir müddət əvvəl çox gərgin qarşıdurmada olan bu iki dövlət arasında Azərbaycan barışdırıcı rol oynayıb.

Təəssüf ki, hazırda da sözügedən ölkələr arasında soyuq küləklər əsir. Bu mərhələdə də tərəflərin bir-biri ilə danışıqlar aparması, münasibətlərini qaydaya salması üçün məhz Azərbaycan barış missiyası həyata keçirir.

Aprelin 9-da keçirilən "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forumda iştirakçılardan birinin bununla əlaqədar sualını cavablandıran Prezident İlham Əliyev dedi ki, Türkiyə ilə İsrail arasında ilk uğurlu barışıq müəyyən dərəcədə Azərbaycanın vasitəçiliyi ilə əldə olunub. Çünki indi iki ölkə arasında baş verənlər ilk böhran deyil, yaxın keçmişdə ikincidir: "İndi biz bir növ dejavü yaşayırıq. Biz addımlarımızın alqoritmini bilirik. Mən sizi əmin edə bilərəm ki, yardım etməyə çalışmaq üçün səy göstəririk".

Ölkəmizin rəhbəri ümidvar olduğunu bildirdi ki, bu proses normallaşmaya aparacaq: "Dostlarınız arasında pis münasibətlərin olması hər zaman pisdir. Bu, onlar üçün pisdir, bizim üçün pisdir və dünya üçün pisdir. Çünki düşünürəm ki, legitim narahatlıqlara, kifayət qədər yüksək səviyyədə etimadsızlığa baxmayaraq, hələ də normallaşma və qarşılıqlı maraq doğuran sahələr üçün əsas tapmaq olar. Zənnimcə, proses dayanmamalıdır. Azərbaycan prosesə kömək etmək üçün əlində olan hər şeyi edir".

→ 5

# Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə...



Birinci vitse-prezident Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Bakıdakı 1 saylı körpələr evində və 1 saylı uşaq evi sosial xidmət müəssisəsində olublar

Birinci vitse-prezident Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva mütəmadi surətdə burada olur, körpələrin sağlamlıqları, onların yaşayış şəraiti ilə daim maraqlanır, balacalara xüsusi qayğı ilə yanaşırlar. Qeyd edək ki, körpələr evinin 1930-cu ildə tikilən binasında Heydər Əliyev Fondunun təşəbbüsü ilə əsaslı təmir və yenidənqurma işləri aparılıb. 2015-ci il mayın 10-da Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın iştirakı ilə körpələr evinin açılışı olub.

→ 3

# Mehriban qonşuluq, güclü strateji tərəfdaşlıq

Mehriban qonşuluq münasibətləri və sadiq dostluq əlaqələri Azərbaycanla Gürcüstanın strateji tərəfdaşlığını getdikcə daha da gücləndirir. Ölkələrimiz arasında əməkdaşlığın davamlı inkişafını şərtləndirən mühüm amillər mövcuddur. Bunu gücləndirən isə ölkə liderlərinin ənənəvi görüşləri, iki dost arasında imzalanan mühüm sənədlər, qarşılıqlı səfərlərdir. Bütün bunlar ölkələrimizin bir-birinə daha da yaxın olmasına və xalqlarımızın sıx dostluğuna xidmət edir.

Ümumiyyətlə, iki ölkəni mehriban qonşuluq və tarixi dostluq əlaqələri, siyasi, iqtisadi, humanitar və digər sahələrdə strateji tərəfdaşlıq əlaqələri birləşdirir. 1996-cı il martın 8-də imzalanan "Azərbaycan Respublikası ilə Gürcüstan arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizliyin möhkəmləndirilməsi haqqında Müqavilə" ölkələrimiz arasında strateji tərəfdaşlığın təməlini qoyan sənəddir.

→ 5

# Gürcüstan Prezidenti Mixeil Kavelaşvili Azərbaycana rəsmi səfərə gəlib

Gürcüstan Prezidenti Mixeil Kavelaşvili aprelin 15-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.



AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Gürcüstan Prezidenti Mixeil Kavelaşvilini hava limanında Azərbaycan Respublikasının Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Yalçın Rəfiyev və digər rəsmi şəxslər qarşılayıblar.

# Azərbaycanın Yaxın Şərq ölkələri ilə əlaqələri dinamik inkişaf tempinə malikdir

Azərbaycanın dörd il ərzində Qoşulmama Hərəkatına sədrlik etdiyi zamanda bu region ölkələri ilə əlaqələrimiz yeni müstəviyə keçdi. Bununla yanaşı, İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində də Azərbaycanın Yaxın Şərq ölkələri ilə ikitərəfli və çoxtərəfli münasibətləri dinamik inkişaf edir. Məhz bunun sayəsində Azərbaycan Yaxın Şərq regionunda da etibarlı tərəfdaş hesab edilir və dövlətimizin sözünün məna və çəkisi bu regionda da kifayət qədər böyükdür. Regionun dövlətləri arasında ixtilaflar olduqda Azərbaycan dövlətinin mövqeyi və proseslərə təsir imkanlarının genişliyi diqqətdən yayınmır. Bunu Türkiyə-İsrail arasındakı gərginliyin aradan qaldırılması proseslərində də görmək olar.

→ 7

# Ermənistan həm də təbiət qatilidir

## Hayların ayağı dəydiyi yerdə torpaq quruyur, su zəhərə dönür

Qarabağı 30 il işğal altında saxlayan Ermənistan yurd yerlərimizi viran qoymaqla yanaşı, həm də flora və faunamızı vandalcasına məhv etmişdir. Bunlar azmış kimi hələ də Araz çayını çirkləndirməkdə davam edərək ətraf ərazilərdə yaşayan əhalinin həyat və sağlamlığını, iqtisadiyyatı, kənd təsərrüfatını ciddi təhlükə altına alır. BMT-də akkreditə olunmuş Su, Ətraf Mühit və Sağlamlıq üzrə Qlobal İnstitut (GIWEN) münaqişə dövründə Oxçuçayın Zəngilan rayonundan keçən müxtəlif hissələrindən alınan su nümunələrini analiz edərək çay hövzəsində çirklənmə səviyyəsinin kritik olduğunu müəyyənləşdirmişdir. Məlum olmuşdur ki, həmin çirklənmə Ermənistandakı Qacaran mis-molibden və Qafan filiz emalı zavodları tərəfindən ağır metal tullantılarının Oxçuçaya atılmasının nəticəsidir. Mütəxəssis araşdırmaları göstərir ki, Arazın yatağındakı çöküntülərdə yığılmış ağır metal tullantıları regionda su ehtiyatlarını və kənd təsərrüfatına yararlı torpaqları yaman günə qoyur.

Bu və digər faktlar zaman-zaman beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılsa da, heç nə dəyişmir, təbiət qatilləri öz işlərindədir. Prezident İlham Əliyev bir neçə gün əvvəl ADA Universitetində keçirilən "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forumda da Arazın çirkləndirilməsindən söz açmışdır: "Jurnalistlərin, həmçinin ziyalıların səfərləri təşkil edilə, bəlkə də transsərhəd çaylarla bağlı birgə tədbirlər keçirilə bilər.

→ 9

# Zəngəzur dəhlizinin möhtəşəm yolları

Əzəli torpaqlarımızı "dəmir yumruq"la işğaldan azad edən Müzəffər Ali Baş Komandan İlham Əliyev Zəfərimizdən ötən qısa müddət ərzində bu ərazilərdə misli görünməyən quruculuq işlərini həyata keçirməkdədir.

Erməni vandalizminin qurbanına çevrilmiş şəhər və kəndlərin yenidən, daha müasir formada qurulması, tamamilə dağıdılmış infrastrukturun bərpası, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışının təmin edilməsi Azərbaycan dövlətinin prioritet fəaliyyət istiqamətlərindəndir.

Bu ərazilərdə həyata keçirilən mühüm layihələrdən biri də yol-nəqliyyat infrastrukturunun tamamilə yenidən qurulmasıdır. Hər iki iqtisadi rayonda tikinti-quruculuq işləri ilə paralel olaraq yolların da yenidən qurulması, körpü və tunellərin tikintisi həyata keçirilir.

Prezident İlham Əliyev işğaldan azad edilmiş şəhər və rayonlarımıza səfərləri çərçivəsində yeni yolların açılışlarını edir və tikinti işlərinin sürətlə aparılması ilə bağlı ciddi tapşırıqlarını verir.

→ 8



# Apellyasiya instansiyası məhkəməsi sədrinin müavininin, apellyasiya instansiyası məhkəmələri məhkəmə kollegiyaları sədrlərinin, birinci instansiya məhkəmələri hakimlərinin və sədrlərinin təyin edilməsi ilə bağlı bəzi məsələlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu və 32-ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

1. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq,

**apellyasiya instansiyası məhkəmələri üzrə:**

1.1. Müşfiq Kamil oğlu Həsənov Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi sədrinin müavini təyin edilsin;

1.2. Mehman Dünyamalı oğlu Allahverdiyev Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının sədri təyin edilsin;

1.3. Əlizamin Gülzalı oğlu Abdullayev Gəncə Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının sədri təyin edilsin;

1.4. Elçin Məhəmməd oğlu Mehdiyev Şəki Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının sədri təyin edilsin;

**inzibati məhkəmələr üzrə:**

1.5. Hicran Xasay oğlu Muradov Naxçıvan Muxtar Respublikası İnzibati Məhkəməsinin sədri təyin edilsin;

**Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri üzrə:**

1.6. Günay Mikayıl qızı İsmayıl Naxçıvan Muxtar Respublikası Babək Rayon Məhkəməsinin sədri təyin edilsin;

**Bakı şəhərinin rayon məhkəmələri üzrə:**

1.7. Şeyda Ədalət qızı Məhərrəmova Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin hakimi və sədri vəzifələrindən azad edilərək Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.8. Abbas Əhəd oğlu Rzayev Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.9. Xəyal Əjdər oğlu Sarıyev Bakı şəhəri Qaradağ Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.10. Azər İslah oğlu Paşayev Bakı şəhəri Qaradağ Rayon Məhkəməsinin hakimi və sədri vəzifələrindən azad edilərək Bakı şəhəri Səbail Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.11. Elbəy Hidayət oğlu Allahverdiyev Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin hakimi təyin edilsin;

**rayon (şəhər) məhkəmələri üzrə:**

1.12. Fərid İlham oğlu Əyyubov Abşeron Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.13. Natiq Mehdi oğlu Abbasov Ağstafa Rayon Məhkəməsinin sədri təyin edilsin;

1.14. Elmir Xoşbəxt oğlu Hüseynov Sumqayıt Şəhər Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Füzuli Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.15. Marif Sabir oğlu Kazımov Gədəbəy Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Kürdəmir Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.16. Ruslan Əliyar oğlu Əlizadə Yevlax Rayon Məhkəməsinin sədri təyin edilsin;

1.17. Gülsarə Kərimovna İmanova Zəngilan Rayon Məhkəməsinin sədri təyin edilsin;

1.18. Elşad İbiş oğlu Əliyev Sumqayıt Şəhər Məhkəməsinin hakimi təyin edilsin;

1.19. Elçin Məmməd oğlu Kazımov Abşeron Rayon Məhkəməsinin hakimi və sədri vəzifələrindən azad edilərək Sumqayıt Şəhər Məhkəməsinin hakimi təyin edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 aprel 2025-ci il*

# "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1052-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 6-cı, 10-cu, 11-ci, 15-ci və 27-ci bəndlərini rəhbər tutaraq, "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1052-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Torpaq Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 478 (Cild I); 2024, № 3, maddə 250, № 7, maddə 770, № 12 (II kitab), maddə 1338) 96-cı maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3-cü hissənin birinci cümləsində "bələdiyyələr tərəfindən" sözləri "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq" sözləri ilə əvəz edilsin;

1.2. 5-ci hissədə "Bələdiyyə və xüsusi" sözləri "Xüsusi" sözü ilə əvəz edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının Mülki Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (I kitab), maddə 250 (Cild I); 2024, № 2, maddə 138, № 4, maddə 365, № 5 (I kitab), maddə 493, № 7, maddə 744, № 12 (I kitab), maddə 1281; Azərbaycan Respublikasının 2024-cü il 29 dekabr tarixli 122-VIIQD nömrəli və 2025-ci il 14 fevral tarixli 140-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 307.1-ci maddədə "müstəqil qiymətləndiricilər" sözləri "qiymətləndiricilər, qiymətləndirmə haqqında müqavilə qiymətləndirici təşkilatla bağlanıldıqda, habelə qiymətləndirici təşkilat haqqında məlumatlar" sözləri ilə əvəz edilsin;

2.2. 925-ci maddə üzrə:

2.2.1. aşağıdakı məzmunda 925.2-1-ci maddə əlavə edilsin:

"925.2-1. İcbari sığorta növləri üzrə sığorta hadisəsinin baş verməsi nəticəsində dövlət və bələdiyyə əmlakına dəyən zərərin məcburi qiymətləndirilməsi "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.";

2.2.2. 925.4-cü maddəyə "şəxslər" sözündən sonra ", habelə qiymətləndiricilər (qiymətləndirici təşkilatlar)" sözləri əlavə edilsin;

2.3. 1076-9.2-ci və 1076-10.3.5-ci maddələrdən "müstəqil" sözü çıxarılsın.

**Maddə 3.** Azərbaycan Respublikası Vergi Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583 (Cild I); 2024, № 2, maddə 138, № 4, maddə 365, № 5 (I kitab), maddə 498, № 6 (I kitab), maddələr 630, 638, № 7, maddə 747, № 8, maddələr 932, 933, 934, № 10, maddə 1118, № 11, maddə 1182, № 12 (I kitab), maddə 1282, (II kitab), maddə 1345; Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 110-VIIQD nömrəli və 2025-ci il 3 fevral tarixli 135-VIIQD nömrəli qanunları) 90.3-cü maddəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. üçüncü abzasda "məhkəmənin qərarı ilə qiymətləndirildiyi" sözləri "qiymətinin məhkəmə qərarı ilə müəyyən edildiyi" sözləri ilə əvəz edilsin;

3.2. dördüncü abzas üzrə:

3.2.1. birinci cümlədə "vergi orqanı tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada" sözləri "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada seçilərək" sözləri ilə əvəz edilsin;

3.2.2. ikinci cümlə çıxarılsın;

3.2.3. üçüncü cümlədə "Qiymətləndiricinin xidmətinin dəyəri" sözləri "Qiymətləndirməyə görə xidmət haqqı" sözləri ilə əvəz edilsin.

**Maddə 4.** "Torpaq bazarı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 390 (Cild I); 2024, № 12 (II kitab), maddə 1338) 16-cı maddəsinin üçüncü hissəsində "bələdiyyələr tərəfindən" sözləri "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq" sözləri ilə əvəz edilsin.

**Maddə 5.** "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 580 (Cild I); 2024, № 4, maddə 371) 24-cü maddəsinin birinci cümləsində "müvafiq normativ hüquqi aktlara" sözləri "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa" sözləri ilə əvəz edilsin.

**Maddə 6.** "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 8, maddə 520 (Cild I) 10.1-ci maddəsində "bələdiyyələr tərəfindən" sözləri "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq" sözləri ilə əvəz edilsin.

**Maddə 7.** "İcra haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 3, maddə 114 (Cild I); 2024, № 4, maddə 365; Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 77-VIIQD nömrəli və 29 dekabr tarixli 119-VIIQD nömrəli qanunları) 51-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

7.1. 51.1-ci maddə üzrə:

7.1.1. birinci cümlədə ", yaxud məhkəmənin qərarı ilə qiymətləndirildiyi" sözləri "ilə qiymətləndirildiyi, yaxud əmlakın qiymətinin məhkəmə qərarı ilə müəyyən edildiyi" sözləri ilə əvəz edilsin;

7.1.2. ikinci cümlə çıxarılsın;

7.2. 51.2-ci maddədə "Qiymətləndiricinin xidmətlərindən istifadə olunması ilə bağlı xərclər" sözləri "Qiymətləndirməyə görə xidmət haqqı" sözləri ilə əvəz edilsin;

7.3. 51.3-cü maddədə "müstəqil qiymətləndiricinin xidmətlərindən istifadə olunması ilə bağlı xərclər" sözləri "qiymətləndirməyə görə xidmət haqqı" sözləri ilə əvəz edilsin.

**Maddə 8.** Azərbaycan Respublikasının 2002-ci il 15 mart tarixli 274-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 216 (Cild I) ilə təsdiq edilmiş "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamə"nin 23-cü maddəsinin ikinci cümləsində "təyinatına uyğun olaraq bazar qiyməti nəzərə alınmaqla," sözləri "təyinatı əsasında bazar qiyməti nəzərə alınmaqla,"Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəyyən edilmiş" sözləri ilə əvəz edilsin.

**Maddə 9.** "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 461 (Cild I);2024, № 5 (I kitab), maddə 493) aşağıdakı dəyişikliklər edilsin:

9.1. 10.5-ci maddənin birinci cümləsində "müstəqil qiymətləndiricilər" sözləri "qiymətləndiricilər, qiymətləndirmə haqqında müqavilə qiymətləndirici təşkilatla bağlanıldıqda, habelə qiymətləndirici təşkilat haqqında məlumatlar" sözləri ilə əvəz edilsin;

9.2. 38.2-ci maddə üzrə:

9.2.1. altıncı cümlədən birinci halda "müstəqil" sözü çıxarılsın və həmin cümlədə "müstəqilqiymətləndiricilər" sözləri "qiymətləndiricilər (və ya qiymətləndiricilərin fəaliyyət göstərdikləri qiymətləndirici təşkilatlar)" sözləri ilə əvəz edilsin;

9.2.2. yeddinci cümlədə "Müstəqil qiymətləndiricinin" sözləri "Qiymətləndiricinin" sözü ilə, "buna görə xərclər ipoteka saxlayan tərəfindən ödənilir və bu xərclər" sözləri "qiymətləndirməyə görə xidmət haqqı ipoteka saxlayan tərəfindən ödənilir və bu haqq" sözləri ilə əvəz edilsin;

9.3. 39.3.3-cü maddədə "müstəqil qiymətləndiricinin" sözləri "qiymətləndiricinin" sözü ilə əvəz edilsin;

9.4. 54-cü maddənin mətninə "nəzərə alınmaqla" sözlərindən sonra "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq" sözləri əlavə edilsin.

**Maddə 10.** "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 5, maddə 376 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

10.1. 23.1.4-cü və 23.1.5-ci maddələrdən "müstəqil" sözü çıxarılsın;

10.2. 24-cü maddə üzrə:

10.2.1. 24.1-ci və 24.3-cü maddələrdə ismin müvafiq hallarında "Müstəqil qiymətləndirici" sözləri "Qiymətləndirici" sözü ilə əvəz edilsin;

10.2.2. 24.2-ci və 24.4-cü maddələrdən "müstəqil" sözü çıxarılsın;

10.2.3. 24.3.2-ci maddədə "özü tərəfindən qiymətləndirilməsi" sözləri "qiymətləndirilməsinin düzgün aparılmasını müəyyən etmək" sözləri ilə əvəz edilsin;

10.3. 32.4-cü maddədən "müstəqil" sözü çıxarılsın.

**Maddə 11.** "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 11, maddə 950 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

11.1. 6.6-cı maddədə "qiymətləndiricinin" sözü "qiymətləndirici təşkilatın" sözləri ilə əvəz edilsin;

11.2. 8.2.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"8.2.2. qiymətləndiricinin və ya qiymətləndirici təşkilatın (olduqda) tam adı, fəaliyyət və ya hüquqi ünvanları;";

11.3. 11.8-ci maddədə "və qiymətləndiricisi" sözləri ",qiymətləndiricisi və ya qiymətləndirici təşkilatı" sözləri ilə əvəz edilsin;

11.4. 13.2.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"13.2.3. qiymətləndiricinin və ya qiymətləndirici təşkilatın (olduqda) tam adı, fəaliyyət və ya hüquqi ünvanları;";

11.5. 19.6.2-ci maddəyə "qiymətləndirici" sözündən sonra "(qiymətləndirici təşkilat)" sözləri əlavə edilsin;

11.6. 21.11.2-ci və 21.12-ci maddələrdə "və qiymətləndiricinin" sözləri ", qiymətləndiricinin və ya qiymətləndirici təşkilatın" sözləri ilə əvəz edilsin;

11.7. 26.5-ci maddədə "müvafiq normativ hüquqi və normativ xarakterli aktlara" sözləri "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa" sözləri ilə əvəz edilsin;

11.8. 31.1-ci maddənin birinci cümləsində "depozitar, auditor və qiymətləndiricinin" sözləri "depozitara, auditora və qiymətləndiriciyə (qiymətləndirici təşkilata) ödənilən" sözləri ilə əvəz edilsin;

11.9. 32.1.4-cü maddəyə "qiymətləndiriciyə" sözündən sonra "(qiymətləndirici təşkilata)" sözləri əlavə edilsin;

11.10. 47.10.5-ci maddəyə "qiymətləndiriciyə" sözündən sonra "və ya qiymətləndirici təşkilata" sözləri əlavə edilsin.

**Maddə 12.** "İcbari sığortalar haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 9, maddə 788 (Cild I); Azərbaycan Respublikasının 2024-cü il 29 dekabr tarixli 120-VIIQD nömrəli Qanunu)16-cı maddəsində aşağıdakı dəyişikliklər edilsin:

12.1. 16.1-ci maddəyə "qiymətləndirilməsi" sözündən sonra "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla" sözləri əlavə edilsin;

12.2. 16.4-cü maddənin birinci cümləsində "qiymətləndirmə fəaliyyəti ilə məşğul olan müstəqil ekspert və ya mütəxəssis" sözləri "müstəqil ekspert və ya qiymətləndirici" sözləri ilə əvəz edilsin.

**Maddə 13.** "Dəniz limanları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 464 (Cild I); 2024, № 2, maddə 136, № 4, maddə 365) aşağıdakı dəyişikliklər edilsin:

13.1. 20.5-ci maddə üzrə:

13.1.1. birinci cümlədə "ya ekspert qiymətləndirməsi əsasında, yaxud belə sənədlər olmadıqda müqavilə ilə təsdiqlənən qiymət" sözləri "yaxud qiymətləndirici tərəfindən müəyyən edilən dəyər" sözləri ilə əvəz edilsin;

13.1.2. ikinci cümlə aşağıdakı redaksiyada verilsin:

"Yükün dəyərinin qiymətləndirici tərəfindən qiymətləndirilməsi "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.";

13.2. 21.5-ci maddənin ikinci cümləsində "ekspert qiymətləndirilməsi" sözləri "qiymətləndirici tərəfindən qiymətləndirilmə" sözləri ilə əvəz edilsin;

13.3. 28.2-ci maddədə "müstəqil qiymətləndiricinin "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa və qiymətləndirmə standartlarına uyğun olaraq, limanın sərhədləri daxilində yerləşən dövlət daşınmaz əmlakının icarə müqaviləsi üzrə istifadəsinin bazar dəyərinin qiymətləndirilməsi haqqında hesabatı əsasında" sözləri "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq" sözləri ilə əvəz edilsin.

**Maddə 14.** Bu Qanunun 3.2.2-ci və 7.1.2-ci maddələri 2027-ci il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 mart 2025-ci il*

# "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1052-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi və Fərmanının ləğvi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1052-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 25 mart tarixli 451 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 12, maddə 844(Cild I) ilə təsdiq edilmiş "Tikintisi dondurulmuş, tikintisinin normativ müddətləri ötmüş və tikintisi başa çatdırılmamış obyektlərin özəlləşdirilməsi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 5-ci hissənin birinci cümləsində "Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 23 dekabr tarixli 432 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Özəlləşdirilən dövlət əmlakının qiymətləndirilməsi haqqında Əsasnamə"yə uyğun olaraq qiymətləndirilərək qiymətləndirmə aktı tərtib edilir" sözləri "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq qiymətləndirilir" sözləri ilə əvəz edilsin;

1.2. 6-cı hissənin ikinci cümləsindən "və özəlləşdirmə qiymətləri dəqiqləşdirilir" sözləri çıxarılsın.

2. Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 10 avqust tarixli 383 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 606 (Cild I); 2024, № 4, maddə 393, № 5 (I kitab), maddə 529;2025, № 1, maddə 23; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 27 fevral tarixli 344 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.3-cü bənddə "Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktlarına" sözləri "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa" sözləri ilə əvəz edilsin;

2.2. 5.4-cü bənd üzrə:

2.2.1. birinci abzasın ikinci cümləsindən "işləyib" sözü çıxarılsın;

2.2.2. üçüncü abzas aşağıdakı redaksiyada verilsin:

"müəssisənin əmlakının inventarlaşdırılması haqqında akt və "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən qiymətləndirici tərəfindən hazırlanmış qiymətləndirmənin nəticələri haqqında hesabat;";

2.2.3. yeddinci abzasdan "və qiymətləndirilməsi" sözləri çıxarılsın;

2.3. 6.10-cu bəndin birinci abzasından "və qiymətləndirilməsi" sözləri çıxarılsın;

2.4. 7.4.1-ci yarımbəndin birinci abzasının birinci cümləsinə "yenidən" sözündən sonra "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq" sözləri əlavə edilsin.

3. "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun icrası ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 23 dekabr tarixli 432 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 12, maddə 844 (Cild I); 2024, № 5 (I kitab), maddə 529; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 27 fevral tarixli 344 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

3.1. həmin Fərmanla təsdiq edilmiş "Yerli icra hakimiyyəti orqanlarının sərəncamında olan, habelə yaşayış binalarında yerləşib dövlət vəsaiti hesabına inşa edilmiş qeyri-yaşayış sahələrinin özəlləşdirilməsi Qaydaları"nın 7-ci hissəsində "qüvvədə olan qanunvericiliyə müvafiq" sözləri "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun" sözləri ilə əvəz edilsin;

3.2. həmin Fərmanla təsdiq edilmiş "İcarəyə verilmiş dövlət əmlakının özəlləşdirilməsi haqqında Əsasnamə"nin 6-cı hissəsində "qüvvədə olan qanunvericiliyə müvafiq" sözləri "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun" sözləri ilə əvəz edilsin;

3.3. həmin Fərmanla təsdiq edilmiş "Dövlət müəssisələrinin müflis elan olunma yolu ilə özəlləşdirilməsi Qaydaları"nın 3.4-cü bəndində "qüvvədə olan qanunvericiliyə müvafiq" sözləri "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun" sözləri ilə əvəz edilsin.

4. "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 6, maddə 599 (Cild I); 2024, № 5 (I kitab), maddə 529; 2025, № 1, maddə 26) 5-ci hissəsi ləğv edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli 940 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1036 (Cild I); 2024, № 5 (I kitab), maddə 529, № 9, maddə 998) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 3.1.13-cü yarımbənddən "müstəqil" sözü çıxarılsın;

5.2. 4-cü hissə üzrə:

5.2.1. 4.7-ci bəndin ikinci cümləsində"qiymətləndirmə aktını" sözləri "qiymətləndirmənin nəticələri haqqında hesabatı" sözləri ilə əvəz edilsin;

5.2.2. 4.8-ci bəndin birinci cümləsində "Qiymətləndirmə aktı" sözləri "Qiymətləndirmənin nəticələri haqqında hesabat" sözləri ilə əvəz edilsin;

5.3. 7.1.4-cü yarımbənddə "qiymətləndirmə aktının" sözləri "qiymətləndirmənin nəticələri haqqında hesabatın" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1760 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (I kitab), maddə 2328 (Cild I); 2024, № 3, maddə 263, № 10, maddə 1124) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun Nizamnaməsi"nin 5.4.6-cı yarımbəndində "və qiymətləndiricilərlə" sözləri ", qiymətləndiricilər və ya qiymətləndirici təşkilatlarla" sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 1 may tarixli 29 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 5, maddə 897 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 6 fevral tarixli 321 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu tərəfindən ipoteka kreditləri üzrə təminat verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

7.1. 3.0.2-ci yarımbənddən "müstəqil" sözü çıxarılsın;

7.2. 5.4-cü bənddə "qiymətləndirmə aktı" sözləri "qiymətləndirmənin nəticələri haqqında hesabat" sözləri ilə əvəz edilsin;

7.3. 8.1.2-ci yarımbənddən "müstəqil" sözü çıxarılsın.

8. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 1 may tarixli 30 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 5, maddə 898 (Cild I); 2024, № 6 (I kitab), maddə 654, № 9, maddə 998) ilə təsdiq edilmiş "Elektron ipoteka və kredit zəmanət" sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

8.1. 2.1.3-cü yarımbəndə "qiymətləndirici" sözündən sonra "(qiymətləndirici təşkilat)" sözləri əlavə edilsin;

8.2. 6.1.3-cü yarımbəndə "qiymətləndiricinin" sözündən sonra "(qiymətləndirici təşkilatın)" sözləri əlavə edilsin;

8.3. 8-ci hissə üzrə:

8.3.1. 8.6-cı bəndin birinci abzasına "Qiymətləndiricilər" sözündən sonra "(qiymətləndirici təşkilatlar)" sözləri əlavə edilsin;

8.3.2. 8.6.1-ci yarımbənddə "qiymətləndirmə aktlarını" sözləri "qiymətləndirilməsinin nəticələri haqqında hesabatı" sözləri ilə əvəz edilsin;

8.4. "Elektron ipoteka və kredit zəmanət" sistemi haqqında Əsasnaməyə Əlavə"nin adına "qiymətləndiricilərin" sözündən sonra "(qiymətləndirici təşkilatların)" sözləri əlavə edilsin.

9. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 5, maddə 542 (Cild I); 2024, № 5 (I kitab), maddə 529, № 6 (I kitab), maddə 665, № 7, maddə 806, № 8, maddə 938; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 12 fevral tarixli 327 nömrəli və 11 mart tarixli 349 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Əsasnaməsi"nin 3.0.47-ci yarımbəndindən "qiymətləndirilməsini və" sözləri çıxarılsın.

10. "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 28 sentyabr tarixli 774 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 577 (Cild I) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 aprel 2025-ci il*

# Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə...

## Birinci vitse-prezident Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Bakıdakı 1 saylı körpələr evində və 1 saylı uşaq evi sosial xidmət müəssisəsində olublar










Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva aprelin 15-də Bakının Nəsimi rayonunda yerləşən 1 saylı körpələr evində və Nizami rayonundakı 1 saylı uşaq evi sosial xidmət müəssisəsində olublar.

AZƏRTAC xəbər verir ki, 1 saylı körpələr evində hazırda 3 yaşadək 63 uşaq var. Birinci vitse-prezident Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva mütəmadi surətdə burada olur, körpələrin sağlamlıqları, onların yaşayış şəraiti ilə daim maraqlanır, balacalara xüsusi qayğı ilə yanaşırlar.

Qeyd edək ki, körpələr evinin 1930-cu ildə tikilən binasında Heydər Əliyev Fondunun təşəbbüsü ilə əsaslı təmir və yenidənqurma işləri aparılıb. 2015-ci il mayın 10-da Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın iştirakı ilə körpələr evinin açılışı olub. Daim nəcib təşəbbüsləri ilə seçilən Heydər Əliyev Fondu valideyn himayəsindən məhrum olan uşaqların fiziki və mənəvi cəhətdən sağlam yetişməsinə, onların savadlı olmasına xüsusi diqqətlə yanaşır. Beləliklə, gələcəyimiz olan uşaqlarla bağlı Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətə mühüm töhfələr verir.

Sonra Birinci vitse-prezident Mehriban Əliyeva və Leyla Əliyeva 1 saylı uşaq evi sosial xidmət müəssisəsində oldular. Birinci xanım Mehriban Əliyeva və Leyla Əliyeva bu müəssisəni də tez-tez ziyarət edir, bayram günlərində buranın sakinləri ilə görüşür, onları hədiyyələrlə sevindirirlər.

Hazırda 1 saylı uşaq evi sosial xidmət müəssisəsində 3 yaşdan 18 yaşadək 100 uşaq var. Onların təhsil alması, idmanla məşğul olması və sağlamlıqlarının təmin edilməsi üçün burada hər cür şərait yaradılıb.

Müəssisənin sakinləri sevimli qonaqları olan birinci xanım Mehriban Əliyeva və Leyla Əliyevanı həmişə şeir, mahnı və ədəbi proqramla qarşılayıblar. Bu dəfə də istisna olmadı.

Heydər Əliyev Fondu yarandığı gündən bu müəssisəni diqqətdə saxlayır, burada yaşayan yeniyetmələrin ali təhsil müəssisələrində oxuması, onların işlə təmin edilməsi, peşə vərdişlərinin aşkara çıxarılması istiqamətində mühüm işlər görür. Heydər Əliyev Fondunun dəstəyi ilə əsaslı təmir olunan bu müəssisənin açılışı 2005-ci ildə Azərbaycanın birinci xanımının iştirakı ilə olub. 2017-ci ildə isə buranın iki sakini ailə həyatı qurub. Onların toyu Heydər Əliyev Fondu tərəfindən təşkil edilib, gənclərə mənzil və avtomobil hədiyyə olunub.

# Baş nazir Əli Əsədov Gürcüstan Prezidenti Mixeil Kavelaşvili ilə görüşüb



Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov aprelin 15-də ölkəmizdə rəsmi səfərdə olan Gürcüstan Prezidenti Mixeil Kavelaşvili ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan-Gürcüstan dostluq və strateji tərəfdaşlıq münasibətlərinin hərtərəfli inkişafından məmnunluq ifadə olunub.

İki ölkə arasında qarşılıqlı faydalı əməkdaşlığın müxtəlif sahələrdə genişləndirilməsi ilə bağlı məsələlər müzakirə edilib.

# Gürcüstan Prezidenti Heydər Əliyev Mərkəzində olub




Azərbaycanda rəsmi səfərdə olan Gürcüstan Prezidenti Mixeil Kavelaşvili aprelin 15-də Heydər Əliyev Mərkəzində olub.

AZƏRTAC xəbər verir ki, qonağa dünya memarlığının nadir incilərindən sayılan Heydər Əliyev mərkəzinin binası haqqında məlumat verilib. Qeyd olunub ki, mərkəzin fəaliyyəti Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq ideologiyasının və ictimai-siyasi irsinin dərindən öyrənilməsinə və tədqiq edilməsinə yönəlib.

Mərkəzdəki Heydər Əliyev Muzeyində Ulu Öndərin həm sovet dövründə, həm də ölkəmizin müstəqilliyi illərində fəaliyyət konsepsiyasının müxtəlif aspektləri virtual şəkildə təqdim olunur.

Gürcüstan Prezidenti əvvəlcə Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə - 1969-cu ildən 2003-cü ilə qədər rəsmi istifadəsində olan avtomobillərə baxıb.

Ümummilli Liderin həm sovet hakimiyyəti dövründə, həm də müstəqillik illərində həyata keçirdiyi fəaliyyət konsepsiyasının müxtəlif dövrlərini əks etdirən eksponatlar, fotoşəkillər və multimedia zalı qonaqda böyük maraq doğurub.

"Azərbaycan inciləri" sərgisi ilə də tanış olan Gürcüstan Prezidentinə bu sərgidə ölkəmizin tükənməz təbii sərvətləri, çoxəsrlik tarixi, mədəni irsi ilə bağlı nadir eksponatların nümayiş etdirildiyi bildirilib. Burada qədim peşələrin, o cümlədən Azərbaycan xalçaçılıq məktəbinin nadir nümunələri sərgilənir, milli çalğı alətlərimizin orijinal şəkildə - səsli formada təqdim olunduğu diqqətə çatdırılıb. Qeyd olunub ki, Azərbaycan milli geyimlərinin, qədim sikkələrin nümayiş etdirildiyi sərgiyə gələnlər burada müxtəlif dillərdə müqəddəs kitabları da görə bilərlər.

"Klassik avtomobillər sərgisi" ilə də tanış olan Gürcüstan Prezidenti Mixeil Kavelaşvili daha sonra xatirə kitabına ürək sözlərini yazıb.

Gürcüstan Prezidenti Mərkəzdən xoş təəssüratla ayrılıb.

# Azərbaycanla ASEAN arasında əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb

Aprelin 15-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Malayziyanın xarici işlər nazirinin müavini Mohamad Alamin ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Malayziya arasında iqtisadiyyat, ticarət, enerji təhlükəsizliyi və alternativ enerji, təhsil, turizm sahələri üzrə ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələləri, habelə regional və beynəlxalq gündəlikdə duran mövzular müzakirə olunub. Ölkələrimiz arasında ikitərəfli əməkdaşlığın genişləndirilməsi üçün perspektivlərin mövcudluğu qeyd edilib, bu istiqamətdə qarşılıqlı təmaslar və siyasi məsləhətləşmələr mexanizminin əhəmiyyətinə toxunulub. Azərbaycan-ASEAN münasibətlərinin təşviqi yollarının müzakirə olunduğu görüşdə, həmçinin digər beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatı (İƏT), Qoşulmama Hərəkatı, İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatı (D-8) çərçivəsində əməkdaşlığın genişləndirilməsi imkanlarından bəhs edilib.

Ölkəmizin D-8-ə üzvlüyə qəbul olunmasının vacibliyi vurğulanıb və alqışlanıb.

2026-cı ildə Azərbaycanın İƏT-ə sədrliyi çərçivəsində Bakıda İƏT-in Zirvə görüşünə ev sahibliyi edəcəyi məmnunluqla qeyd olunub, bu proses çərçivəsində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Qarşı tərəf, o cümlədən ölkəmizi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) uğurlu sədrlik və ev sahibliyi münasibətilə, əldə olunmuş nailiyyətlərlə əlaqədar təbrik edib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Bu gün eyni zamanda Azərbaycan Respublikası və Malayziya Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr aparılıb. Siyasi məsləhətləşmələrə Azərbaycan tərəfindən nazir müavini Elnur Məmmədov, Malayziya tərəfindən isə xarici işlər nazirinin müavini Mohamad Alamin rəhbərlik ediblər.

# Azərbaycanla Çin arasında beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri müzakirə edilib

Aprelin 15-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Çin Xalq Respublikasının ölkəmizdəki yeni təyin olunmuş səfiri Lu Mey ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, səfir Lu Mey etimadnaməsinin surətini nazir Ceyhun Bayramova təqdim edib.

Keçirilmiş görüşdə Azərbaycan-Çin strateji tərəfdaşlığının siyasi, iqtisadi, ticarət, nəqliyyat-kommunikasiyalar, humanitar aspektləri, habelə regional və beynəlxalq vəziyyət müzakirə olunub. Ötən ilin "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə"nin qəbulu ilə əlamətdar olduğu, sözügedən Bəyannamədən irəli gələrək strateji tərəfdaşlığımızın daha da möhkəmləndirilməsi istiqamətində səylərin əhəmiyyəti diqqətə çatdırılıb. Bu xüsusda yüksəksəviyyəli səfərlər və məsləhətləşmə mexanizmlərinin əhəmiyyəti vurğulanıb.

İqtisadiyyat, ticarət, investisiya sahələri üzrə əməkdaşlığın genişləndirilməsi üçün geniş potensialın mövcudluğu qeyd edilib. Regional və beynəlxalq təşkilatlar, o cümlədən BMT, Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olunub.

Ötən il ölkəmizin ev sahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Azərbaycan-Çin əməkdaşlığının təqdirəlayiq olduğu vurğulanıb.

Səfir Lu Mey ölkəmizdəki fəaliyyəti müddətində strateji tərəfdaşlıq münasibətlərimizin inkişafında səylərini əsirgəməyəcəyini diqqətə çatdırıb.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycanla Suriya arasında geniş əməkdaşlıq perspektivləri mövcuddur

Aprelin 14-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Suriyanın keçid hökumətinin xarici işlər və xaricdə yaşayan suriyalılar naziri Əssad Həsən Əş-Şibani arasında telefon danışığı aparılıb.



Azərbaycanın Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, telefon danışığı zamanı Azərbaycan-Suriya əlaqələri, regional təhlükəsizlik vəziyyəti müzakirə olunub.

Nazirlər telefon danışığı zamanı Suriyada Əsəd rejiminin dağılmasından sonra Azərbaycanla Suriya arasında geniş əməkdaşlıq perspektivlərinin mövcud olduğunu bildiriblər.

Söhbət zamanı uzun fasilədən sonra ölkəmizin Suriyada səfirliyinin işinin bərpasına göstərilən dəstəyə görə təşəkkür ifadə olunub. Suriyada sabitliyin möhkəmləndirilməsi istiqamətində səylərə toxunarkən, ölkəmizin Suriyanın bərpa prosesində iştirak niyyətinin, habelə Suriyaya göstərilən humanitar yardımın əhəmiyyəti vurğulanıb. Bu çərçivədə, Azərbaycan-Türkiyə-Suriya əməkdaşlıq formatının inkişaf etdirilməsinin vacibliyi qeyd olunub.

Nazirlər, həmçinin qarşılıqlı maraq doğuran ikitərəfli və çoxtərəfli məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# "Aviasiya personalına şəhadətnamələrin, vəsiqələrin və ya sertifikatların verilməsi və digər dövlətdə verilmiş analoji sənədlərin tanınması Qaydaları"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 107** **Bakı şəhəri, 11 aprel 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 1 nömrəli Fərmanının 2.3.15-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Aviasiya personalına şəhadətnamələrin, vəsiqələrin və ya sertifikatların verilməsi və digər dövlətdə verilmiş analoji sənədlərin tanınması Qaydaları" təsdiqedilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# "Hava gəmilərinin beynəlxalq uçuş əməliyyatlarının, məşq uçuşlarının və xüsusi xarakterli aviasiya fəaliyyəti ilə bağlı uçuşların həyata keçirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 108** **Bakı şəhəri, 14 aprel 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 1 nömrəli Fərmanının 2.3.21-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Hava gəmilərinin beynəlxalq uçuş əməliyyatlarının, məşq uçuşlarının və xüsusi xarakterli aviasiya fəaliyyəti ilə bağlı uçuşların həyata keçirilməsi Qaydaları" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan-Türkiyə birliyi regional sabitlik və təhlükəsizlik üçün olduqca mühüm amildir

## Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyə Böyük Millət Məclisinin Milli Müdafiə Komitəsinin sədri Hulusi Akar ilə görüşüb

Milli Məclisin Sədri Sahibə Qafarova aprelin 15-də ölkəmizdə səfərdə olan Türkiyə Böyük Millət Məclisinin (TBMM) Milli Müdafiə Komitəsinin sədri Hulusi Akar ilə görüşüb.





Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, görüşdə Azərbaycan-Türkiyə münasibətlərinin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamına uyğun olaraq uğurla inkişaf etdiyi vurğulanaraq qardaş ölkələrimizin bütün məsələlərdə bir yerdə olduğu və bir-birini dəstəklədiyi diqqətə çəkilib. Bildirilib ki, dövlət başçılarımızın davamlı təmasları strateji müttəfiqliyimizin hər gün yeni amillərlə zənginləşdiyini göstərir. 2021-ci ilin iyununda imzalanmış Şuşa Bəyannaməsindən irəli gələn vəzifələr davamlı şəkildə həyata keçirilir.

Görüşdə qeyd olunub ki, qardaş ölkələrimiz arasında yüksəksəviyyəli münasibətlərin ruhuna uyğun olaraq, parlamentlərimiz arasında da əlaqələr uğurla inkişaf edir. Qanunverici orqanların rəhbərləri səviyyəsində qarşılıqlı səfərlər, beynəlxalq təşkilatlar çərçivəsində keçirilən görüşləri, deputatların davamlı təmasları və qarşılıqlı dəstəyi bunu bir daha sübut edir.

Türkiyə Böyük Millət Məclisinin Milli Müdafiə Komitəsinin sədri Hulusi Akar Şuşa və Xankəndiyə səfəri haqqında təəssüratlarını bölüşərək, həmin ərazilərdə böyük inkişaf və quruculuq işlərinin şahidi olduqlarını bildirib.

Azərbaycan torpaqlarının 30 ilə yaxın işğal altında qalmasının bölgədə çox ağır fəsadlar yaratdığını deyən Hulusi Akar ATƏT, Avropa İttifaqı kimi təşkilatların baxışlarının nə qədər zərərli olduğunu söyləyib. O, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad olunmasının regionda yeni reallıqlar yaratdığını söyləyərək, Ermənistanın sülh sazişini imzalamaq üçün lazımi iradə göstərməsini, Azərbaycanın və Türkiyənin ona uzatdığı sülh əlini tutmasını arzuladığını bildirib.

Hulusi Akar Azərbaycan Prezidenti İlham Əliyevin Şimali Kipr Türk Cümhuriyyəti ilə bağlı mövqeyini çox yüksək qiymətləndirdiklərini vurğulayaraq, bu məsələdə də Azərbaycanın dövlət başçısının qəti iradəsinin şahidi olduqlarını deyib.

Spiker Sahibə Qafarova TBMM-in komitə sədrinin Şuşa və Xankəndiyə səfəri zamanı səsləndirdiyi fikirləri məmnunluqla qeyd edərək, bildirib ki, Şuşa həqiqətən də təkcə Azərbaycan üçün deyil, bütün Türk dünyası üçün bir bayraq, simvoldur. Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsi bütün Türk dünyasının qələbəsidir və qardaş ölkələrimizin birliyinin daha da gücləndirilməsində mühüm amildir.

Görüşdə Milli Məclisin Sədri Sahibə Qafarova hazırda dünyada olduqca gərgin proseslərin baş verdiyini, ölkələrimizin müxtəlif təzyiqlərlə və ikili standartlarla üzləşdiyini xatırladaraq, regionda müxtəlif ölkələrin və dairələrin öz gizli planlarını həyata keçirməyə çalışdıqlarını bildirib. Bu baxımdan Azərbaycan-Türkiyə birliyinin regional sabitlik, təhlükəsizlik üçün olduqca mühüm amil olduğu qeyd edilib. Eyni zamanda belə proseslərin qarşısının alınmasında türk dünyasının birliyinin, əməkdaşlığının vacibliyi ifadə edilib. Vurğulanıb ki, bu məsələlərdə müdafiə və təhlükəsizlik sahəsinin əhəmiyyəti böyükdür. Müntəzəm müzakirələr davam etdirilməli, bu sahədə ölkələrimizin əməkdaşlığının artırılmasına parlamentlərimizin birgə dəstəyi gücləndirilməlidir. Milli Məclisin Sədri bu mənada TÜRKPA-ya üzv parlamentlərin müdafiə və təhlükəsizlik üzrə komitələri sədrlərinin ikinci iclasının həm TÜRKPA-nın fəaliyyətinin daha da genişləndirilməsinə, həm də ölkələrimizin müdafiə və təhlükəsizlik sahəsində birgə fəaliyyətinin dərinləşdirilməsinə töhfə verəcəyinə inamını ifadə edib.

TBMM-in komitə sədri müdafiə, təhlükəsizlik, müdafiə sənayesinin inkişafında Azərbaycan və Türkiyənin böyük yol qət etdiklərini və ölkələrimizin bu istiqamətdə atdığı addımların heç bir üçüncü ölkəyə qarşı yönəlmədiyini bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Türk dövlətləri parlamentlərinin nümayəndə heyətləri Fəxri xiyabanı və Zəfər parkını ziyarət edib






Azərbaycanda səfərdə olan Türk dövlətləri parlamentlərinin müdafiə və təhlükəsizlik üzrə komitələri sədrlərinin ikinci iclasında iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan qonaqlar aprelin 15-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə gül dəstələri düzüblər.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə səfər çərçivəsində nümayəndə heyəti Bakıda Zəfər parkını ziyarət edərək abidə önünə gül dəstələri düzüb. Qonaqlara Azərbaycan xalqının Vətən müharibəsində qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılmış Zəfər parkı barədə ətraflı məlumat verilib. Ziyarət zamanı nümayəndə heyətini Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev və digər rəsmi şəxslər müşayiət ediblər.

*"Azərbaycan"*

# TÜRKPA-ya üzv dövlətlərin parlamentlərinin Müdafiə və təhlükəsizlik üzrə komitələri sədrlərinin ikinci iclası keçirilib

Aprelin 15-də Milli Məclisdə TÜRKPA-ya üzv dövlətlərin parlamentlərinin Müdafiə və təhlükəsizlik üzrə komitələri sədrlərinin ikinci iclası keçirilib. İclas "Türk dövlətləri arasında təhlükəsizlik və müdafiə üzrə əməkdaşlığın gücləndirilməsi: parlamentlərin rolu" mövzusuna həsr olunub.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə tədbirdə Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə, Özbəkistan və Şimali Kipr Türk Cümhuriyyəti parlamentlərinin təmsilçiləri, TÜRKPA-nın Baş katibi və digər rəsmi şəxslər iştirak ediblər.

İclası giriş nitqi ilə açan Azərbaycan Milli Məclisinin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev TÜRKPA üzv dövlətlərinin parlament nümayəndə heyətlərini salamlayaraq, tədbirin keçirilməsinə verdiyi dəstəyə görə Milli Məclisin spikeri, TÜRKPA-nın fəaliyyətdə olan sədri Sahibə Qafarovaya təşəkkürünü ifadə edib.

O, ölkə Prezidenti İlham Əliyevin "Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır" ifadəsinin önəmini qeyd edərək, türk dövlətlərinin siyasi, iqtisadi, təhlükəsizlik baxımından təşkilatlanmasının vacibliyindən danışıb. Bildirilib ki, Türk dövlətləri ilə bütün sahələrdə, o cümlədən parlament səviyyəsində əlaqələrin güclənməsi ölkəmizin prioritet məsələlərindəndir. Bu gün dünyada inkişafın, sülhün və təhlükəsizliyin təmin edilməsində Türk dövlətləri birliyi əsas güc strukturlarından biridir. Komitə sədri TÜRKPA-nın mühüm platforma kimi strateji hədəflərin həyata keçirilməsində önəmli addımlar atdığını, üzv dövlətlərin parlamentləri arasında əməkdaşlığın genişlənməsinə mühüm töhfələr verdiyini söyləyib.



Arzu Nağıyev TÜRKPA-ya üzv ölkələrin parlament komitələri arasında mütəmadi görüşlərin keçirilməsini təqdirəlayiq hesab edib. O, bildirib ki, parlamentlərarası əməkdaşlığın möhkəmləndirilməsi, digər formatlarda iş birliyinin genişləndirilməsi tarixi, mədəni və mənəvi köklərlə bir-birinə bağlı olan xalqlarımızın və ölkələrimizin ortaq maraqlarına xidmət edir. Quruma üzv dövlətlərin parlamentlərinin Müdafiə və təhlükəsizlik üzrə komitələri sədrlərinin iclaslarının bu sahədə əməkdaşlığın inkişafında mühüm əhəmiyyət kəsb etdiyini deyib. Parlamentlərin milli təhlükəsizlik və müdafiə strategiyalarını dəstəkləyən qanunvericilik bazasının formalaşmasında mühüm addımlar atdığını qeyd edib.

Komitə sədri Azərbaycanın 44 günlük Vətən müharibəsində öz ərazi bütövlüyünü bərpa etdiyini bildirib, Cənubi Qafqazda yaranan sabitliyin möhkəmləndirilməsi üçün sülh müqaviləsinin imzalanmasının vacibliyindən danışıb. O, Ermənistanın sülh müqaviləsini imzalamaqda maraqlı olmadığını təəssüflə qeyd edib.

Gələcəkdə müdafiə sənayesi, müdafiə və təhlükəsizlik sahələrində Türk dövlətləri ilə parlamentlər səviyyəsində çoxtərəfli əməkdaşlığın uğurla davam edəcəyinə inamını ifadə edən Arzu Nağıyev bu görüşün məhsuldar olacağını, aparılan səmərəli müzakirələrin birgə işbirliyimizin dərinləşməsinə öz töhfəsini verəcəyini söyləyib.

Sonra iclasda Türkiyə Böyük Millət Məclisinin Milli müdafiə komissiyasının sədri Hulusi Akar çıxış edərək, ötən il TBMM-nin evsahibliyi ilə keçirilmiş müdafiə komitələrinin birinci iclasını xatırlayıb. Tədbirin Türk dövlətləri arasında birliyin gücləndirilməsi baxımından önəmini qeyd edib. Bu gün dünyada baş verən proseslər, artan təhlükələr fonunda müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın, sülhün, əmin-amanlığın təşviqinin böyük əhəmiyyət kəsb etdiyini bildirib.

O, TÜRKPA-ya üzv dövlətlərin parlamentlərinin Müdafiə və təhlükəsizlik üzrə komitələrinin toplantılarının keçirilməsinin parlament diplomatiyası vasitəsilə regional əməkdaşlığın güclənməsində mühüm rol oynadığını vurğulayıb. Təşkilatın üzv dövlətlər arasında sıx əməkdaşlıq əlaqələrinin və inteqrasiyanın daha da gücləndirilməsi, bu ölkələrə aid aktual məsələlərin müzakirəsi üçün mühüm platforma rolunu oynadığını qeyd edib. Hulusi Akar bildirib ki, quruma üzv dövlətlər təşkilatın daha da inkişaf etməsi və nüfuzlu beynəlxalq quruma çevrilməsi üçün öz səylərini əsirgəmirlər. O, parlamentlər səviyyəsində əməkdaşlığın inkişaf etdirilməsi, qurumun fəaliyyətinin daha da genişləndirilməsi istiqamətində gələcəkdə atılacaq birgə addımların vacibliyi barədə fikirlərini səsləndirib.

Hulusi Akar Türk xalqlarının daha da yaxınlaşması, ölkələr arasında bütün sahələrdə əlaqələrin inkişafı, birgə strateji layihələrin həyata keçirilməsi istiqamətində ikitərəfli və çoxtərəfli əməkdaşlığın möhkəmləndirilməsinin önəmindən danışıb. Komitə sədri Azərbaycanın Qarabağ uğrunda haqlı mübarizəsində əldə etdiyi Zəfərin bütün Türk dünyası və dünya birliyi üçün bir nümunə olduğunu vurğulayıb.

O qeyd edib ki, Türk dövlətləri arasında əməkdaşlığın inkişafı regionda sabitliyin və qarşılıqlı anlaşmanın güclənməsinə xidmət edir, həmçinin dünya miqyasında Türk dünyasının beynəlxalq təsirini artırır.

İclasda Qazaxıstan Respublikası Parlamenti Senatının Beynəlxalq əlaqələr, müdafiə və təhlükəsizlik komitəsinin üzvü Amangeldi Nuqmanov ölkəsinin TÜRKPA-ya üzv dövlətlərlə dostluq münasibətlərinə malik olduğunu, əlaqələri ən yüksək formada inkişaf etdirmək və vahid türk ailəsinə daha da yaxın olmaq istiqamətində fəaliyyətini uğurla davam etdirdiyini söyləyib. O, qeyd edib ki, beynəlxalq müstəvidə birgə fəaliyyət və əməkdaşlıq müdafiə, habelə siyasi, iqtisadi, humanitar sahələrdə əlaqələrin inkişafı, ölkələrin milli və birgə təhlükəsizliyi ilə əlaqədar məsələlərin həlli baxımından mühüm əhəmiyyət kəsb edir.

Qırğız Respublikası Joqorku Keneşinin Beynəlxalq məsələlər, müdafiə, təhlükəsizlik və miqrasiya komitəsinin sədr müavini Eldar Sulaymanov öz çıxışında bu gün qlobal təhlükəsizlik məsələlərinin diqqət mərkəzində olduğunu qeyd edib, bu məsələlərin həllində parlament diplomatiyasının rolu barədə söhbət açıb. Türk dövlətlərinin beynəlxalq proseslərdə aktiv iştirakı və birgə təşəbbüsləri barədə fikirlərini bölüşüb.

Özbəkistan Respublikası Ali Məclisi Senatının Müdafiə və təhlükəsizlik komitəsinin sədri Kutbidin Burxanov dünyada gedən geosiyasi proseslər fonunda Türk dövlətləri birliyinin möhkəmləndirilməsi və regional həmrəyliyin dərinləşdirilməsinin xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb. TÜRKPA üzv dövlətləri arasında müdafiə və təhlükəsizlik sahəsində inteqrasiyanın gücləndirilməsi üçün strateji addımların atılmasına diqqət çəkib. O, strateji əməkdaşlıq planlarının Türk dünyasının təhlükəsizlik sahəsində koordinasiyasını artırmaqla yanaşı, regiondakı sabitliyin möhkəmləndirilməsinə xidmət etdiyini söyləyib.

İclasda çıxış edən Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin Hüquq, siyasi məsələlər, xarici işlər və müdafiə komitəsinin sədri Yasemi Öztürk bildirib ki, Türk dövlətlərinin birliyi həm regional sabitliyə, həm də qlobal miqyasda ədalətli dünya nizamının formalaşmasına yönəlib. O, Türk dövlətləri arasında bütün sahələrdə olduğu kimi, təhlükəsizlik məsələlərində də əməkdaşlığın gücləndirilməsinin vacibliyi barədə fikirlərini səsləndirib.

Sonra TÜRKPA-nın Baş katibi Mehmet Süreyya Er çıxış edərək, tədbirin yüksək səviyyədə təşkil olunduğunu bildirib. O, qeyd edib ki, mövcud beynəlxalq təhlükəsizlik mühitində dövlətlərimiz arasında birlik və həmrəyliyin daha da dərinləşməsi, hər sahədə əlaqələrin inkişafı mühüm rol oynayır. Türk dövlətləri arasında müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın ortaq təhdidlərə cavab verilməsi, strateji məqsədlərimiz, regional sabitlik baxımından mühüm əhəmiyyətə malik olduğunu vurğulayıb. Mehmet Süreyya Er bütün istiqamətlərdə olduğu kimi, bu sahədə də parlament diplomatiyasının önəmli rolundan danışıb. O, ölkələrimizin və ümumilikdə bölgənin təhlükəsizliyinin təmin edilməsi üçün atılan addımlarda parlamentlərin qarşılıqlı fəaliyyətinin və əməkdaşlığının özünəməxsus yerini qeyd edib. Üzv parlamentlərin Müdafiə və təhlükəsizlik üzrə komitələri sədrlərinin iclaslarının nəinki TÜRKPA çərçivəsində əməkdaşlığa, o cümlədən dövlətlərimizin və regionumuzun təhlükəsizliyinə mühüm töhfə verəcəyinə inamını bildirib.

İclasda çıxış edən Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvləri - Hikmət Məmmədov, Erkin Qədirli, Ramid Namazov, Qaya Məmmədov, Gülşən Paşayeva, Samir Vəliyev, Rizvan Nəbiyev, Səbinə Salmanova, Aydın Mirzəzadə, Mahir Süleymanlı, Türkiyə Böyük Millət Məclisinin Milli müdafiə komitəsindən - Abdürrahim Dusak, Aşkın Genç, Zuhal Karakoç Dora türk dövlətləri arasında təhlükəsizlik və müdafiə üzrə əməkdaşlığın gücləndirilməsi və bu sahədə parlamentlərin rolu ilə bağlı fikirlərini bölüşüblər, qeyd və təkliflərini səsləndiriblər.

İclasda gündəliyin digər məsələlərinə də baxılıb, müvafiq qərarlar qəbul olunub.

*"Azərbaycan"*



# Regionun lideri, qlobal proseslərin fəal iştirakçısı

## Azərbaycan öz qətiyyətli və müstəqil siyasəti ilə müasir dünya nizamına mühüm töhfələr verir

Azərbaycan beynəlxalq əhəmiyyətli çağırışları, baş verən qlobal proseslərin müsbət yöndə gedişatına təsir göstərəcək aktiv və effektiv fəaliyyəti ilə dünyada diqqət çəkir. Dörd il ərzində ölkəmizin dünyada BMT Baş Assambleyasından sonra ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatına (QH) uğurla sədrlik etməsi, müvəffəqiyyətlə evsahibliyi etdiyi beynəlxalq iqlim sammiti COP29-da bəşəriyyət adına mühüm qərarların qəbul olunması və sair kimi tarixi nailiyyətlər də beynəlxalq ictimaiyyət arasında böyük əks-səda doğurub, təqdirlə qarşılanıb.

Respublikamızın beynəlxalq arenada oynadığı mühüm rol Prezident İlham Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasının təzahürü kimi də dəyərləndirilir. Dövlətimizin başçısı tərəfindən həyata keçirilən qətiyyətli siyasət nəticəsində güclü iqtisadi dayaqların formalaşdırılması, daxili sabitliyə və təhlükəsizliyə nail olunması kimi mühüm amillər Azərbaycanın digər ölkələrlə hərtərəfli münasibətlər qurmasına birbaşa zəmin yaradıb.

Qafqazın lider ölkəsi olaraq nəinki bölgədə, eləcə də dünyada daim sülhə töhfələr verən, müharibələrin, münaqişələrin danışıqlar yolu ilə həllinə tərəfdar çıxan Azərbaycana uğurla rəhbərlik edən Prezident İlham Əliyev həm də qlobal barışdırıcılıq missiyası həyata keçirən fenomen şəxsiyyət kimi tanınır.

### Azərbaycan irsi

Tolerant, multikultural ölkə olaraq daim sülhü təşviq edən Azərbaycanın sivilizasiyalararası dialoqların baş tutduğu unikal ünvana çevrilməsi də təsadüfi deyil. Eyni zamanda 120 ölkəni birləşdirən mühüm siyasi platforma olan QH-nin də məhz ölkəmizin sədrliyi dövründə özünün ən uğurlu dövrünü yaşaması beynəlxalq səviyyədə etiraf olunan faktdır.

Azərbaycan Qoşulmama Hərəkatına üzv olduğu qısa zamanda həyata keçirdiyi xarici siyasət sayəsində bu təsisat daxilində də böyük nüfuz və etimad qazanıb. 2019-2022-ci illərdə təşkilata sədrliyi dövründə uğurlu fəaliyyəti və ona olan yüksək etimadın nəticəsi olaraq Hərəkata üzv ölkələrin yekdil qərarı ilə Azərbaycanın sədrliyi bir il daha uzadılıb. Sədrlik dövründə Prezident İlham Əliyevin təşəbbüsü ilə təşkilat tərəfindən mühüm qlobal tədbirlər həyata keçirilib, xüsusən QH-nin pandemiya ilə mübarizə tədbirləri beynəlxalq səviyyədə təqdir olunub. Ölkəmiz əksəriyyəti QH-yə üzv olan 80-dən çox ölkəyə ya ikitərəfli qaydada, ya da Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə COVID-19 ilə bağlı maliyyə və humanitar dəstək göstərib. ÜST-yə 10 milyon ABŞ dolları məbləğində könüllü töhfə verən Azərbaycan həmçinin beş ölkəni peyvəndlə təmin edib.

"Biz Qoşulmama Hərəkatında yaxşı irs qoyduq. Çünki müəyyən mərhələdə bu hərəkat bir qədər zəifləməyə başlamışdı. Beləliklə, biz yeni dinamika gətirdik. Biz uğurla yaradılmış Parlament Platforması və Gənclər Platforması yaradılması təşəbbüsü ilə çıxış etdik", - deyə bu il aprelin 9-da ADA Universitetində keçirilən "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forumda iştirakçıların suallarını cavablandıran zaman Prezident İlham Əliyev vurğuladı ki, beləliklə, bu, Azərbaycanın iki mühüm irsidir və biz Qoşulmama Hərəkatının institusional inkişafı və onun təşkilata potensial transformasiyası istiqamətində fəal işlədik.

Ötən il keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası da (COP29) Azərbaycanın "yaşıl gündəliy"i əsasında formalaşdırıldı desək, yanılmarıq. Bakıda keçirilən bu nəhəng konfransı digər COP-lardan fərqləndirən ən mühüm tarixi nailiyyət isə hazırkı uzlaşmayan dünyada yekdilliklə bəşəriyyəti narahat edən məsələlərlə bağlı qərarların qəbul edilməsi oldu. Belə ki, COP29-da Bakı Maliyyə Məqsədi (BMG) barədə razılıq əldə olundu, Paris Sazişinin 6-cı maddəsi tam şəkildə işlək vəziyyətə gətirildi, İtki və Zərər Fondu tam şəkildə institutlaşdırıldı, Bakı Adaptasiya Yol Xəritəsi yaradıldı və iqlimlə bağlı digər vacib qərarlar qəbul edildi.

Yuxarıda sözügedən beynəlxalq forumda dövlətimizin başçısı söylədi: "COP zamanı biz açıq şəkildə bəyan etdik ki, əsas hədəfimiz az inkişaf etmiş ölkələri, ekzistensial təhdidlə üzləşmiş ölkələri dəstəkləmək olacaq. Biz bunu etdik".

### İlham Əliyevin barışdırıcılıq missiyası

Ötən dövrdə, eləcə də bu günümüzdə Azərbaycan Prezidenti İlham Əliyevin dünyadakı siyasi qütblər arasındakı gərginliklərin aradan qaldırılmasında birbaşa rol oynaması ilə bağlı kifayət qədər misallar göstərmək, nümunələr çəkmək mümkündür. Məsələn, siyasi əlaqələri korlanmış, hətta müharibə səviyyəsinə qədər gəlmiş Türkiyə və Rusiya münasibətləri bir müddət əvvəl məhz Azərbaycanın hər iki ölkə arasında uğurlu vasitəçiliyi sayəsində normallaşmışdı.

Həm Türkiyə, həm də İsraillə yüksək səviyyədə əlaqələri olan Azərbaycan üçün bu iki ölkə arasında münasibətlərin gərgin olması arzuedilən deyil. Buna görə də ölkəmiz siyasi münasibətləri heç də yaxşı olmayan, hətta zaman-zaman gərginləşən Türkiyə ilə İsrail arasında münasibətlərin normallaşması üçün daim çalışıb. Bir müddət əvvəl çox gərgin qarşıdurmada olan bu iki dövlət arasında Azərbaycan barışdırıcı rol oynayıb.

Təəssüf ki, hazırda da sözügedən ölkələr arasında soyuq küləklər əsir. Bu mərhələdə də tərəflərin bir-biri ilə danışıqlar aparması, münasibətlərini qaydaya salması üçün məhz Azərbaycan barış missiyası həyata keçirir.

Aprelin 9-da keçirilən "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forumda iştirakçılardan birinin bununla əlaqədar sualını cavablandıran Prezident İlham Əliyev dedi ki, Türkiyə ilə İsrail arasında ilk uğurlu barışıq müəyyən dərəcədə Azərbaycanın vasitəçiliyi ilə əldə olunub. Çünki indi iki ölkə arasında baş verənlər ilk böhran deyil, yaxın keçmişdə ikincidir: "İndi biz bir növ dejavü yaşayırıq. Biz addımlarımızın alqoritmini bilirik. Mən sizi əmin edə bilərəm ki, yardım etməyə çalışmaq üçün səy göstəririk".

Ölkəmizin rəhbəri ümidvar olduğunu bildirdi ki, bu proses normallaşmaya aparacaq: "Dostlarınız arasında pis münasibətlərin olması hər zaman pisdir. Bu, onlar üçün pisdir, bizim üçün pisdir və dünya üçün pisdir. Çünki düşünürəm ki, legitim narahatlıqlara, kifayət qədər yüksək səviyyədə etimadsızlığa baxmayaraq, hələ də normallaşma və qarşılıqlı maraq doğuran sahələr üçün əsas tapmaq olar. Zənnimcə, proses dayanmamalıdır. Azərbaycan prosesə kömək etmək üçün əlində olan hər şeyi edir".

Göründüyü kimi, qlobal proseslərdə aktiv iştirak edən, dünyada müxtəlif kataklizmlərin səbəb olduğu fəsadların aradan qaldırılması üçün hərtərəfli dəstək göstərən Azərbaycan konfliktlərin, qarşıdurmaların aradan qaldırılması üçün də hər zaman böyük çaba göstərir.

Şəxsən Prezident İlham Əliyev tərəfindən gerçəkləşdirilən sülh missiyasını ümumilikdə insanlığa xidmət missiyası adlandırmaq olar. Çünki hər hansı nifaqa, münaqişəyə, müharibəyə təkcə iki dövlətə aid problem aspektindən yanaşmaq yanlışdır. Bu, təsirləri bütün dünyaya sirayət edəcək zəncirvari və arzuedilməz haldır. Məhz Azərbaycan Prezidentinin göstərdiyi səylər sayəsində neçə-neçə bu kimi bəşəriyyəti narahat edən problem aradan qaldırılıb. İlham Əliyevin xoşməramlı, uğurlu siyasəti həm də gərginlikdən normallaşmaya qədəm qoyan ölkələrin liderlərinin Azərbaycan Prezidentinin şəxsiyyətinə olan yüksək etimadının, sayğısının, güvəninin, inamının təzahürüdür.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Dövlət Statistika Komitəsi yanında Statistika Şurasının növbəti iclası keçirilib

2025-ci il aprelin 15-də Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi yanında Statistika Şurasının növbəti iclası keçirilib.



Əvvəlcə Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov iclasın gündəliyində duran məsələ - "2026-2030-cu illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı"nın layihəsi barədə şura üzvlərinə məlumat verib. Bildirib ki, rəsmi statistika məlumatlarının beynəlxalq müqayisəliliyinin təmin edilməsi üçün milli statistika sisteminin beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi və dünya statistika sisteminə inteqrasiyası Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır. Ölkədə onun rəhbərliyi ilə başlanmış və sonrakı illərdə uğurla davam etdirilən islahatlar rəsmi statistikanın da inkişafına güclü təkan vermiş, statistika sisteminin hüquqi bazası yaradılmış, bu sahədə ardıcıl olaraq icra edilmiş 6 dövlət proqramı çərçivəsində milli statistik təsnifatların, müasir metodologiyaların hazırlanması və tətbiqi, Milli Hesablar Sisteminin qurulması, yeni statistika sahələrinin yaradılması və təkmilləşdirilməsi, istifadəçilərin statistik məlumatlara olan tələbatının ödənilməsi, elektron statistikanın inkişafı, sahibkarların üzərinə düşən statistik yükün azaldılması, rəsmi statistika istehsalı proseslərinin səmərəliliyinin yüksəldilməsi, keyfiyyəti idarəetmə sisteminin tətbiqi, metaməlumatların işlənilməsi, statistika orqanlarının maddi-texniki bazasının gücləndirilməsi istiqamətlərində mühüm tədbirlər görülmüşdür. T.Budaqov vurğulayıb ki, qeyd olunanlarla yanaşı Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər", qəbul edilmiş müxtəlif dövlət proqramları və strategiyalar üzrə qarşıya qoyulmuş hədəflərə, habelə dayanıqlı inkişaf məqsədlərinə nailolma vəziyyətinin statistik qiymətləndirilməsi, artan istifadəçi tələbatının qarşılanması, eləcə də beynəlxalq müqayisəliliyin təmin olunması üçün tətbiq olunan statistik metodologiya, təsnifat və digər standartlarda baş verən dəyişiklik və təkmilləşmələr rəsmi statistikanın inkişafı ilə bağlı yeni strateji hədəflərin müəyyənləşdirilməsini və reallaşdırılmasını şərtləndirir. Bu məqsədlə hazırlanmış "2026-2030-cu illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı"nın layihəsinə iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə statistik göstəricilər sisteminin, metodologiyaların hazırlanması və təkmilləşdirilməsi, müşahidələrin aparılması, əldə edilən statistik məlumatların yayımı, ümumilikdə rəsmi statistika qarşısında duran vəzifələrin vaxtında və keyfiyyətlə icrası məqsədilə statistik istehsalın hüquqi və informasiya təminatının, beynəlxalq əməkdaşlığın, statistika orqanlarının maddi-texniki bazasının və kadr potensialının gücləndirilməsi, habelə milli statistika sisteminin növbəti çoxillik dövr üzrə strateji inkişaf prioritetlərinin müəyyənləşdirilməsi məsələləri daxil edilib.

Daha sonra komitə sədrinin müavini Yusif Yusifov Statistika Şurasının üzvlərinə Dövlət Proqramının strukturu, hədəf göstəriciləri və prioritet istiqamətləri barədə ətraflı məlumat verib. Qeyd olunub ki, layihəyə ümumilikdə 42, o cümlədən sosial, iqtisadi və çoxsahəli statistika sahəsində müşahidələrin təşkili və onlara dair metodologiyaların təkmilləşdirilməsi üzrə 24, rəsmi statistika istehsalının hüquqi və informasiya təminatı üzrə 4, beynəlxalq əməkdaşlıq üzrə 3, maddi-texniki bazanın və kadr potensialının gücləndirilməsi üzrə 8, milli statistika sisteminin strateji inkişaf prioritetlərinin müəyyənləşdirilməsi üzrə 3 tədbir daxil edilib.

Sonra Statistika Şurasının üzvləri əvvəlcədən onlara təqdim edilmiş dövlət proqramı layihəsi ilə bağlı müsbət fikirlərini bildirmiş, sənədin qanunvericiliyin tələblərinə uyğun hazırlandığını, beynəlxalq trendlər nəzərə alınmaqla növbəti dövr üçün milli statistika sistemi qarşısında duran vəzifələri əhatə etdiyini diqqətə çəkərək onun aidiyyəti üzrə təqdim olunmasını məqsədəuyğun hesab etmişlər.

*"Azərbaycan"*

# Mehriban qonşuluq, güclü strateji tərəfdaşlıq

## Mixeil Kavelaşvili Gürcüstanın yeni Prezidenti kimi ilk səfərini Azərbaycana etməsi bunu təsdiqləyən reallıqdır

Gürcüstan Prezidenti Mixeil Kavelaşvili dünən ölkəmizə rəsmi səfərə gəlib. Bu, Gürcüstanın xarici siyasətində ənənəyə sadiqlik nümunəsidir. Dost ölkədə yeni prezident seçilən şəxs ilk səfərini Azərbaycana edir.



Azərbaycan Gürcüstanın strateji tərəfdaşıdır. Gürcüstan Prezidentinin ilk xarici səfərini Azərbaycana etməsi çox mühüm əhəmiyyət kəsb edir.

Gürcüstanın yeni liderinin səfər edəcəyi ilk ölkə kimi Azərbaycanı seçməsi təsadüfi deyil. İki ölkə onilliklər ərzində siyasət, enerji, nəqliyyat və təhlükəsizlik kimi bir çox sahələrdə sıx əməkdaşlıq edir. Səfər Kavelaşviliyə öz administrasiyasının prioritetlərini müəyyənləşdirmək və Gürcüstanın Azərbaycanla strateji müttəfiqliyinə sadiqliyini bir daha təsdiqləmək imkanı verəcək.

Mehriban qonşuluq münasibətləri və sadiq dostluq əlaqələri Azərbaycanla Gürcüstanın strateji tərəfdaşlığını getdikcə daha da gücləndirir. Ölkələrimiz arasında əməkdaşlığın davamlı inkişafını şərtləndirən mühüm amillər mövcuddur. Bunu gücləndirən isə ölkə liderlərinin ənənəvi görüşləri, iki dost arasında imzalanan mühüm sənədlər, qarşılıqlı səfərlərdir. Bütün bunlar ölkələrimizin bir-birinə daha da yaxın olmasına və xalqlarımızın sıx dostluğuna xidmət edir.

Ümumiyyətlə, iki ölkəni mehriban qonşuluq və tarixi dostluq əlaqələri, siyasi, iqtisadi, humanitar və digər sahələrdə strateji tərəfdaşlıq əlaqələri birləşdirir. 1996-cı il martın 8-də imzalanan "Azərbaycan Respublikası ilə Gürcüstan arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizliyin möhkəmləndirilməsi haqqında Müqavilə" ölkələrimiz arasında strateji tərəfdaşlığın təməlini qoyan sənəddir.

İki ölkə arasında diplomatik əlaqələr 1992-ci il noyabrın 18-də qurulub. Bu il noyabr ayında diplomatik münasibətlərin 33-cü ili qeyd ediləcək. 1995-ci ilin fevral ayında Bakıda Gürcüstan səfirliyinin, 1996-cı ilin mart ayında isə Tbilisidə Azərbaycan səfirliyinin açılışı ikitərəfli əlaqələrin inkişafına əlavə stimul verib.

Gürcüstan regionda Azərbaycanın ən yaxın müttəfiqlərindən biridir. Gürcüstanla Azərbaycanı Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və TRASEKA kimi qlobal enerji, Bakı-Tbilisi-Qars dəmir yolu kimi nəqliyyat-kommunikasiya layihələri birləşdirir. Son illərdə Bakı-Tbilisi-Qars dəmir yolunun tam gücü ilə işə salınması üçün birgə səylər göstərilib. Azərbaycanın əlavə sərmayəsi və Gürcüstan tərəfinin səyləri nəticəsində bu yolun yükaşırma qabiliyyəti 1 milyon tondan 5 milyon tonadək artırılıb. Orta dəhlizin mühüm halqası olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yükaşırma qabiliyyətinin isə ildə 15 milyon tondan 25 milyon tona qədər artırılması istiqamətində fəal işin aparılmasına başlanılıb.

Bununla paralel olaraq, GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər qurumlar daxilində əməkdaşlıq ikitərəfli strateji əlaqələri daha da möhkəmləndirib.

Həqiqətən də bu gün Azərbaycan və Gürcüstan strateji tərəfdaşlıq mərhələsini geridə qoyaraq müttəfiqlik səviyyəsinə yüksəlib. Azərbaycan-Gürcüstan münasibətləri faktiki olaraq, tərəflərin ortaq strateji maraqlarına söykənir. Ölkələrimiz arasında ildən-ilə möhkəmlənən bu əlaqələrin daha da inkişaf etməsi üçün böyük layihələr həyata keçirilir. İki dövlət arasındakı əlaqələr daim yüksələn xətt üzrə inkişaf edir.

Gürcüstanın Azərbaycandakı səfiri Zurab Pataradze jurnalistlərə verdiyi açıqlamasında söyləyib ki, Prezident Mixail Kavelaşvilinin ilk xarici səfəri Azərbaycandan başlayır. İlk səfərin Azərbaycana olması çox vacibdir. Səfər çərçivəsində Prezident İlham Əliyevlə yüksəksəviyyəli görüşlər keçiriləcək.

Bu görüşlərdə ikitərəfli əməkdaşlıq və regional təhlükəsizlik məsələləri diqqət mərkəzində olacaq.

Onun sözlərinə görə, hazırda ölkələrimiz arasında həyata keçirilən iqtisadi layihələr, xüsusilə bərpaolunan enerji məsələləri və bir sıra meqa layihələr barədə məsələlər də müzakirə ediləcək.

Əlbəttə ki, ilk səfər iqtisadi inteqrasiyanın dərinləşdirilməsinə və regional münaqişələrlə bağlı risklərin azaldılmasına yönəlmiş yeni ideyaların müzakirəsi üçün platformaya çevrilə bilər ki, bu da mövcud qeyri-sabitlik şəraitində xüsusilə vacibdir.

İki qonşu və dost dövlətin səmərəli əməkdaşlığını ifadə edən digər iqtisadi göstəricilər də diqqət çəkir. Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin bu il yanvarın 17-də Azərbaycana işgüzar səfəri çərçivəsində Azərbaycan və Gürcüstan liderlərinin mətbuata bəyanatlarında da bu öz ifadəsini tapıb.

Prezident İlham Əliyev nitqində bir sıra mühüm tarixi faktları diqqətə çatdıraraq Azərbaycanın Gürcüstan iqtisadiyyatına 3,6 milyard dollar sərmayə qoyduğunu bildirmişdi. Dövlət başçısı qeyd etmişdi ki, Azərbaycan Gürcüstan tranziti vasitəsilə hazırda 11 ölkəyə öz təbii qazını ixrac edir, ixrac ildən-ilə artır. Keçən il bu, 25 milyard kubmetrə çatıb və bunun 10 faizi - ümumi ixracın 10 faizi Gürcüstanın payına düşür.

Azərbaycan Dövlət Neft Şirkətinin müvafiq qurumu Gürcüstanın qazla təminatında mühüm rol oynayır və neftin topdan və pərakəndə satışını, neft və neft məhsullarının, eləcə də mayeləşdirilmiş qazın ölkəyə idxalını reallaşdırır, neft terminalı və anbarlarının tikintisini gerçəkləşdirir. Şirkət Gürcüstandakı neft satışının 72 faizinə, dizel satışının isə 61 faizinə nəzarət edir, bundan başqa, Kulevi neft terminalı da şirkətin ixtiyarındadır.

Azərbaycan-Gürcüstan əməkdaşlığında energetikanın ənənəvi sahələri ilə yanaşı, "Yaşıl enerji dəhlizi" layihəsi də xüsusi yer tutur. Bu məsələdə də hər iki ölkə Avropa dövlətləri ilə sıx əməkdaşlıq edir. Bu istiqamətə böyük sərmayə qoyuluşu nəzərdə tutulur və beləliklə, "Yaşıl enerji dəhlizi", enerji kabeli inşa edilərək həm Gürcüstanın, həm də tərəfdaş ölkələrin enerji təhlükəsizliyi güclənəcək.

Bir sözlə, Mixeil Kavelaşvilinin Azərbaycana səfəri dost ölkələr arasında tərəfdaşlığın möhkəmləndirilməsində mühüm addım olacaq. Bu həm də Tbilisi və Bakının iqtisadi əməkdaşlığa, regional sabitliyi diqqət mərkəzində saxlamaqla çağırışlara birgə cavab vermək istəyini əks etdirir.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Hesablama Palatasının 2024-cü ildə fəaliyyəti haqqında hesabatı müzakirə olunub

Aprelin 15-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə iclası açan komitənin sədri Azər Əmiraslanov gündəliyə 3 məsələnin daxil edildiyini bildirib.



İlk olaraq Azərbaycan Respublikası Hesablama Palatasının 2024-cü ildə fəaliyyəti haqqında hesabatı təqdim olunub. Komitə sədri diqqətə çatdırıb ki, hesabat qanunvericiliyin bütün tələblərini özündə ehtiva edir.

Azərbaycan Respublikası Hesablama Palatasının 2024-cü ildə fəaliyyəti haqqında hesabatını slaydlarla təqdim edən palatanın sədri Vüqar Gülməmmədov bildirib ki, hesabat hazırlanarkən Hesablama Palatasının həm audit, həm də qeyri-audit fəaliyyətinin əhatə olunmasına çalışılıb, palatanın il ərzində fəaliyyəti barədə icmal-statistik məlumatları hesabata daxil edilib.

Vüqar Gülməmmədov diqqətə çatdırıb ki, palatanın fəaliyyəti 4 istiqamətdən ibarətdir. O, qeyd edib ki, 2024-cü ildə palata tərəfindən audit və analitik fəaliyyət formasında 44 nəzarət tədbiri keçirilib. Bu tədbirlərin 45,5 faizində audit və ya analitik fəaliyyət ilk dəfə və ya fərqli mövzu üzərindən olmaqla keçirilib. 1 audit və 1 analitik fəaliyyət "Dövlət sirri haqqında" Qanuna əsasən məxfilik rejimində aparılıb.

Auditlərin əhatə dairəsini dövlət büdcəsinin gəlir və xərc parametrləri, borclanma və kəsirin maliyyələşdirilməsi mənbələri və əksər büdcədənkənar dövlət fondları təşkil edib. Belə ki, 2024-cü ilin iş planına əsasən keçirilmiş auditlərlə icmal büdcənin tərkib hissəsi olan dövlət büdcəsinin müxtəlif illər üzrə 8,3 milyard manatı, büdcədənkənar dövlət fondları üzrə Dövlət Neft Fondunun, Dövlət Sosial Müdafiə Fondunun və İşsizlikdən Sığorta Fondunun, eləcə də Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminatı Fondunun 2023-cü ilin büdcələri, qeyri-büdcə vəsaiti üzrə isə 2022-2024-cü illər üzrə 1,0 milyard manat əhatə edilib.

Dövlət büdcəsinin gəlirləri üzrə inzibatçılığın təşkili 1 auditdə, dövlət büdcəsinə vergilərin hesablanıb ödənilməsi 22 auditdə, dövlət büdcəsinin xərcləri 38 auditdə araşdırılıb. Auditlərdə xərclərin proqnozlaşdırılması, hesablanması, icrası və digər öhdəliklərin yerinə yetirilməsi uyğunluq, maliyyə və səmərəlilik elementləri aspektindən qiymətləndirilib və hesabatda audit nəticələri həmin elementlər üzərindən qruplaşdırılıb.

Hesabat ilində 39 auditdə büdcə qanunvericiliyinin pozulması, 34 auditdə dövlət satınalmaları və 16 auditdə əsaslı xərclər üzrə hüquqi aktların tələblərinin pozulduğu müəyyən edilib.

Vahid büdcə təsnifatına əməl olunmaması, publik hüquqi şəxslərdə dövlət sifarişinin mahiyyətini müəyyənləşdirən tələblərin doğru müəyyən edilməməsi, ilin sonunda büdcə vəsaitlərinin geri qaytarılmaması üçün müxtəlif mexanizmlərin tətbiqi, büdcə vəsaitinin müxtəlif şərtlərlə banklara depozitə yerləşdirilməsi, vakant vəzifələrin ardıcıl olaraq 3 aydan bir təkrarən həvalə kimi sənədləşdirilməsi, xərc normativlərinə, xüsusən beynəlxalq və ölkə səviyyəli tədbirlərdə əməl olunmaması, mükafat və maddi yardımların artıq hesablanması kimi hallar pozuntular siyahısına aid edilməlidir.

Dövlət satınalmaları üzrə hesabat ilində də hər üç mərhələdə - planlaşdırma, keçirilmə, müqavilələrin bağlanması və icrası mərhələlərində nöqsanlara yol verilib.

Audit nəticələri göstərir ki, bir mənbədən satınalma metodunun tətbiqi zamanı ehtimal olunan qiymətin ümumiyyətlə və ya düzgün hesablanmaması, ehtimal olunan qiymətlərin müəyyənləşdirilməsi prosesində qeyri-ixtisaslı fiziki və ya hüquqi şəxslərdən qiymət təkliflərinin formal olaraq cəlb edilməsi, satınalma metodunun dəyişdirilməsinə razılıq tarixindən əvvəl və ya razılıq məbləğindən çox olmaqla satınalma müqaviləsinin bağlanması, qanunvericilikdəki məhdudiyyətlər nəzərə alınmadan satınalma müqaviləsinin həcminin və ya predmetinin ciddi dəyişdirilməsi, müqavilələrin icrasında gecikmələrə yol verilməsinə görə icraçılara cərimə tətbiq edilməməsi və ya şərtlər toplusunda nəzərdə tutulmadığı halda icra müddətinin dəyişdirilməsi halları üstünlük təşkil edib.

Palata sədri qeyd edib ki, kənar dövlət maliyyə nəzarətinin digər forması analitik fəaliyyətdir. 2024-cü ilin iş planına əsasən Hesablama Palatası tərəfindən, 1-i məxfilik rejimində olmaqla, 2 analitik fəaliyyət keçirilmiş, bu nəzarət tədbirləri ilə büdcə təşkilatları və dövlət büdcəsindən maliyyə yardımı alan təşkilatların debitor və kreditor borcları araşdırılmış, borcların büdcə təsnifatları üzrə strukturu, kontragentlər və müddətlər üzrə tərkibinin təhlili, uçotu və hesabatlılığının qiymətləndirilməsi predmet kimi müəyyən edilib.

Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsi tərəfindən hesabat ilində 6 uyğunluq auditi və 2 analitik fəaliyyət keçirilib. Auditlərin əhatə dairəsini Naxçıvan Muxtar Respublikasının büdcə vəsaitləri təşkil edib. 2024-cü ilin iş planına əsasən keçirilmiş auditlərlə icmal büdcənin tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının büdcəsi 2023-2024-cü illər üzrə 180,6 milyon manatı əhatə edib. Auditlərlə müəyyən edilmiş nöqsanlar daha əvvəl sadalanan xarakterdə olub.

Maliyyə hesabatları üzrə təhriflərin məbləği 2 milyard 66 milyon manat təşkil etmişdir. Bu məbləğin 888,0 milyon manatını əhəmiyyətli - maliyyə hesabatlarında məlumatların əks etdirilməməsi ilə bağlı təhriflər təşkil etmişdir. Qalan 1 milyard 178,2 milyon manatını digər qrup təhriflər - mühasibat yazılışlarının doğru verilməməsi nəticəsində məbləğlərin düzgün və müvafiq istiqamətdə əks olunmaması halları təşkil edib.

Nöqsan məbləğini formalaşdırlan sonuncu komponent isə səmərəsiz xərclərdir. Bunun ümumilikdə məbləği 157,7 milyon manat olub.

Əvvəlki illərin iş planları üzrə nəzarət tədbirləri ilə hesabat dövründə 8,6 milyon manat bərpa edilib. Bundan əlavə, 2023-cü ildə maliyyə hesabatlarının auditi üzrə aşkarlanmış 661,5 milyon manat əhəmiyyətli təhriflərin 400,0 milyon manatdan çox məbləğ üzrə müvafiq düzəlişlər edilib. Hesabat dövründə Hesablama Palatasının nəzarət tədbirlərinin materialları əsasında prokurorluq orqanları tərəfindən 7,4 milyon manatın bərpası və digər tədbirlərin görülməsi təmin edilib.

Vüqar Gülməmmədov diqqətə çatdırıb ki, "Hesablama Palatası haqqında" Qanuna görə, Hesablama Palatası dövlət büdcəsi və büdcədənkənar dövlət fondlarının büdcələrinin icrasına və layihələrinə rəy verir. 2024-cü ildə Hesablama Palatası tərəfindən dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının büdcələrinin layihələri və icrası üzrə 6 rəy, yenidən baxılma üzrə layihələrə isə 3 rəy hazırlanaraq təqdim olunub.

2023-cü ilin dövlət büdcəsinin icrasına rəy ilə müəyyən edilmiş uyğunsuzluq məbləği 1296,9 milyon manat, 2025-ci ilin büdcə layihəsinə verilmiş rəy ilə uyğunsuzluq məbləği 82,9 milyon manat olub. Uyğunsuzluqlar arasında vahid büdcə təsnifatına əməl olunmaması üstünlük təşkil edib.

Hesabat ilində Milli Məclislə intensiv əməkdaşlıq davam etdirilib, kənar dövlət maliyyə nəzarəti nəticələri, fəaliyyət hesabatı, büdcə rəyləri təqdim olunub. Bundan əlavə, 2-si ətraf mühitin auditi ilə bağlı olmaqla, 3 səmərəlilik auditinin nəticələrinin müzakirə olunduğu kollegiya iclaslarına müvafiq komitələrin sədrləri və üzvləri dəvət edilib. Eləcə də, Milli Məclisin deputatları tərəfindən səsləndirilən fikirlər nəzərə alınmaqla 2024-cü ilin iş planına 2 yeni kənar dövlət maliyyə nəzarəti tədbiri əlavə edilib.

İcra hakimiyyəti orqanları ilə əməkdaşlıq da uğurla davam etdirilib, Hesabat ilində Baş Prokurorluq və Hesablama Palatası arasında qarşılıqlı əməkdaşlıq barədə memorandum imzalanıb.

2024-cü ildə ilk dəfə Hesablama Palatasının bütün fəaliyyətini əhatə edən Risk reyestri hazırlanıb. Risk reyestrində 37 risk əks olunub, risklər müxtəlif dərəcələr üzrə (aşağı, orta və yüksək) indeksləşdirilib.

Vüqar Gülməmmədov qeyd edib ki, digər bir məsələ məsafədən audit və böyük verilənlərin təhlili ilə bağlıdır. Hesabat ilində bu sahədə mövcud beynəlxalq təcrübə öyrənilib, məsafədən auditə imkan verən proqram təminatının yaradılması məqsədilə ilkin konsepsiya və texniki tapşırığın ilkin layihəsi hazırlanıb.

Müzakirələrdə komitə sədri Azər Əmiraslanov, sədr müavini Azər Badamov, deputatlar Əli Məsimli, Tahir Mirkişili, Vüqar Bayramov, Ziyad Səmədzadə, Aydın Hüseynov, Rövşən Muradov çıxış edərək hesabat barədə fikirlərini bildiriblər, qeyd və təkliflərini diqqətə çatdırıblar.

Palatanın sədri Vüqar Gülməmmədov deputatların qaldırdıqları məsələlərə münasibət bildirdikdən sonra Azərbaycan Respublikası Hesablama Palatasının 2024-cü ildə fəaliyyəti haqqında hesabatı Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

İclasda üçüncü oxunuşda "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Üzümçülük və şərabçılıq haqqında", "Dərman vasitələri haqqında" və "Reklam haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanunun layihəsinə də baxılıb və Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə edilib.

İclasda son olaraq "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi də müzakirə olunub.

Bu qanun layihəsi də Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***"Azərbaycan"***

# Türkiyənin Ailə və Sosial Xidmətlər Nazirliyinin nümayəndə heyəti ilə görüş olub

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Türkiyə Respublikasının ailə və sosial xidmətlər nazirinin müavini Sevim Sayım Madakın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş olub.



Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev Prezident İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında qarşılıqlı hörmət və etimada əsaslanan qardaşlıq münasibətlərinin, fəal siyasi dialoqun bu gün iki ölkənin bütün sahələrdə əməkdaşlığının möhkəmləndirilməsinin əsasını təşkil etdiyini bildirib.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı Azərbaycanla Türkiyənin münasibətlərinin müttəfiqlik səviyyəsinə yüksəldiyi, əmək və sosial müdafiə sahəsində də əlaqələrimizin daim genişlənməkdə olduğu vurğulanıb. Ötən dövrdə iki ölkə arasında bu sahədə əməkdaşlığa dair 8 sənədin imzalandığı diqqətə çatdırılıb. Ölkəmizdə son illər aparılan sosial islahatların uğurları, o cümlədən DOST konsepsiyası, sosial sahədə rəqəmsal həllərin geniş tətbiqi işləri qeyd edilib.

Azərbaycanda sosial xidmətlər və övladlığagötürmə, himayədar ailə sahələrində görülən işlərdən bəhs olunub, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Türkiyənin Ailə və Sosial Xidmətlər Nazirliyi arasında bu sahələrdə fəal əməkdaşlıq təcrübəsinin mövcud olduğu vurğulanıb. Xüsusilə, son illər iki nazirlik arasında imzalanan əməkdaşlıq haqqında Anlaşma Memorandumunun və bu sənədin tətbiqinə dair Fəaliyyət Planının əhəmiyyəti diqqətə çatdırılıb.

Sevim Sayım Madak ikitərəfli əməkdaşlığın ildən-ilə genişlənməsindən məmnunluğunu ifadə edib, əlaqələrin gələcək inkişafı üçün səylərin qarşıdakı dövrdə də davam etdiriləcəyini bildirib. Görüşdə iki qurum arasında əməkdaşlıq perspektivləri müzakirə olunub.

Nümayəndə heyəti üçün nazirlikdə "Əlilliyi olan şəxslərə dair siyasət və xidmətlər", "Əlilliyi olan şəxslər üçün müyəssərliyin təmin olunması" və "Əlilliyi olan şəxslərin sosial həyatda iştirakı və məşğulluğunun təmin olunması" mövzularında təqdimatlar edilib.

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Hidayət Abdullayev ölkəmizdə əlilliyi olan şəxslərin sosial müdafiəsi və reabilitasiyası, onların cəmiyyətə inteqrasiya imkanlarının artırılması sahəsində aparılan işləri diqqətə çatdırıb.

Görüşdə həmin mövzularda müzakirə və təcrübə mübadiləleri aparılıb.

# "YARAT"da "Bir zamanlar dəniz" adlı qrup sərgisinin açılışı olub

Aprelin 15-də "YARAT" Müasir İncəsənət Mərkəzinin XX-XXI əsrlər Azərbaycan Rəngkarlığı Muzeyində "Bir zamanlar dəniz" adlı qrup sərgisinin açılışı olub. Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və "YARAT" Müasir İncəsənət Məkanının təsisçisi, rəssam Aida Mahmudova sərgi ilə yaxından tanış olublar.














AZƏRTAC xəbər verir ki, sərgidə Azərbaycan sənətçilərinin rəngkarlıq, qrafika, fotoqrafiya, video və instalyasiya əsərləri təqdim olunub.

Sərginin kuratoru Zəhra Məmmədova AZƏRTAC-a açıqlamasında bildirib ki, sərgi Xəzər dənizi ilə onun ətrafında əsrlər boyu yaşayan insanlar arasında formalaşmış psixoloji, mədəni və arxetipik əlaqələri araşdırır. O, sərginin əsas ideyasının havaylı tədqiqatçı Karin İnqersoll tərəfindən irəli sürülmüş "dəniz epistemologiyası" anlayışına istinad etdiyini vurğulayıb.

"Onun təbirincə, dəniz, sadəcə, bir coğrafi məkan deyil, həm də dünyanı dərk etməyin və formalaşmağın bir yoludur. Bu mənada Xəzər insanın öz kimliyini, tarixini və arzularını oxuya biləcəyi bir məkana çevrilir. Sərgidə dənizə yalnız baxılmır, həm də onunla qarşılaşma baş verir. Multidisiplinar yanaşma vasitəsilə ekspozisiya su ilə münasibətlərimizin canlı arxivinə, ekoloji itki, mədəni unudulma və bağın yenidən qurulması ehtimalı üzərində həm poetik, həm də tənqidi düşüncəyə çevrilir.

Elmi proqnozlara görə, çağdaş əsrin sonuna qədər Xəzər dənizinin sahəsi 25 faizə qədər azala bilər. Tarix boyu Xəzərin su səviyyəsi dövri şəkildə dəyişmiş olsa da, bu gün baş verən proseslər geri dönməz xarakter daşıya və birbaşa antropogen dövrlə əlaqəli ola bilər", - deyə kurator əlavə edib.

Sərginin, həmçinin filosof Həsən Quliyevin "Arxetipik azərilər: mentalitetin simaları" kitabına istinad olunduğunu diqqətə çatdıran Zəhra Məmmədova söyləyib: "Bu əsərdə dənizin əksər hallarda müqəddəs bir varlıqdan daha çox təhlükə və ya resurs kimi qəbul edildiyi qeyd olunur. Sərgi belə bir sual ortaya qoyur: görəsən, bu yanaşma dəyişə bilərmi? Xəzər dənizi itki yeri olmaqla yanaşı, eyni zamanda qayğı göstərilən, təxəyyülü oyadan və mənəvi bağlar quran bir varlıq kimi yenidən mənalandırıla bilərmi?".

Ekspozisiya dənizlə həm tarixi, həm də müasir perspektivdən tanışlığı təklif edir. Sovet dövrü Azərbaycan sənətçilərinin əsərləri və arxiv materialları Xəzərin əsrlər boyu Azərbaycan şüurunun periferiyasında necə mövcud olduğunu nümayiş etdirir: görünən, lakin uzaq, istismar olunan, lakin nadir hallarda canlı orqanizm kimi qəbul edilən. Müasir sənətçilər isə bunun əksinə olaraq, Xəzəri incə və intim bir məkan kimi təsvir edirlər. Müxtəlif media vasitəsilə insanla dəniz, keçmişlə indi, yaddaşla unudulma arasında dialoq qururlar".

Sərgidə Nadir Eminov, Baba Əliyev, Müseyib Əmirov, Ənvər Əsgərov, Lətif Feyzullayev, Hüseyn Haqverdiyev, Mirnaib Həsənoğlu, Gündüz Hunlar, Zakir Hüseynov, Fərhad Xəlilov, Fikrət İbrahimli, Ülviyyə İman, Nadir Qasımov, Novruz Məmmədov, Oqtay Mirqasımov, Aleksandr Mişon, Elvin Nəbizadə, Elnarə Nəsirli, Maral Rəhmanzadə, Rais Rəsulzadə, Əli Rza, Aliya Bayramova & Timur Zaripov, Mirnadir Zeynalov və CHINGIZ kimi müxtəlif nəsillərə mənsub sənətçilərin əsərləri nümayiş olunur.

Tədbir çərçivəsində kurator və yazıçı Dərya Yücel, müstəqil kurator və "Artcom" platformasının təsisçisi Aigerim Kapar və rəssam CHINGIZ-in iştirakı ilə "Xəzər dənizinin kölgəsi mövzusuna həsr olunmuş panel müzakirə də aparılıb.

Sonda Xalq artisti Oqtay Mirqasımovun 1965-ci ildə ekranlaşdırdığı "Dəniz" adlı sənədli film nümayiş olunub.

Nümayişdən əvvəl çıxış edən Azərbaycan Dövlət Film Fondunun direktoru, Əməkdar incəsənət xadimi Cəmil Quliyev qeyd edib ki, ötən əsrin 60-cı illərində sənədli filmlərə yeni nəfəs gətirən nümunələr meydana çıxmışdı. Bu filmlərin özünəməxsus poetik dünyası var. "Dəniz" filmi də məhz bu dövrün məhsuludur.

Ekran əsərinin çoxulduzlu aktyor heyətinə məxsus olduğunu diqqətə çatdıran C.Quliyev deyib: "Ekran əsəri cəmi 17 dəqiqə davam edir və dialoqdan istifadə olunmur. Sadəcə, musiqi və səslərlə müşayiət olunur. Musiqi isə əsasən dənizi təsvir edir və onun ovqatını ötürür".

# Azərbaycanın xarici siyasətinin uğurları

Parlament diplomatiyası

## Azərbaycanın uğurları və prioritetləri bir daha dünyaya bəyan olundu

### Milli Məclis nümayəndə heyətinin Rumıniyaya səfəri məhsuldar keçib

Bir neçə gün əvvəl Rumıniyanın paytaxtı Buxarest şəhərində Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin (QDİƏT PM) İqtisadi siyasət və inkişaf komitəsinin 64-cü iclası keçirilib. İclasda Milli Məclisin Hesablayıcı komissiyasının sədri, QDİƏT PM-də Azərbaycan nümayəndə heyətinin rəhbəri Eldar Quliyevin başçılığı ilə Milli Məclisin nümayəndə heyəti də iştirak edib.



QDİƏT ilə münasibətlər Azərbaycanın xarici siyasətində diqqət yetirdiyi məsələlərdəndir. Respublikamız qurumun region ölkələrinin ikitərəfli və çoxtərəfli əməkdaşlığının dərinləşdirilməsinə, ümumi problemlərin həllinin tapılmasına verdiyi töhfələri daim yüksək qiymətləndirir. QDİƏT-in Parlament Məclisi isə üzv ölkələrin milli parlamentlərinin təmsil olunduğu qurumdur. Eldar Quliyevin sözlərinə görə, respublikamız QDİƏT PM-nin 13 üzvündən və təsisçilərindən biridir və hazırda bu quruma sədrliyi Azərbaycan Milli Məclisinin Sədri Sahibə Qafarova həyata keçirir.

#### Azərbaycanın "yaşıl enerji" layihələri davamlı inkişafın parlaq nümunəsidir

QDİƏT PM-nin İqtisadi siyasət və inkişaf komitəsinin 64-cü iclasına gəldikdə, Azərbaycan nümayəndə heyətinin rəhbəri Eldar Quliyev bildirdi ki, iclasda "yaşıl gələcəy"ə doğru, Qara dəniz regionunda yeni texnoloji həllər sahəsində səmərəli əməkdaşlıq, "yaşıl enerji"yə keçid, enerji resurslarından düzgün istifadə məsələləri müzakirə olundu. Çıxışında müzakirə olunan məsələlər sahəsində Azərbaycanda görülən işlər barədə məlumat verən Eldar Quliyev eyni zamanda respublikamızın digər siyasi və iqtisadi prioritetləri ilə bağlı mövqeyini komitə iclasının iştirakçılarının diqqətinə çatdırıb.

Eldar Quliyev onu da bildirib ki, Qara dəniz regionu təkcə Avropa və Asiyanı birləşdirmir, həm də innovativ inkişaf və iqtisadi inteqrasiya üçün böyük potensiala malikdir. İclasda "Dayanıqlı gələcək: Azərbaycanın nöqteyi-nəzərindən Qara dəniz regionunda texnoloji həllər sahəsində əməkdaşlıq" mövzusunda çıxışında gələcək nəsillər üçün davamlı inkişafı təmin etməyə kömək edəcək effektiv həllər tapmaq üçün birlikdə çalışmağın vacibliyini vurğulayan Eldar Quliyev respublikamızda müxtəlif sektorlarda innovasiyaların fəal şəkildə həyata keçirildiyini diqqətə çatdırıb. Qeyd edib ki, Azərbaycan enerji sahəsində ənənəvi enerji mənbələri inkişaf etdirməklə yanaşı, bərpaolunan mənbələrə də böyük diqqət yetirir. Azərbaycanın "yaşıl enerji" layihələri davamlı inkişafa sadiqliyin parlaq nümunəsidir. "Biz günəş və külək-elektrik stansiyalarının yaradılması üzərində işləyirik ki, onlar təkcə şəhərlərimizi elektrik enerjisi ilə təmin etməyəcək, həm də karbon emissiyalarını azaltmağa kömək edəcək. Biz qonşu ölkələri və beynəlxalq təşkilatları davamlı enerjinin birgə inkişafı üçün bu təşəbbüslərə qoşulmağa dəvət edirik", - deyə Azərbaycan nümayəndə heyətinin rəhbəri çıxışında bildirib.

Eyni zamanda Azərbaycan enerji bazarında mühüm oyunçu olduğunu, enerji təhlükəsizliyinin davamlı inkişafı üçün fundamental amil olduğunu deyən Eldar Quliyev "Cənub qaz dəhlizi"nin əməkdaşlığın və Avropanın enerji təhlükəsizliyinin təminatının simvoluna çevrildiyini diqqətə çatdırıb. Qeyd olunub ki, bu qaz dəhlizi iqtisadiyyatları gücləndirməklə yanaşı, həm də tərəfdaş ölkələr üçün yeni imkanlar yaradır.

PABSEC

#### Zəngəzur dəhlizi Qara dəniz regionu üçün strateji əhəmiyyət kəsb edəcək

İclasda diqqətə çatdırılan digər məsələ Qara dəniz regionu üçün strateji əhəmiyyət kəsb edəcək Zəngəzur dəhlizi ilə bağlı olub. Bu barədə danışan Eldar Quliyev bildirib ki, Zəngəzur dəhlizinin işə salınması Şərqlə Qərb arasında nəqliyyat və logistika əlaqələrinin daha da yaxşılaşdırılması üçün yeni imkanlar yaradacaq. "Zəngəzur dəhlizi region ölkələri arasında iqtisadi əlaqələri gücləndirməklə yanaşı, həm də Avropa və Asiyaya enerji və malların nəqli üçün mühüm marşruta çevriləcək. Bu, biznes üçün yeni imkanlar yaradacaq, nəqliyyat xərclərini optimallaşdıracaq və çatdırılma müddətlərini sürətləndirəcək. Əminik ki, bu layihə regionumuzda ticarətin və investisiyaların inkişafına mühüm təsir göstərəcək", - deyə Azərbaycan nümayəndə heyətinin rəhbəri bildirib.

Çıxışda toxunulan digər məsələ Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanmasının zəruriliyi ilə bağlı olub. Sülh sazişi mətni üzərində razılığın əldə olunduğunu deyən Eldar Quliyev eyni zamanda iclas iştirakçılarının diqqətinə çatdırıb ki, sülh sazişinin imzalanması üçün Ermənistan Konstitusiyasında Azərbaycana qarşı olan ərazi iddiaları aradan qaldırılmalı, o cümlədən ATƏT-in Minsk qrupu hüquqi baxımdan ləğv edilməlidir. Bildirilib ki, sülh sazişinin imzalanması təkcə regionumuzda çoxdan gözlənilən sülhün bərqərar olmasına imkan verməyəcək, həm də hər iki ölkənin iqtisadi və sosial inkişafı üçün yeni imkanlar yaradacaq. Bununla da əsas diqqət infrastrukturun inkişafına, iş yerlərinin yaradılmasına və vətəndaşlarımızın həyat keyfiyyətinin yaxşılaşdırılmasına yönəldiləcək.

#### Qərbi azərbaycanlıların qayıdışı tarixi zərurətdir

Azərbaycan nümayəndə heyətinin rəhbəri qərbi azərbaycanlıların doğma yurdlarına qayıdışı ilə də bağlı dövlətimizin mövqeyini bəyan edib, bu konsepsiyanın reallaşmasının tarixi zərurət və ədalət olduğunu diqqətə çatdırıb. Ötən əsrin 80-ci illərinin sonlarından başlayaraq, 200 min nəfərdən artıq azərbaycanlının tarixi Azərbaycan torpaqları olan indiki Ermənistan ərazisindən zorla çıxarıldığını, doğma ev-eşiklərindən didərgin salındığını deyən Eldar Quliyev həmin vaxt soydaşlarımızın görünməmiş vəhşiliklərlə üzləşdiklərini, onlara qarşı insanlığa ləkə olan cinayətlərin törədildiyini bildirib. Qeyd olunub ki, qərbi azərbaycanlıların qayıdışı təkcə humanitar məsələ deyil, bu həm də tarixi ədalətin bərpasına və xalqlar arasında barışıq və etimad quruculuğuna xidmət edəcək.

Azərbaycan nümayəndə heyətinin rəhbəri bildirib ki, Ermənistanın iclasda iştirak edən nümayəndələri onun çıxışını sakit qarşılayıblar və heç bir etiraz və ya başqa fikir bildirməyiblər.

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin (QDİƏT PM) İqtisadi siyasət və inkişaf komitəsinin 64-cü iclası bir daha Azərbaycanın uğurlarının və prioritetlərinin dünyaya çatdırılması baxımından mühüm əhəmiyyət kəsb edib. Bütövlükdə isə QDİƏT PM-də Azərbaycan nümayəndə heyətinin Rumıniyaya səfəri çox məhsuldar keçib. Onu da da qeyd edək ki, qarşıdakı dövrdə qurumun Sosial və humanitar siyasət və Hüquqi məsələlər və beynəlxalq əməkdaşlıq komitələrinin də iclasları olacaq. Bütün bunlardan sonra iyun ayında Bakıda QDİƏT PM-nin Baş Assambleyasının plenar iclası keçiriləcək.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

## Azərbaycanın Yaxın Şərq ölkələri ilə əlaqələri dinamik inkişaf tempinə malikdir

"Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin yaratdığı xarici siyasət kursunu uğurla davam etdirir. Eyni zamanda çox sürətlə dəyişən dünyamızın reallıqlarına adekvat cavab verir, buna innovativlik, kreativlik, çeviklik gətirir".



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Elman Nəsirov deyib. Deputat bildirib ki, xarici siyasətimizin prioritet istiqaməti ikitərəfli münasibətlər formatıdır. İkitərəfli münasibətlər yüksək səviyyədə olanda üçtərəfli, bütövlükdə çoxtərəfli münasibətlər formalaşır və inkişaf edir. Bu nöqteyi-nəzərdən Yaxın Şərq regionu və bu regionun müsəlman ölkələri ilə əlaqələrimiz dinamik inkişaf tempinə malikdir və Azərbaycanın xarici siyasət kursunda əsas istiqamətlərdən biridir.

"Xüsusilə Azərbaycanın dörd il ərzində Qoşulmama Hərəkatına sədrlik etdiyi zamanda bu region ölkələri ilə əlaqələrimiz yeni müstəviyə keçdi. Bununla yanaşı, İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində də Azərbaycanın Yaxın Şərq ölkələri ilə ikitərəfli və çoxtərəfli münasibətləri dinamik inkişaf edir. Məhz bunun sayəsində Azərbaycan Yaxın Şərq regionunda da etibarlı tərəfdaş hesab edilir və dövlətimizin sözünün məna və çəkisi bu regionda da kifayət qədər böyükdür. Regionun dövlətləri arasında ixtilaflar olduqda Azərbaycan dövlətinin mövqeyi və proseslərə təsir imkanlarının genişliyi diqqətdən yayınmır. Bunu Türkiyə-İsrail arasındakı gərginliyin aradan qaldırılması proseslərində də görmək olar", - deyə o əlavə edib.

Siyasətçi qeyd edib ki, yaxın keçmişdə ikinci dəfədir ki, Türkiyə-İsrail münasibətləri böhran dövrünə daxil olub. Birinci dəfə bu böhran yaşanarkən Azərbaycanın vasitəçilik missiyası öz müsbət nəticəsini verdi. Türkiyə ilə İsrail arasında gərginlik aradan qalxdı. Bunun da səbəbi o idi ki, Azərbaycan Türkiyə ilə müttəfiq, İsrail ilə dost dövlətdir. İki dövlət ilə xüsusi münasibətlərimiz nəticə etibarilə Türkiyə-İsrail münasibətlərinin normallaşmasına səbəb oldu. Yenə oxşar situasiya yaranıb. İki dövlət arasında strateji məsələlərdə gərginlik yaranıb və bu gərginlik yüksələn xətt üzrə inkişaf edir. Prezident İlham Əliyev ADA Universitetində keçirilən beynəlxalq forumda bu məsələlərə diqqəti cəlb etdi və vurğuladı ki, Azərbaycan bir dəfə öz barışdırıcı missiyasını yerinə yetirib və real nəticələr əldə edib. İndiki vəziyyətdə də bizim Türkiyə ilə 2021-ci il tarixli Şuşa Bəyannaməsinə əsasən strateji və hərbi müttəfiqlik, İsraillə isə ənənəvi dostluq münasibətlərimiz var. Bu reallıq fonunda növbəti dəfə öz vasitəçilik mövqeyimizi ortaya qoyub dost və müttəfiq dövlətlər arasında münasibətlərin normallaşmasına kömək edə bilərik.

Deputat vurğulayıb ki, bu iki dövlət arasında münasibətlərin gərginləşməsi təkcə onlar arasında gərginliklə yekunlaşmır, bütövlükdə regional təhlükəsizliyə ciddi təhdid yaradır: "Ona görə də bu məsələdə vasitəçilik missiyamızı təklif edirik. Qısa zaman ərzində paytaxt Bakıda Türkiyə və İsrailin xüsusi xidmət orqanlarının görüşü keçirildi. Bu Azərbaycanın vasitəçilik missiyasıdır və inanırıq ki, müsbət nəticələri olacaq".

E.Nəsirov Azərbaycan-Suriya münasibətlərinin də inkişaf etməyə başladığını qeyd edərək xatırladıb ki, Bəşər Əsəd dövründə rəsmi Dəməşq birmənalı şəkildə Ermənistanı müdafiə edib, antiazərbaycançı siyasət yürüdüb. Buna görə də Azərbaycanın Suriyada səfirliyinin fəaliyyəti mümkünsüz olub və fəaliyyətini dayandırıb. İndi isə Suriyada yeni reallıq, yeni hakimiyyət formalaşır və Azərbaycan da bundan məmnundur. Xüsusilə qardaş Türkiyənin Suriyada gedən proseslərə ciddi təsir imkanları var və bu, sevindirici haldır. Türkiyə ilə birlikdə Azərbaycan da Suriyaya humanitar yardım göstərir. Artıq səfirliyimiz fəaliyyətini bərpa edib.

Ermənistanda siyasi hakimiyyət əsas dayaqlarından birini itirib. Daha Bəşər Əsəd rejimi yoxdur, Ermənistan da bundan çox məyusdur. "Prezident İlham Əliyev beynəlxalq forumda bu məqamlara da diqqəti cəlb etdi. Dövlətimizin başçısının Türkiyədə keçirilən Antalya Diplomatiya Forumu çərçivəsində keçirdiyi görüşlərin sırasında Suriyanın keçid dövrü üçün prezidenti Əhməd Əş-Şaraa ilə də görüşü oldu. Bu görüş yüksək səviyyədə keçdi, qarşılıqlı etimad əsasında baş tutdu. Prezident İlham Əliyev suriyalı həmkarını ölkəmizə rəsmi səfərə dəvət etdi və bu dəvət məmnunluqla qarşılandı. Göründüyü kimi, Azərbaycanın Yaxın Şərq, Orta Şərq regionu ölkələri ilə münasibətlərinin inkişafı nəticə etibarilə həm ölkəmizin mövqelərini beynəlxalq aləmdə və regionda gücləndirir, həm də bu ölkələrin strateji maraqlarına tam cavab verib", - deyə deputat əlavə edib.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Maka BOÇORİŞVİLİ: "Prezident İlham Əliyev çox sadə yolla Avropa İttifaqına və Avropa Komissiyasına hər şeyi başa saldı"

"Azərbaycan Prezidenti İlham Əliyev Avropa İttifaqına və Avropa Komissiyasına çox sadə yolla hər şeyi başa saldı. Prezident İlham Əliyev "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forumda qeyd etdi ki, Orta dəhlizdən danışarkən ilk növbədə xəritəyə nəzər salmaq kifayətdir".



AZƏRTAC xəbər verir ki, bu sözləri Gürcüstanın xarici işlər naziri Maka Boçorişvili "Daily Chronicle" verilişində çıxışı zamanı söyləyib.

Nazir deyib: "Prezident İlham Əliyev Avropa İttifaqı və Avropa Komissiyası rəhbərlərinin diqqətinə çatdırdı ki, dəhlizdən danışarkən ilk növbədə bu dəhlizin hara getdiyini görmək üçün xəritəyə baxmaq lazımdır. Əgər xəritəyə baxıb oradakı ölkələri görürsənsə, təbii ki, həmin ölkələri qeyd etmədən və bu dəhlizdən danışdığın dövlətlərlə münasibətlərə baxmadan dəhlizdən danışmaq mümkün deyil. Təbii ki, Azərbaycan Prezidentinin yanaşması çox düzgün yanaşmadır".

Onun sözlərinə görə, Prezident İlham Əliyevin vurğuladığı kimi, Gürcüstan da Azərbaycan kimi bu dəhlizdə mühüm rol oynayan iki mühüm ölkədən biridir. Bunun özü Avropa İttifaqı üçün çox vacib, zəruri mövzudur. Bu gün Avropanın müxtəlif istiqamətlərdə ehtiyac duyduğu Asiya və Avropanın bağlantısına töhfə verməli olan layihələrini düzgün həyata keçirmək üçün Brüsselin bu məsələyə ciddi yanaşması və manipulyasiya yanaşmalarından istifadə etməməsi də vacibdir.

"Gürcüstan öz rolunu oynamağa hazırdır. Burada hamı başa düşür ki, bu funksiyanı Gürcüstansız yerinə yetirmək və bu məqsədə nail olmaq mümkün deyil", - deyə Maka Boçorişvili qeyd edib.

## Qubernator: "Qahirə ilə Bakı arasında imzalanmış memorandum geniş əməkdaşlığa yol açır"



"Qahirə ilə Bakı şəhəri arasında imzalanmış sənəd tərəflər arasında müxtəlif sahələrdə, o cümlədən mədəniyyət, elm, təhsil, səhiyyə, turizm və s. sahələrdə əməkdaşlıq və dostluq münasibətlərinin inkişafı məqsədini güdür".

AZƏRTAC xəbər verir ki, bunu Misirin Qahirə qubernatoru İbrahim Sabir Azərbaycanın Misirdə səfiri Elxan Poluxovla görüşündə deyib.

Qubernator bildirib ki, Misirlə Azərbaycan arasında geniş əlaqələr var. İki ölkə prezidentlərinin son qarşılıqlı səfərləri iqtisadiyyat, siyasət, mədəniyyət və elm sahələrində əməkdaşlıq üçün yeni imkanlar açıb.

Qeyd olunub ki, Azərbaycan Prezidenti İlham Əliyevin ötən ilin iyununda Misirə səfəri zamanı imzalanmış "Azərbaycan Respublikasının Bakı Şəhər İcra Hakimiyyəti ilə Misir Ərəb Respublikasının Qahirə Qubernatorluğu arasında dostluq və əməkdaşlıq haqqında Anlaşma Memorandumu" ölkələrimiz arasında əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsinə töhfə verir.

## Səfir: "Çin ilə Azərbaycan arasında səmimi və etimada əsaslanan dostluq münasibətləri var"

**Çinin Azərbaycana yeni təyin edilmiş səfiri Lu Mey diplomatik missiyasını yerinə yetirmək üçün Bakıya gəlib.**



AZƏRTAC Çin səfirliyinə istinadla xəbər verir ki, Lu Meyi aeroportda Azərbaycan XİN-in nümayəndələri və bu ölkənin diplomatik nümayəndəliyinin əməkdaşları qarşılayıblar.

Səfir qeyd edib ki, Çin ilə Azərbaycan arasında səmimi və etimada əsaslanan dostluq münasibətləri var, onlar bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlıq edən tərəfdaşdır. Diplomat əlavə edib ki, belə bir mühüm məqamda Çini Azərbaycanda təmsil etməsi onun üçün şərəfdir.

O həmçinin iki ölkə liderlərinin əldə etdiyi mühüm razılaşmalara əməl etmək və praqmatik əməkdaşlığı dərinləşdirmək, xalqlar arasında qarşılıqlı anlaşmanı möhkəmləndirmək, Pekin ilə Bakı arasında strateji tərəfdaşlığı yeni səviyyəyə qaldırmaq istiqamətində Azərbaycan cəmiyyətinin müxtəlif zümrələrinin nümayəndələri ilə birgə işləmək niyyətində olduğunu bildirib.

Azərbaycan tərəfinin nümayəndəsi səfir Lu Meyi salamlayaraq qeyd edib ki, ölkə hökuməti, parlamenti və hakim partiyası Çinlə əməkdaşlığa böyük əhəmiyyət verir.

❖ ❖ ❖

"Əminəm ki, mənə şərəfli bir missiya və böyük məsuliyyət həvalə olunub. İki ölkənin dövlət başçılarının mühüm konsensusunu rəhbər tutaraq öz borcumu yorulmaz əzmlə, vicdanla yerinə yetirəcəyəm və Çin-Azərbaycan strateji tərəfdaşlığının daha da inkişaf etdirilməsi istiqamətində bütün səyləri göstərəcəyəm". Bunu Çinin Azərbaycana yeni təyin olunmuş səfiri Lu Mey deyib.

Pekin və Bakının qarşılıqlı faydalı əməkdaşlığa səy göstərən bərabərhüquqlu və etibarlı tərəfdaşlar olduğunu vurğulayan diplomat əlavə edib ki, 2024-cü ilin iyul ayında ÇXR Sədri Si Cinpin və Azərbaycan Prezidenti İlham Əliyev Çin-Azərbaycan strateji tərəfdaşlığının qurulmasını elan ediblər və bu, ikitərəfli münasibətlərin yeni inkişaf mərhələsinə qədəm qoymasına kömək edib.

Lu Mey iki ölkənin "Bir kəmər, bir yol" təşəbbüsünü yüksək keyfiyyətlə həyata keçirmək səylərinin səmərəli nəticələr verdiyini bildirib. Onun sözlərinə görə, hər iki ölkə daha ədalətli və rasional dünya nizamı qurmaq üçün çalışır.

Diplomat əlavə edib: "Çin xarici dünyaya yüksəksəviyyəli açılışı davamlı olaraq genişləndirəcək, ölkənin modernləşdirilməsinin geniş imkanlarını Azərbaycan da daxil olmaqla digər ölkələrlə bölüşəcək və bütün dünyada sabitlik və inkişafı təmin etmək üçün bəşəriyyət naminə ortaq gələcəyi olan icmanın qurulmasını təşviq etməyə davam edəcək".

Səfir diqqətə çatdırıb ki, o, həmkarları ilə birlikdə xalqın maraqları naminə diplomatiya konsepsiyasını həyata keçirəcək, Çin vətəndaşlarını, tələbələri və həmvətənlərini konsulluq mühafizəsi və xidmətlərlə təmin edəcək.

# Dayanıqlı iqtisadi inkişafın növbəti mərhələsi

## Naxçıvan Sənaye Parkı muxtar respublikanın sahibkarlarına fəaliyyətlərini genişləndirmək üçün yeni imkan yaradacaq

Prezident İlham Əliyevin keçən il dekabrın 5-də imzaladığı fərmana əsasən, Naxçıvan Sənaye Parkı yaradılır. Bu, Naxçıvan Muxtar Respublikasının ölkənin milli iqtisadiyyatına tam və dolğun inteqrasiyası istiqamətində mühüm bir addımdır.



Azərbaycan dövlətinin iqtisadi prioritetlərində Naxçıvan MR-in uzunmüddətli sosial-iqtisadi inkişafı strateji məsələ kimi yer alır. Təbii olaraq bütün bu prosesin səmərəli şəkildə tənzimlənməsi sənaye park və məhəllələrinin makroiqtisadi inkişafdakı yerinin, rolunun və əhəmiyyətinin yüksəldilməsi ilə də özünü göstərmiş olacaq.

Əvvəla xatırladaq ki, sənaye parkları sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastruktura və idarəetmə qurumlarına malik olan, müasir texnologiyaların tətbiqi yolu ilə rəqabətqabiliyyətli məhsul istehsalı və xidmət göstərilməsi məqsədləri üçün istifadə edilən, sahibkarların səmərəli fəaliyyətinə və inkişafına kömək edən ərazilərdir.

Sənaye parklarının yaradılmasında məqsəd innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişafı, xidmətlərin göstərilməsi üçün münbit şəraitin yaradılması və bu sahədə sahibkarlığın dəstəklənməsidir. Bu parklar eləcə də iqtisadiyyatın, o cümlədən qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi, ölkənin yerli və xarici investisiyalar üçün əlverişliyinin və əməkqabiliyyətli əhalinin istehsal sahəsində məşğulluğunun artırılması məqsədini daşıyır.

Ölkəmizdə fəaliyyət göstərən digər sənaye parklarında olduğu kimi, Naxçıvan Sənaye Parkında da əsas hədəflər bunlar olacaq. Bu istiqamətdə ilkin mərhələdə Azərbaycan Respublikasının Prezidentinin Ehtiyat Fondundan 500 min manat ayrılıb. Həmin vəsait ərazinin yararlı vəziyyətə gətirilməsi və xarici infrastrukturun yaradılması üçün layihələndirmə işlərinə sərf olunacaq. Parkın inkişafı isə İqtisadiyyat Nazirliyinin tabeliyindəki İqtisadi Zonaların İnkişafı Agentliyi tərəfindən həyata keçiriləcək.

Burada da sahibkarlar üçün stimullaşdırıcı tədbirlər həyata keçiriləcək. Rezidentlər dövlət vəsaiti hesabına hazır infrastrukturla (qaz, elektrik enerjisi, su, kanalizasiya, fiber-optik internet şəbəkəsi, daxili avtomobil yolları) təmin ediləcəklər. Eləcə də qeydiyyata alındıqları tarixdən 10 il müddətinə əmlak, torpaq, gəlir və yaxud mənfəət vergilərindən, həmçinin istehsal məqsədilə texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumlarından azad olunacaqlar. Parkın qurulmasında təşkilati, infrastruktur işləri tamamlandıqdan sonra sahibkarların sənaye parkının rezidenti kimi qeydiyyata alınması prosesinə başlanılacaq. Naxçıvan Sənaye Parkının rezidentləri də istehsal prosesini ekoloji tələblərə cavab verməklə həyata keçirəcəklər.

Sənaye parkı üçün Naxçıvan şəhərinin cənub-qərb hissəsində, Naxçıvan-Sədərək avtomobil yolunun sol tərəfində, beynəlxalq avtomobil və dəmir yollarına çıxış imkanlarına malik 310 hektar torpaq sahəsi ayrılıb. Parkın əhatə edəcəyi ərazi muxtar respublikanın əsasən əkinçilik bölgəsi olan Arazboyu düzənlik sahəsində yerləşir. Həmin sahə əkinçilik məhsullarının 90 faizini özündə cəmləşdirir. Bu da o deməkdir ki, Naxçıvan Sənaye Parkının fəaliyyəti üçün kifayət qədər xammal ehtiyatları mövcud olacaq. Bu isə təbii olaraq parkın sənaye əhəmiyyətinin yüksəldilməsində həlledici mərhələni təşkil edəcək. Beləliklə, Naxçıvan Sənaye Parkı muxtar respublikanın digər regionlarında da yeni, dayanıqlı kənd təsərrüfatı sahələrinin yaradılmasını və sənaye əhəmiyyətli məhsulların istehsalını stimullaşdıracaq.

Başqa sözlə, Naxçıvan Sənaye Parkının yaradılması bir tərəfdən kiçik və orta sahibkarlıq subyektlərinin inkişafında mühüm mərhələ olacaq, digər tərəfdən zəruri infrastruktur təchizatlarının yaradılmasına təkan verəcək. Bununla da muxtar respublikanın yeni reallıqlar müstəvisində etibarlı və dayanıqlı iqtisadi inkişafında yeni mərhələni təmin etmiş olacaq.

Ərazi mühəndis-kommunikasiya təminatı sistemləri ilə tam təchiz ediləcək. Xüsusilə dəmir yolu və beynəlxalq avtomagistral xətləri ilə yaxınlıq, eləcə də Zəngəzur dəhlizinə qoşulma imkanı gələcəkdə yük daşımalarının artırılmasına mühüm töhfə verəcək.

Sənaye parkı regionun sənaye potensialını gücləndirərək yeni iş yerləri yaradacaq və iqtisadi artımı təmin edəcək. Eyni zamanda bu layihə Naxçıvanın tranzit potensialını da artıracaq və bölgəni müasir texnologiyalarla təchiz olunmuş sənaye mərkəzinə çevirəcək.

***Flora SADIQLI,***
***"Azərbaycan"***




# Zəngəzur dəhlizinin möhtəşəm yolları

## Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd yolunun tikintisi tamamlanır





Qarabağ və Şərqi Zəngəzuru yenidən cənnətməkana çevirməyi qarşısına prioritet məsələ kimi qoyan Azərbaycan ötən 5 ilə yaxın müddətdə reallaşdırdığı möhtəşəm layihələrlə dünyaya səs salıb.

Əzəli torpaqlarımızı "dəmir yumruq"la işğaldan azad edən Müzəffər Ali Baş Komandan İlham Əliyev Zəfərimizdən ötən qısa müddət ərzində bu ərazilərdə misli görünməyən quruculuq işlərini həyata keçirməkdədir.

Erməni vandalizminin qurbanına çevrilmiş şəhər və kəndlərin yenidən, daha müasir formada qurulması, tamamilə dağıdılmış infrastrukturun bərpası, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışının təmin edilməsi Azərbaycan dövlətinin prioritet fəaliyyət istiqamətlərindəndir.

Bu ərazilərdə həyata keçirilən mühüm layihələrdən biri də yol-nəqliyyat infrastrukturunun tamamilə yenidən qurulmasıdır. Hər iki iqtisadi rayonda tikinti-quruculuq işləri ilə paralel olaraq yolların da yenidən qurulması, körpü və tunellərin tikintisi həyata keçirilir.

Prezident İlham Əliyev işğaldan azad edilmiş şəhər və rayonlarımıza səfərləri çərçivəsində yeni yolların açılışlarını edir və tikinti işlərinin sürətlə aparılması ilə bağlı ciddi tapşırıqlarını verir. Bölgədə 2026-cı ilədək 2300 kilometrə yaxın 20 avtomobil yolu layihəsinin icrası nəzərdə tutulur. Tezliklə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yol-nəqliyyat infrastrukturu tamamilə yenidən qurulub istifadəyə veriləcək. Bu yollardan biri də Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd (Zəngəzur dəhlizi) avtomobil yoludur.

Azərbaycan və Türkiyə prezidentləri tərəfindən təməli qoyulan Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu (Zəngəzur dəhlizi) strateji əhəmiyyətə malik olan və regionda yeni iqtisadi, nəqliyyat və kommunikasiya əlaqələrinin qurulmasına töhfə verən layihədir.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin yaydığı məlumata əsasən, uzunluğu 123,6 kilometr olan bu yolun tikintisi hazırda 93 faiz səviyyəsində tamamlanıb.

### Yolun texniki göstəriciləri və xüsusiyyətləri

Zəngəzur dəhlizi avtomobil yolu yüksək keyfiyyətlə və müasir standartlara uyğun inşa edilir. Yolun ümumi uzunluğu 149,9 kilometr təşkil edir.







Əsas yolun uzunluğu isə 123,6 kilometrdir. Yolun texniki dərəcəsi 1B-dir, bu isə yüksək sürət və təhlükəsiz hərəkətə imkan yaradır.

Yolun eni 14-21 metr arasında dəyişir. Torpaq yatağının eni 21.5-29.5 metr, hərəkət zolaqlarının sayı isə 4-6 arasında təyin edilib. Bu, nəqliyyatın rahat və təhlükəsiz axınına zəmin yaradacaq.

Layihə çərçivəsində 261 boru (16 814 metr), 55 alt keçid (3781 metr) və 28 körpü (2090 metr) inşa edilir. Yol boyunca 3 tunel də tikilir, bu tunellərin ümumi uzunluğu isə 12 032 metrdir.

### Konstruksiya və tikinti işləri keyfiyyətlə aparılır

Yolun inşasında istifadə edilən materiallar və texnikalar yüksək keyfiyyətə malikdir. Torpaq yatağı işləri, hamarlayıcı lay, əsasın alt və üst layları ilə birlikdə yol geyimi işləri artıq böyük bir hissə olmaqla tamamlanıb.

Layihə üzrə görülən asfalt işləri 950 000 m3, torpaq işlərinin həcmi isə 61 646 373 m3 təşkil edir. Bu da yolun möhkəm və davamlı olmasını təmin edən əsas faktorlardır.

### Tunellərin və körpülərin tikintisinin böyük hissəsi başa çatdırılıb

Zəngəzur dəhlizinin tikintisindəki mühüm layihə komponentlərindən biri tunellərdir. Tunellər üzrə tikinti işləri artıq böyük ölçüdə tamamlanıb.

Belə ki, şərti adları T1, T2 və T3 olan tunellərin hər birində qazma, püskürtmə beton işləri artıq yekunlaşıb.

Layihə üzrə ümumilikdə 28 körpü tikilir, bunlardan 16-sı suötürücü, 12-si isə yolötürücüdür. 19 körpünün tikintisi artıq yekunlaşıb, 8 körpüdə tikinti işləri davam edir.

Həmçinin alt keçidlərin, 258 dairəvi, 42 düzbucaqlı boruların tikintisi də sona çatdırılıb.

### Gələcək perspektivlər

Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd yolunun inşası Azərbaycanın infrastruktur sahəsində atdığı mühüm addımlardan biridir.

Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun bir hissəsi olmaqla, Azərbaycanın digər rayonlarını Naxçıvan Muxtar Respublikası ilə birləşdirmək baxımından çox böyük əhəmiyyətə malikdir.

Zəngəzur dəhlizinin tikintisi təkcə infrastruktur layihəsi olmaqla kifayətlənmir, həm də regional inteqrasiyanın mühüm bir hissəsidir. Bu yol yalnız nəqliyyat sistemini gücləndirmək deyil, həm də regionda iqtisadiyyatın inkişafını sürətləndirmək və strateji əlaqələri gücləndirmək üçün mühüm bir vasitə olacaqdır.

Hazırda 93 faizlik tamamlanma ilə, yaxın gələcəkdə bu layihənin tam olaraq istifadəyə verilməsi region üçün yeni üfüqlər açacaq.

Ümumiyyətlə, azadlığa qovuşmuş ərazilərimizdə 2026-cı ilədək 2300 kilometrə yaxın 20 avtomobil yolu layihəsinin icrası planlaşdırılır. Böyük qayıdış proqramının birinci mərhələsi 2026-cı ilin sonunda başa çatdırılacaq və o vaxt 140 min keçmiş məcburi köçkün öz dədə-baba torpaqlarına qayıdacaq. Bununla paralel olaraq, bütün sosial infrastruktur inşa edilir, xəstəxanalar, məktəblər, idman və xidmət obyektləri, yollar, 130-dan çox tunel və körpü (40 tunel, 90 körpü) inşa edilir. Tezliklə bu tikililər, möhtəşəm yollar Qarabağa və Şərqi Zəngəzura yeni həyat gətirəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# "Qarabağda müasir peşə təhsili müəssisələrinin şəbəkəsi qurulur"

"İşğaldan azad olunmuş ərazilərdə Böyük qayıdış dövlət proqramı çərçivəsində müasir peşə təhsili infrastrukturunun qurulması istiqamətində mühüm addımlar atılır".

AZƏRTAC xəbər verir ki, bunu Kürdəmirdə Peşə Təhsili üzrə Dövlət Agentliyinin sədri Ceyhun Kərəmov bildirib. Onun sözlərinə görə, proqram çərçivəsində ümumilikdə 8 peşə təhsili müəssisəsinin tikintisi nəzərdə tutulub. Hazırda Füzuli şəhərində yeni Peşə Təhsili Mərkəzinin tikintisi davam edir. Eyni zamanda 2025-ci ilin əvvəlindən Şuşa şəhərində yerləşən peşə təhsili müəssisəsində də əsaslı təmir işlərinə start verilib. "Füzuli Peşə Təhsili Mərkəzi müasir standartlara uyğun inşa edilir və ilkin mərhələdə 750-800 nəfərlik tədris gücünə malik olacaq. Mərkəzdə sənaye, xidmət və kənd təsərrüfatı istiqamətləri üzrə ənənəvi ixtisaslarla yanaşı, informasiya-kommunikasiya texnologiyaları, alternativ enerji, nəqliyyat və aviasiya sahələrinə uyğun ixtisasların da tədrisi planlaşdırılır", - deyə Ceyhun Kərəmov bildirib.

Agentlik sədri qeyd edib ki, Füzulidəki mərkəz yalnız yerli deyil, regional təhsil ocağı kimi də fəaliyyət göstərəcək. Burada yataqxana və digər infrastruktur imkanları ətraf rayonlardan olan tələbələrin də təhsil almasına şərait yaradacaq.

Onun sözlərinə görə, mərkəzdə peşə təhsilinin bütün pillələri - altıaylıq və birillik ilkin peşə təhsili, üçillik texniki peşə və dörd ilə qədər davam edən yüksək texniki peşə proqramları üzrə təhsil veriləcək.

"Əlavə olaraq, ilk dəfə Füzuli Peşə Təhsili Mərkəzində dronların və pilotsuz uçuş aparatlarının təmiri üzrə texniki ixtisasların da tədrisi nəzərdə tutulur", - deyə o bildirib.

Ceyhun Kərəmov qeyd edib ki, ölkə rəhbərliyi tərəfindən Qarabağ "yaşıl enerji" zonası elan olunub. Bunu əsas götürərək, yeni peşə təhsili müəssisələrində bərpaolunan enerji sahəsinə uyğun kadr hazırlığına da xüsusi diqqət yetiriləcək.

# Türkiyənin ticarət nazirinin müavini Xankəndi və Xocalıda olub

Türkiyənin ticarət nazirinin müavini Mustafa Tuzcunun rəhbərlik etdiyi nümayəndə heyəti Xocalı və Xankəndiyə səfər edib.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, türkiyəli qonaqlar əvvəlcə Xocalı rayonunda olub, burada aparılan tikinti-quruculuq işləri ilə maraqlanıblar. Onlara Xocalıda aparılan işlər barədə geniş məlumat verilib.



Nümayəndə heyəti sonra Xankəndidə Qarabağ Universitetində olub, Zəfər meydanında aparılan tikinti-quruculuq işləri, yeni layihələrlə maraqlanıb. Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini Səbuhi Qəhrəmanov qonaqlara bildirib ki, Xankəndi şəhəri işğaldan azad olunduqdan dərhal sonra burada geniş tikinti-quruculuq işlərinə start verilib.

Nazir müavini Mustafa Tuzcu deyib ki, Türkiyə işğaldan azad olunan torpaqların bərpasında iştirak edəcək. "Bizim şirkətlərimizin Qarabağa verəcəyi dəstək təkcə ticari-iqtisadi fəaliyyətlərdən ibarət deyil, bu, bizim üçün həm də bir məsuliyyətdir. Biz qardaş dövlət və millət olaraq əlimizdən gələni edəcəyik", - deyə o bildirib.

# Qarabağ və Şərqi Zəngəzurda Türkiyənin Ordu vilayətindən gətirilən tinglər əkiləcək

Türkiyənin şimalındakı Ordu vilayətinin meşə təsərrüfatı idarəsi Azərbaycana 7200 ağac tingi olan 3 yük maşını göndərib. AZƏRTAC xəbər verir ki, tinglərin Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında əkilməsi planlaşdırılır.

Yük maşınlarının yola salınması mərasimində Ordu vilayətinin valisi Muammer Erol da iştirak edib.

Ağac tinglərinin göndərilməsi bu il fevralın 20-23-də Ankarada Türkiyə-Azərbaycan danışıqları zamanı əldə olunmuş razılaşmaya uyğun olaraq təşkil edilib.

Bundan əvvəl Türkiyənin Kənd Təsərrüfatı və Meşə Təsərrüfatı Nazirliyi Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında yaşıllıqların bərpasına töhfə vermək məqsədilə 2025-ci ildə ölkəmizə 100 min ağac tingi və 100 kiloqram toxum təhvil verməyi planlaşdırdığını açıqlamışdı.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## BMT-də Afrikaəsilli Xalqların Daimi Forumunun 4-cü sessiyasında Fransanın kolonial siyasəti pislənilib

**BMT-nin Nyu Yorkdakı baş qərargahında Afrikaəsilli Xalqların Daimi Forumunun 4-cü sessiyası işə başlayıb.**

AZƏRTAC-ın məlumatına görə, BMT Baş Assambleyasının 2021-ci il 2 avqust tarixli qətnaməsi ilə yaradılmış Daimi Forum quldarlığın və kolonializmin səbəb olduğu ədalətsizliyin aradan qaldırılması üçün tədbirlər görür.

Beynəlxalq hüquq çərçivəsində dünyada kolonializmə qarşı mübarizə aparan, müstəmləkəçiliyin iyrənc fəsadlarını beynəlxalq müstəvidə ifşa edən Bakı Təşəbbüs Qrupu (BTQ) ilə Daimi Forum arasında qurulmuş əməkdaşlıq nəticəsində Fransa və Niderlandın müstəmləkəçiliyi altında olan Qvadelup, Martinik, Kanaki (Yeni Kaledoniya), Sent-Martin, Reunyon, Bonayre, Aruba, Maohi Nui (Fransız Polineziyası), Fransız Qvianası nümayəndələrinin tədbirdə



iştirakı təmin edilib. Tədbirdə çıxış edən BTQ-nin icraçı direktoru Abbas Abbasov rəhbərlik etdiyi təşkilatın dekolonizasiya istiqamətində gördüyü işlər haqqında ətraflı məlumat verərək, Fransa və Niderlandın əsarəti altında olan ərazilərin bu gün də kolonial idarəetmədən əziyyət çəkdiyini təəssüflə xatırladıb. A.Abbasov adıçəkilən ərazilərin üzləşdiyi problemlərin daha təfsilatlı müzakirəsi üçün Daimi Forumun dəstəyi ilə BTQ tərəfindən aprelin 15-də "Dekolonizasiya: sakit inqilab" konfransın təşkil ediləcəyini bildirib və bu xüsusda iştirakçı dövlətləri sözügedən tədbirə dəvət edib. BTQ-nin xətti ilə forumda iştirak edən Qvadelup, Sent-Martin, Reunyon, Martinik, Fransız Qvianasından olan nümayəndələr də öz növbələrində çıxışlarında Fransa və Niderlandın kolonial siyasətini qınamış, ölkələrinin tezliklə müstəqil olması üçün səylərin birləşdirilməsinin vacibliyini vurğulamışlar.

Tədbirdə həmçinin BTQ-nin sifarişi ilə BMT-nin tanınmış eksperti, ABŞ vətəndaşı Karlayl Korbin tərəfindən hazırlanmış "Fransız kolonializminin təkamülü: Siyasi və konstitusional tədqiqat" adlı hesabat sessiyanın iştirakçılarına təqdim olunub.

## XİN: "Fransanın ikiüzlü siyasəti regionda davamlı sülh perspektivlərinə mane olur"

"Fransanın Avropa və xarici işlər naziri Jan-Noel Baronun Fransanın Azərbaycandakı səfirinin də istinad etdiyi iddialarını qətiyyətlə rədd edir və pisləyirik.

Fransanın siyasətindəki ikili yanaşma - sülh niyyətini bəyan edərkən münaqişəyə sürükləyən davranışlar narahatlıq doğuran uyğunsuzluğu nümayiş etdirir. Belə ikiüzlü siyasət regionda davamlı sülh perspektivlərinə mane olur.

Fransanın Ermənistanı öldürücü silahlarla təmin etməsi, onun davamlı anti-Azərbaycan mövqeyi ilə yanaşı, sülh prosesinə xələl gətirir və bu, xarici işlər naziri Jan-Noel Baronun regional gərginliklə bağlı açıq şəkildə narahatlığını ifadə etməsi ilə tamamilə ziddiyyət təşkil edir".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Fransa rəsmilərinin Azərbaycan əleyhinə iddiaları ilə bağlı yerli medianın sualına cavabında səsləndirib.

Onun sözlərinə görə, sülh müqaviləsi layihəsi üzərində işin yekunlaşdırılması mühüm hadisə olsa da, Fransa tərəfi yaxşı başa düşür ki, sülh sazişinin imzalanması və davamlı sabitlik digər məsələlərlə yanaşı, əsas problemlərin, xüsusilə də Ermənistanın Konstitusiyasındakı ərazi iddialarının aradan qaldırılmasını, habelə Minsk qrupunun və ATƏT-in digər əlaqəli strukturlarının rəsmi şəkildə ləğvini tələb edir. Bəşəriyyətə qarşı cinayətlərdə təqsirləndirilən şəxslərin məhkəmə proseslərinə maneçilik törədilməsi ölkənin suverenliyinə müdaxilə olmaqla yanaşı, dəhşətli qəddarlıqlara görə məsuliyyətin müəyyən edilməsi prosesini sarsıdır. Fransanın bu cür müdaxiləsi cinayətkarları qorumaqla, cəzasızlığın davamına xidmət edir.

Fransa regional işlərimizə qarışmaq əvəzinə, təkcə Azərbaycan deyil, müxtəlif dövlətlər tərəfindən böyük tənqidlərə məruz qalan, xüsusən də dənizaşırı ərazilərində və Afrikada həyata keçirdiyi neokolonial siyasətindən əl çəkməlidir.

A.Hacızadə bildirib ki, fransız neokolonializmi yerli əhalini və resurslarını istismar etməklə bərabər, həmişə fransız maraqlarını həmin dövlətlərin rifahından üstün tutub, habelə uzunmüddətli qeyri-sabitlik və etnik gərginlik yaradıb.

Heç kimə sirr deyil ki, Fransanın xarici siyasəti onun qondarma "sivilizasiya missiyası"nın mənəvi cəhətdən iflasa uğradığını nümayiş etdirir.

"Sülhə xidmət etməyən və regionda sabitliyə xələl gətirən addımlara son qoymağı Fransadan tələb edirik", - deyə mətbuat katibi vurğulayıb.

## *Abbas ABBASOV:* "BTQ müstəmləkə və neokolonializm rejimi altında yaşayan xalqların müstəqillik uğrunda mübarizələrinə daim dəstək verir"

"2023-cü ilin iyul ayında Qoşulmama Hərəkatının nazirlər toplantısında təsis olunmuş Bakı Təşəbbüs Qrupu (BTQ) müstəmləkə əsarəti və neokolonializm rejimi altında yaşayan xalqların azadlıq və müstəqillik uğrunda mübarizələrinə daim və qətiyyətlə dəstək verir, həmrəyliyi və praktiki yardımı özünə öhdəlik kimi qəbul edir".

AZƏRTAC-ın məlumatına görə, bu sözləri Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov BMT-nin Afrikaəsilli Xalqların Daimi Forumunun 4-cü sessiyasında çıxışı zamanı deyib. O bildirib ki, Afrika və Afrika mənşəli xalqlar da müstəmləkəçiliyin törətdiyi faciələrdən kənarda qalmayıb.

Abbas Abbasovun sözlərinə görə, yaşamaq, azadlıq, bərabərlik, mədəni kimlik və dekolonizasiya hüquqları imtiyaz deyil. "Bunlar BMT Nizamnaməsində, Qoşulmama Hərəkatının Bandunq prinsiplərində və digər bir çox beynəlxalq sənəddə təsbit olunmuş ümumbəşəri insan hüquqlarıdır. Buna baxmayaraq, bir çox Afrika ölkəsi və Afrika mənşəli insanlar üçün bu hüquqlar hələ də reallıqdan çox arzu olaraq qalmaqdadır. Son iki il ərzində təşkilatımız təxminən 30 beynəlxalq konfransa evsahibliyi edib", - deyə o əlavə edib.

Təşəbbüs Qrupunun icraçı direktoru əlavə edib ki, müstəmləkəçilik irsinin sadalanan mənfi təsirləri hələ də müstəmləkə siyasətindən əziyyət çəkən Qvadelup, Martinik, Boneyra, Sen Martin, Kanaki (Yeni Kaledoniya), Maohi Nui (Fransız Polineziyası), Fransız Qvianası, Reyunyon, Mayot, Korsika və digər ərazilərdən olan müstəqillik hərəkatlarının nümayəndə və liderlərini, dekolonizasiya üzrə ekspertləri və tədqiqatçıları bir araya gətirib: "Bu gün biz burada yalnız tarixi müzakirə etmirik, həm də gələcəyi formalaşdırırıq. Bu forum tarixən kənarda qalmış Afrika mənşəli xalqların səslərinin qlobal miqyasda eşidilməsi üçün mühüm bir platformadır".

Abbas Abbasov forum çərçivəsində Bakı Təşəbbüs Qrupunun "Dekolonizasiya: sakit inqilab" adlı yan tədbir təşkil edəcəyini bildirib və iştirakçıları konfransa dəvət edib. O sonda əlavə edib ki, bu mübarizə təkcə keçmişin səhvlərini üzə çıxarmaq üçün deyil, daha ədalətli, daha inklüziv və insan hüquqlarına hörmət edən bir gələcəyin qurulmasına yönəlib.

## Avropadakı Azərbaycan diasporu Ermənistanın mina terroruna etiraz edib



Aprelin 6-da və 7-də Ağdam, Cəbrayıl rayonlarında mina partlayışlarının baş verməsinə, nəticədə bir hərbçimizin həlak olmasına, dörd mülki şəxsin, o cümlədən azyaşlı uşaqların müxtəlif dərəcəli bədən xəsarətləri almasına Avropa ölkələrində fəaliyyət göstərən Azərbaycan diasporu da biganə qalmayıb.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, onlar BMT-nin Mina Əleyhinə Xidmətinə (UNMAS) və İnsan Hüquqları üzrə Ali Komissarlığına (OHCHR), Avropa İttifaqının Xarici Fəaliyyət Xidmətinə (EEAS) və ABŞ-dəki nümayəndəliyinə (EEAS Delegation to USA), ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosuna (ODIHR), Beynəlxalq Mina Əleyhinə Kampaniyaya (ICBL), "Human Rights Watch"un Avropa üzrə təmsilçisinə, "Amnesty International"ın Almaniya bölməsinə, "BBC News" (Böyük Britaniya), "Deutsche Welle" (Almaniya), "France 24" (Fransa), "Al Jazeera English" (Qətər), "The Guardian" (Böyük Britaniya) kimi media subyektlərinə etiraz məktubları ünvanlayıblar.

Etiraz məktublarında Azərbaycanın işğaldan azad edilmiş ərazilərində mina təhlükəsinin hələ də aradan qalxmadığı və günahsız insanların həyatının hər an təhdid altında olduğu xüsusilə vurğulanıb. Ermənistan tərəfindən basdırılan və bu gün də faciəyə səbəb olan minaların xəritələrinin verilməməsi hiddətlə pislənib. 2020-ci ilin noyabrında İkinci Qarabağ müharibəsinin başa çatmasından bəri mina partlayışları nəticəsində 392 nəfərin həlak olduğu və ya xəsarət aldığı bildirilib.

Ermənistanın minalarla çirkləndirdiyi ərazilərdəki humanitar vəziyyətin ciddi şəkildə nəzərə alınmasının və Ermənistanın beynəlxalq hüquq çərçivəsində məsuliyyətə cəlb edilməsinin aidiyyəti beynəlxalq qurumlar qarşısında mühüm bir öhdəlik olaraq qaldığı xatırladılıb.

Diaspor nümayəndələri beynəlxalq ictimaiyyəti Ermənistanın davam edən hərbi təxribatlarına və mina terroruna göz yummamağa, bölgədə dayanıqlı sülhün və sabitliyin əldə olunması naminə qətiyyətli addımlar atmağa çağırıb.

Mina terroruna etirazlarda "Praqa Azərbaycan Mədəniyyət Evi", "Macarıstan Azərbaycan Evi", "Barselonadakı Azərbaycanlılar Cəmiyyəti", "Bremen Azərbaycan Mədəniyyət Evi, "Avropa Azərbaycan Mərkəzi", "Azərbaycan-Bolqarıstan Dostluğunun İnkişafına Yardım" İctimai Birliyi, "Azərbaycan Türk Mədəniyyəti Assosiasiyası", "Ana Vətən" Avropa Azərbaycanlı Qadınlar Birliyi, Niderland-Belçika Azərbaycanlıları Koordinasiya Şurası, Fransa Azərbaycanlılarının Koordinasiya Şurası, "MADANİ-Azərbaycanlıların Mədəniyyət, İdman, Düşüncə, Həmrəylik və Gələcək İmkanlar Məkanı" platforması, İsveç-Azərbaycan Mədəniyyət Assosiasiyası, "Xarıbülbül" Dünya Azərbaycanlıları Mədəni Dərnəyi, "Qala" Yunanıstan-Azərbaycan Dostluq Cəmiyyəti xüsusi aktiv fəaliyyət nümayiş etdirib.

# Ermənistan həm də təbiət qatilidir

## Hayların ayağı dəydiyi yerdə torpaq quruyur, su zəhərə dönür

Ermənistanın dağ-mədən sənayesinin Cənubi Qafqazı ciddi ekoloji fəlakətlə üz-üzə qoyması təzə fakt deyil. Bu ölkədə heç bir ekoloji norma və standartlar gözlənilmədən fəaliyyət göstərən dağ-mədən sənayesi müəssisələrinin ətraf mühitə vurduğu ciddi zərərin ekoloji fəsadlarının miqyası az qala bütün dünyaya məlumdur.

Amma Ermənistan rəhbərliyi bu barədə nə daxili etirazlara, nə də xarici ölkələrin və beynəlxalq təşkilatların həyəcan dolu müraciətlərinə məhəl qoyur.

Qarabağı 30 il işğal altında saxlayan Ermənistan yurd yerlərimizi viran qoymaqla yanaşı, həm də flora və faunamızı vandalcasına məhv etmişdir. Bunlar azmış kimi hələ də Araz çayını çirkləndirməkdə davam edərək ətraf ərazilərdə yaşayan əhalinin həyat və sağlamlığını, iqtisadiyyatı, kənd təsərrüfatını ciddi təhlükə altına alır. BMT-də akkreditə olunmuş Su, Ətraf Mühit və Sağlamlıq üzrə Qlobal İnstitut (GIWEN) münaqişə dövründə Oxçuçayın Zəngilan rayonundan keçən müxtəlif hissələrindən alınan su nümunələrini analiz edərək çay hövzəsində çirklənmə səviyyəsinin kritik olduğunu müəyyənləşdirmişdir. Məlum olmuşdur ki, həmin çirklənmə Ermənistandakı Qacaran mis-molibden və Qafan filiz emalı zavodları tərəfindən ağır metal tullantılarının Oxçuçaya atılmasının nəticəsidir. Mütəxəssis araşdırmaları göstərir ki, Arazın yatağındakı çöküntülərdə yığılmış ağır metal tullandıları regionda su ehtiyatlarını və kənd təsərrüfatına yararlı torpaqları yaman günə qoyur.

Bu və digər faktlar zaman-zaman beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılsa da, heç nə dəyişmir, təbiət qatilləri öz işlərindədir. Prezident İlham Əliyev bir neçə gün əvvəl ADA Universitetində keçirilən "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forumda da Arazın çirkləndirilməsindən söz açmışdır: "Jurnalistlərin, həmçinin ziyalıların səfərləri təşkil edilə, bəlkə də transsərhəd çaylarla bağlı birgə tədbirlər keçirilə bilər. Biz bununla bağlı mövqeyimizi dəfələrlə bildirmişik, çünki Ermənistan Araz çayını çirkləndirir. Əgər



biz Azərbaycan istiqamətində bu məsələləri müzakirə edə bilsək, yaxşı olar. Bu, praktiki addımları göstərir və etimadın olmamasını belə kiçik addımlarla tədricən azalda bilərik. Bu, illər tələb edəcək, lakin biz bununla azalda bilərik".

Bu ilin fevralında Azərbaycanda ətraf mühit və insan sağlamlığı sahəsində fəaliyyət göstərən dörd ictimai birliyin həmtəsisçisi olan "Environmental Protection First" QHT (EPF) koalisiyasının Azərbaycanın Kosmik Agentliyinin dəstəyi ilə kosmos təsvirləri əsasında hazırladığı hesabatda Ermənistan ərazisində istismar olunan mədənlərin transsərhəd çaylar vasitəsilə Azərbaycanın, o cümlədən digər qonşu ölkələrin ekologiyasına zərər vurması faktları yer almışdı. Həmin faktlar Ermənistan ərazisində yerləşən 26 filiz hasilatı yatağının böyük əksəriyyətinin istismarı zamanı beynəlxalq normaların pozulduğunu sübut edir. Bu ölkənin ərazisindəki Armanis, Qaraberd, Meqradzor, Hankasar, Şamlux, Sotk, Amulsar, Azatek, Tequt, Qaracan, Aygedzor, Lichk, Arcut, Mqart, Sofi, Dastakert, Razdan, Tuxmanuk, Mərcan və digər mədənlərin istismarı zamanı ekoloji normalara əməl olunmaması regionu təhdid altında saxlayır. Ekoloqların fikrincə, həmin yataqların istismarı zamanı yaranan zəhərli kimyəvi tullantıların Araza axıdılması çaydakı canlı aləm və onun suyundan istifadə edən təsərrüfatlar üçün ciddi təhlükə mənbəyidir. Hətta o dərəcədə ki, problemlə bağlı Ermənistanda da ara-sıra etiraz səsləri eşidilir. Amma "Environmental Protection First" QHT Koalisiyasının həmtəsisçisi Amin Məmmədov deyir ki, Ermənistanın bəzi media qurumları məsələ ilə bağlı həqiqətləri yaydıqlarına görə təzyiqlərə məruz qalırlar: "Buna görə də əllərində olan geniş məlumatları paylaşmaqda çətinlik çəkirlər. Biz vətəndaş cəmiyyəti olaraq Ermənistanı monitorinq keçirmək üçün şərait yaratmağa çağırırıq".

Azərbaycan illərdir Araz çayının Ermənistan tərəfindən çirkləndirilməsi məsələsini gündəmə gətirir. Qeyri-hökumət təşkilatlarımız Ermənistanın dağ-mədən sənayesinin Cənubi Qafqaz regionunda ekoloji sabitliyi pozması barədə hələ 2023-cü ilin iyulunda baş nazir Nikol Paşinyana açıq məktub göndərmişdir. Məktubda Zəngəzur mis-molibden və Qafandakı dağ-mədən kombinatlarının xrom, nikel, mis, molibden, sink, alüminium, vanadium, qurğuşun və digər ağır metal tərkibli mədən tullantılarının Oxçuçayı və Araz çayını çirkləndirdiyi, Əkərək (Aqarak) mis-molibden kombinatının ağır metal tərkibli mədən tullantılarının Kərçivançay (Karçevançay) vasitəsilə Araz çayını zəhərlədiyi vurğulanmışdır. Müraciətdə həmçinin Ermənistan hökuməti məsuliyyətli idarəetməyə, regionumuza, planetimizə təhlükə yaradan dağ-mədən sənayesindəki işləri dərhal dayandırmağa, region əhalisi üçün davamlı inkişafı, sağlam gələcəyi təmin edən qərarlar qəbul etməyə çağırılmışdır.

Bu yerdə bildirək ki, mütəxəssislərin və ekoloqların fikrincə, Ermənistanın Araz çayını çirkləndirməsi bir neçə mərhələdə həyata keçirilir. Ən təhlükəli mərhələ "Metsamor" Atom Elektrik Stansiyasında olan çirklənmədir. "Metsamor" stansiyasında qurğu çox mürəkkəb olduğu üçün çirklənmə həddən artıq yüksəlir. Atom qurğusundan istifadə etməklə su qızdırılır, yüksək temperatura çatdırılır. Daha sonra su buxar halına keçir və turbinə ötürülərək elektrik enerjisi əldə olunur. Həmin su isə ən yaxın çay olan Araza axıdılır. Ermənistanın ekoloji problemlərə bu cür məsuliyyətsiz münasibəti, təhlükəli obyektlərdə köhnə texnologiyalardan istifadə etməsi nəinki Cənubi Qafqaz, Avropa üçün də fəlakətdir. Bu ölkədə texniki və mənəvi cəhətdən köhnəlmiş "Metsamor" AES-in hələ də fəaliyyət göstərməsi qlobal miqyasda ciddi təhlükədir.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# REGİONLAR

## Tovuzda Heydər Əliyevin Azərbaycan mədəniyyətinin inkişafına verdiyi qiymətdən və dəstəkdən danışılmışdır

**Tovuzda rayon icra hakimiyyətinin, YAP rayon təşkilatının və Regional Mədəniyyət İdarəsinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev və Azərbaycan mədəniyyəti: Qorunan irs, inkişaf edən sənət" mövzusunda tədbir keçirilib.**



İştirakçılar öncə Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri qoymuş, onun xatirəsini dərin hörmət və ehtiramla yad etmişlər. Sonra şəhidlərin xatirəsi birdəqiqəlik sükutla anılmışdır. Mədəniyyət tariximizdən bəhs edən videoçarxın nümayişindən sonra tədbiri YAP rayon təşkilatının sədri Nihad Pənahov açaraq məruzə ilə çıxış etmişdir. Məruzəçi çıxışında Ulu Öndər Heydər Əliyevin milli-mədəni dəyərlərin qorunması və inkişafı istiqamətində apardığı məqsədyönlü siyasətin əhəmiyyətindən, onun rəhbərliyi ilə milli mədəniyyətin müxtəlif sahələrində əldə olunan uğurlardan danışmışdır.

Sonra Tovuz Rayon İcra Hakimiyyəti başçısının müavini Təranə Bayramova çıxış edərək, Ulu Öndərin mədəniyyət sahəsində gördüyü işlərin əhəmiyyətindən danışmış Ümummilli Liderin rəhbərliyi dövründə Azərbaycan mədəniyyətinə göstərilən diqqət və qayğının milli irsimizin qorunmasına və inkişafına verdiyi töhfələrdən söz açmışdır.

Tədbirdə çıxış edənlər - Heydər Əliyev Mərkəzinin direktoru Humay Aslanova, Düz Qırıqlı kənd Uşaq Musiqi Məktəbinin direktoru Xəyal Nağıyev, Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Günel Qasımova, Mərkəzləşdirilmiş kitabxana sisteminin şöbə müdiri Aynurə Yahyayeva konkret faktlar gətirərək demişlər ki, Heydəır Əliyevin dəstəyi sayəsində Azərbaycanın müxtəlif bölgələrində çoxsaylı mədəniyyət mərkəzi, muzey yaradılmış, milli-mədəni irsin qorunması istiqamətində mühüm işlər görülmüşdür.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## İki qardaş - iki şəhid

**Naftalanda Aprel döyüşləri zamanı şəhid olmuş mayor Vaqif Bayramovun xatirəsinə həsr edilmiş anım tədbiri keçirilib.**

İştirakçılar şəhidin məzarını ziyarət etmiş, xatirəsinə ehtiramlarını bildirmişlər. Sonra tədbir şəhidin təhsil aldığı şəhər 1 nömrəli tam orta məktəbdə "Aprel döyüşlərindən başlayan Zəfər" adlı ədəbi-bədii proqramla davam etmişdir.

Çıxış edənlər Aprel döyüşlərinin Azərbaycan tarixi üçün önəmini vurğulayaraq bu qələbənin xalqımızın qətiyyətini, ordumuzun gücünü və dövlətimizin sarsılmaz iradəsini nümayiş etdirdiyini bildirmişlər. Qeyd olunmuşdur ki, Aprel döyüşləri işğal olunmuş torpaqların azad edilməsi yolunda ilk real addım, Vətən müharibəsində əldə edilən Zəfərin başlanğıcı olmuşdur.

Şəhidin ailə üzvləri çıxış edərək onlara və bütövlükdə bütün şəhid ailələrinə göstərilən hərtərəfli diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə etmişlər.



Şəhid mayor Vaqif Dilqəm oğlu Bayramov ölümündən sonra Prezidentin sərəncamı ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib. Qardaşı Mehman Bayramov Birinci Qarabağ müharibəsində şəhid olmuşdur.

*S.YUNİSOĞLU,*
*"Azərbaycan"*

## Naxçıvanda qəsəbədaxili avtomobil yolları əsaslı təmir olunur

**Naxçıvanda uzunluğu 9,6 kilometr olan Əliabad qəsəbədaxili avtomobil yolunda əsaslı təmir işləri həyata keçirilir.**

Artıq yolun 3 kilometrlik hissəsinə ikinci qat asfalt verilib, yol çiyinlərində torpaq işləri həyata keçirilir. Yolda yağış sularını kənarlaşdırmaq üçün beton su kanalları və su keçidləri quraşdırılıb. İşlərin qısa zamanda yekunlaşması üçün agentliyin xüsusi texnikaları və canlı qüvvəsi əraziyə cəlb olunub.



## Taxılın tel-tel olan vaxtıdır

**Ataların taxıl haqqında belə bir məsəli var: "Altı ayda bir qarış, bir ayda altı qarış". Qışın soyuğundan sonra torpağa enən hərarət nəticəsində bitkilər canlanmağa, günəşə tərəf boylanmağa başlayır. Amma əkinçi də əkib-becərdiyini yalnız təbiətin ümidinə qoymur. Bildiklərinə, çoxillik təcrübəsinə əsaslanaraq aqrotexniki tədbirləri vaxtında və yüksək keyfiyyətlə həyata keçirməyə çalışır.**



Taxılın vegetasiya dövrünün başa çatmasına çox vaxt qalmayıb. Keçən ilin payızında toxum səpilən sahələrdə bu ilin iyun ayının birinci ongünlüyündən başlayaraq əvvəl arpa, sonra buğda zəmilərində biçin başlayacaq. Mütəxəssislər deyirlər ki, keçən illə müqayisədə taxılçılıqda vəziyyət xeyli yaxşıdır. Səbəbi isə cari ilin fevral ayının sonlarında düşən qar və onun ardınca yağan yağışlardır.

Cəlilabad Azərbaycanın iri taxılçılıq rayonlarındandır. Cari ilin məhsulu üçün rayon üzrə 64 min 930 hektarda taxıl əkilmişdir. Onun 46 min 980 hektarı buğda, 13 min 450 hektarı arpa, 4 min 500 hektarı vələmirdir. 15,6 min fermerin əkdiyi həmin sahələrin bəzi hissələrinə əkin zamanı ammofos gübrəsi verilmişdir. Torpağın xüsusiyyəti nəzərə alınaraq mülkiyyətçilər tərəfindən 17 min 500 hektarda yemləmə aparılmış, 5 min 610 hektarda suvarma, 8 min 100 hektarda gəmiricilərə və 2 min 500 hektarda alaq otlarına qarşı mübarizə tədbirləri həyata keçirilmişdir. Fermerlər aprelin 3-cü ongünlüyündə, habelə may ayında 1-2 dəfə yağış yağmasını səbirsizliklə gözləyirlər.

Biləsuvarda isə əkilən 31 min 649 hektar taxıl sahəsinin 24 min 86 hektarı arpa, 7 min 563 hektarı buğdadır. Fermerlər yüksək məhsul yetişdirmək üçün səhər gün çıxandan axşam hava qaralana kimi sahələrdə olurlar. Aqrotexniki qaydalara ciddi əməl edən biləsuvarlı əkinçilər seçmə yolu ilə 25 min 100 hektar taxıl sahəsinin hər hektarına orta hesabla 200 kiloqram azot və bir o qədər karbamid yemləmə gübrəsi, eləcə də əkindən sonra 8 min 341 hektarda bitiş, fevral ayında 5 min 913 hektarda birinci vegetasiya suyu vermişlər. Hazırda isə ikinci vegetasiya suvarması gedir. 9 min 981 hektarda siçanabənzər gəmiricilərə, 301 hektarda xəstəliklərə qarşı mübarizə tədbirləri görülmüş, alaq otlarına qarşı herbisid səpilmişdir. Aldığımız məlumata görə, 10 min hektara kökdənkənar yemləmə gübrəsi verilmişdir. Hazırda arpa sahələri mayalanma fazasındadır.

Salyanın da fermerləri, torpaq mülkiyyətçiləri yazın gəlişi ilə əlaqədar durmadan çalışırlar. Kimi taxıl və yonca sahələrini suvarır, kimi arat işi aparır, çiyid səpir, kimi də bostan əkir. Hər tərəfdə qızğın iş gedir.

Taxıla elin sərvəti deyirlər. Buna görə də salyanlı fermerlərin taxılçılığa həmişə yüksək diqqəti olub. Taxıl növbəli əkinin tətbiqi üçün də çox əlverişlidir. Yerinə növbəti ildə pambıq və ya digər bitki əkiləndə hər bir əkin sahəsindən daha çox məhsul almaq olur.

Rayon üzrə keçən ilin oktyabr-noyabr aylarında 12 min 696 hektar sahəyə taxıl əkilmişdir. Onun 7 min 494 hektarı arpa, 5 min 202 hektarı buğdadır. Aqrotexniki tədbirləri vaxtında yerinə yetirən fermerlər sahələrin 90 faizinə yemləmə gübrəsi vermişlər. Ziyanvericilərə və alaq otlarına qarşı mübarizə tədbirləri də unudulmamışdır. Toxumçuluqla məşğul olan 3 təsərrüfatın fəaliyyəti diqqət mərkəzində saxlanılır. Salyan Dövlət Aqrar İnkişaf Mərkəzinin mütəxəssisləri tərəfindən taxıl sahələrindəki mövcud vəziyyətlə əlaqədar monitorinq aparılmışdır. Yoxlamalar göstərir ki, bu il rayon üzrə yüksək reproduksiyalı taxıl toxumu yetişdirilir.

Neftçalada isə 32 min hektarda taxıl əkilmişdir. Bunun 25 min hektarı arpa, 7 min hektarı buğdadır. Yüksək məhsul götürmək üçün fermerlər əkin zamanı toxumla birlikdə hər hektara 15 kiloqram ammofos gübrəsi, mart ayından başlayaraq isə 32 min hektarın hamısına azot və karbamid yemləmə gübrəsi vermişlər. Odur ki, bitkilər yaxşı inkişaf etmişdir. Bu il taxılın suvarılması da nümunəvi təşkil edilmişdir. 17 min hektara birinci, 2 min 500 hektara ikinci vegetasiya suyu verilmişdir. Bu iş hazırda davam edir.

Həyata keçirilən tədbirlər, mütəxəssis rəyləri deməyə əsas verir ki, Cəlilabad, Biləsuvar, Salyan və Neftçala fermerləri strateji məhsul olan taxıl istehsalında yüksək göstəricilər əldə edəcəklər.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Biləsuvarda "Konstitusiya və Suverenlik İli" çərçivəsində tədbir keçirilmişdir

**Biləsuvarda "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş "Azərbaycançılıq ideologiyası və müasir Azərbaycan gənci" mövzusunda tədbir keçirilib.**






Tədbirdə çıxış edənlər bildirmişlər ki, Ümummilli Lider Heydər Əliyev hər bir sahəyə qayğı ilə yanaşdığı kimi, gənclər siyasətinə də xüsusi diqqət göstərmişdir. Ulu Öndərin hakimiyyətə dönüşündən sonra Azərbaycan gəncliyinə gənclik ruhu qayıtmış və gənclərimiz bütün dünyada öz sözlərini deməyə başlamışlar. Azərbaycan gəncliyində yeni prinsiplər, mənəvi dəyərlər, həyata yeni baxışlar sistemi formalaşmışdır.

Çıxışlarda o da vurğulanmışdır ki, Heydər Əliyev kursunun davamçısı Prezident İlham Əliyev gənclər siyasətində yeni mərhələnin başlanğıcını qoymuşdur. Dövlət başçısı öz çıxışlarında daim gənclərə arxalandığını açıq şəkildə söyləyir. Ölkəmizdə gənclərə göstərilən etimadın və dəstəyin nəticəsi olaraq bu gün gənclərimiz dövlət orqanlarında, müxtəlif yüksək strukturlarda təmsil olunur, cəmiyyətin inkişafına öz töhfələrini verirlər.

Tədbirin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılmışdır.

*S.CAVADOV,*
*"Azərbaycan"*

## Şabran fermerləri əmindirlər

### Heyvandarlıqda bolluğa və ucuzluğa nail olmaq mümkündür

**Aqrar sektorun ölkənin ərzaq təhlükəsizliyi baxımından mühüm əhəmiyyət kəsb edən sahələrinin, o cümlədən heyvandarlığın inkişafı xüsusi diqqət mərkəzindədir.**

Son hədəfsə heyvandarlıq məhsullarına olan daxili tələbatı yerli istehsal hesabına ödəməkdir. O üzdən regionlarda heyvandarlıq müasir yanaşmalar əsasında inkişaf etdirilir.

Və bu işdən hökumət də yaxasını kənara çəkmir - bölgələrdə heyvandarlığın inkişafına hər cəhətdən böyük dəstək verir. Reallaşdırılan tədbirlər, xüsusən heyvandarlıqla məşğul olan fermerlərə güzəştli kreditlərin verilməsi sayəsində bu sahənin maddi-texniki bazası xeyli möhkəmlənib. Hazırda ölkənin ayrı-ayrı regionlarında heyvandarlıq profilli iri təsərrüfatlar fəaliyyət göstərir. Həmin təsərrüfatlar və ümumilikdə həyata keçirilən davamlı və sistemli islahatlar sayəsində heyvandarlıq məhsulları ilə daxili bazarın təminatında artım müşahidə olunur. Rayonlarda əhalinin bu sahə üzrə məşğulluğu və gəlir əldə etmək imkanları da artır.

Bütün bu proseslərdən Şabran da kənarda qalmayıb. Son məlumata görə, rayonda 25 min başdan çox qaramal, 49 min baş qoyun və keçi mövcuddur. Rayon üzrə 96 min sentnerdən çox ət (diri çəkidə), 100,6 sentnerdən çox süd (fiziki çəkidə) istehsal edilib.

Şabran fermerlərinin heyvandarlıq sahəsindəki təcrübəsi illərə söykənir. Bu təcrübədən yetərincə faydalanan Elşən Səfərəliyev, Əzməmməd Nadirov, Aqil Məlikov və digər fermerlər heyvandarlıqda uğurlar qazanıblar. Onlar vaxtaşırı cins damazlıq heyvan götürmək üçün müraciət edirlər. Ümumiyyətlə, indiyədək rayon Aqrar İnkişaf Mərkəzinə fermerlərdən heyvandarlıqla bağlı yüzlərlə müraciət daxil olub. Bu müraciətlər hesabına keçən il 208 baş inəkdə süni mayalanma aparılıb və əvvəlki dövrlərdə aparılmış süni mayalanmalar nəticəsində 226 baş buzov doğulub.



Rayon Aqrar İnkişaf Mərkəzinin numayəndələri tez-tez heyvandarlıq təsərrüfatlarında olur, heyvanların saxlanma və onlara qulluq şəraiti ilə maraqlanırlar. Belə baxış Rəhimli kəndində də keçirilib. Heyvandarlıq sektorunun əməkdaşı tərəfindən damazlıq cins heyvan götürülməsi ilə bağlı fermerin müraciətinə əsasən, onun kənddəki təsərrüfatına baxış keçirilərək akt və rəy tərtib olunub. Yeri gəlmişkən, qeyd edək ki, mərkəzin heyvandarlıq sektorunun əməkdaşları Şabran rayonu ərazisində quduzluq xəstəliyi əleyhinə vəhşi ətyeyən heyvanlarda və sahibsiz itlərdə oral immunizasiya məqsədilə "Rabadrop" peyvəndinin aldadıcı yemə qatılaraq əraziyə atılmasında da iştirak ediblər.

Ölkədə vaxtaşırı keçirilən yarmarkalarda iştirak edən Şabran heyvandarları ətin qiymətinin günbəgün artmasından narahatdırlar. Deyirlər ki, bahalaşmanın obyektiv və subyektiv səbəbləri var. Ona görə də qiymət artımının qarşısını almaq üçün hökumətlə heyvandarlar birgə tədbir görməlidirlər. Belə tədbirlər görülərsə, subyektiv səbəblər, məsələn, örüş sahələrinin, yem bazasının az olması, su qıtlığı kimi problemləri aradan qaldırmaq mümkündür. Süni mayalanma üzrə mütəxəssislərin çatışmazlığını da aradan qaldırmaq olar. Götürək Şabranı. Digər rayonlardan gələn süni mayalanma mütəxəssisləri yolun uzaqlığı ilə bağlı ödənişi artırırlar ki, bu da fermerlərə sərf etmir.

Ümumiyyətlə, Şabranda vəziyyətdən çıxış yolunu zəbt olunmuş örüş sahələrinin yenidən dövriyyəyə qaytarılmasında, artezian quyularının qazılmasında, sututarların yaradılmasında görürlər. Məhsuldarlığın artırılması və damazlıq işinin səmərəli təşkili, yemləmə və saxlanılma şəraitinin modern tələblər səviyyəsində təşkil edilməsi, müasir komplekslərin yaradılması və təbii ki, süni mayalanma mütəxəssislərinin sayının artırılması da şabranlı heyvandarların arzusudur. Söz düşmüşkən, mütəxəssislər Göygöl Süni Mayalanma Mərkəzinə iki namizədin məlumatını göndəriblər, həmçinin Heyvan Sağlamlıq və Baytarlıq Xidmətləri İdarəsinin əməkdaşlarının bu işə cəlb olunmasını təklif ediblər.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

# Dövrünün Şərq ulduzu

## Atatürk Mərkəzində "Nəriman Nərimanov: şəxsiyyət və zaman" adlı tədbir keçirilib

Atatürk Mərkəzində yazıçı, dramaturq, publisist, həkim, maarifçi, pedaqoq, filosof, ictimai və dövlət xadimi Nəriman Nərimanovun anadan olmasının 155 illiyi münasibətilə tədbir keçirilib.





Nəriman Nərimanovun xatirə muzeyi və "Borçalı cəmiyyəti" İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçirilən "Nəriman Nərimanov: şəxsiyyət və zaman" adlı tədbirdə çıxış edən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrasının müdiri, dosent Firdovsiyyə Əhmədova Nəriman Nərimanovun həyat və fəaliyyətindən söz açdı. Tarixçi alim vurğuladı ki, N.Nərimanov ömrünün böyük hissəsini qəlbən inandığı xalq işi uğrunda mübarizəyə həsr edib: "O, xalqın taleyini müqəddəs amal kimi görürdü. Milli maraqları daim üstün tutan rəhbər kimi taleyüklü məsələlərdə xalqımızın mənafeyini sonadək müdafiə edib. Elmin, maarifin və mədəniyyətin inkişafı üçün əlindən gələni əsirgəməyib. Eyni zamanda dövrünün milli məfkurə daşıyıcılarına ehtiram və qayğı ilə yanaşıb". Ədibin ömür yoluna diqqət yetirən natiq xüsusi olaraq qeyd etdi ki, N.Nərimanovun amal dünyası əməl coğrafiyasından böyük olmuşdur: "Bu coğrafiyada Azərbaycanı Şərq üçün nümunəvi respublikaya çevirmək istəyən N.Nərimanov prosesin "sinfi qırğınlar", vətəndaş müharibəsi, silahlı mübarizə yolu ilə deyil, yerli əhalinin milli-tarixi təfəkkürünü, sosial-məişət ənənəsini, mənəvi tələbatını, psixologiyasını nəzərə almaqla, siyasi mübarizə vasitəsi ilə həyata keçirilməsini qəbul edirdi".

N.Nərimanovun Azərbaycanda sovet hakimiyyəti qurularkən baş verən haqsızlıqlara qarşı mübarizə ilə başlanan fəaliyyəti xalqımızın düşmənləri tərəfindən "milli təmamülçülük", "millətçilik" siyasəti, sonralar isə "nərimanovçuluq" adlandırılmışdır. Amma o, xalqın milli-mədəni tərəqqisinə, din problemlərinə, Azərbaycan dilinə dövlət statusu verilməsinə, milli ziyalılara və təhsilə xüsusi diqqət yetirmiş, bütün bunlara milli dövlət quruculuğunun tərkib hissəsi kimi baxmış, milli adət-ənənələri qorumuş, elm, maarif və mədəniyyətin inkişafına qayğı göstərmişdir. Təəssüf ki, onun bu fəaliyyəti birmənalı qarşılanmamış, əleyhinə geniş kampaniya aparılmışdır.

N.Nərimanov fəaliyyətə başlayarkən Azərbaycan artıq İrəvan və Dərbənd ərazilərini itirmiş, Zaqatala, Zəngəzur, Naxçıvan, Qarabağ və Bakının taleyi mürəkkəb olaraq qalmışdır. Yalnız onun qətiyyəti sayəsində Naxçıvan, Qarabağ, Zaqatala Azərbaycanın tərkibində saxlanılmış, Bakı Azərbaycanın paytaxtı kimi tanınmışdır. Nəriman Nərimanov Naxçıvanın Azərbaycandan təcrid olunmaması üçün Meğridən yol almaqdan ötrü ardıcıl mübarizə aparmış, Zəngəzurun isə Azərbaycandan ayrılmasının qarşısını ala bilməmişdir.

Tarixçi alim qeyd etdi ki, N.Nərimanovdan danışarkən onun fəıaliyyətinin hər bir sahəsinə xüsusi diqqət yönəltmək lazımdır. "N.Nərimanov Azərbaycan nümayəndəsinin bilavasitə iştirakı olmadan mərkəzdə Azərbaycana aid heç bir məsələnin müzakirə edilməməsini, mərkəzi strukturlarda Azərbaycanın tam səlahiyyətli nümayəndələrlə təmsil olunmasını, neft istehsalına və satışına Azərbaycan hökumətinin nəzarətinin artırılmasını tələb edirdi. Milli Ordunun, aviasiyanın, nəqliyyat sisteminin yaradılmasına diqqət yetirmiş, Bakı-Culfa dəmiryolunun, Bakı-Tiflis-Batum neft kəmərinin çəkilməsinin başa çatdırılmasına nail olmuşdur".

Nəriman Nərimanov Şərq xalqlarının müstəmləkə zülmündən xilasını öz mübarizəsinin başlıca amalı sayırdı. O, sovet hökumətini Şərq siyasətini düzgün anlamamaqda ittiham edir, İranda kommunist inqilabını inkişaf etdirmək tərəfdarlarının tezliklə iflasa uğrayacağını əvvəlcədən bildirirdi. N.Nərimanov həmçinin Rusiyanın Türkiyə siyasətinə müsbət yön verilməsinə fəal təsir göstərirdi. Təsadüfi deyil ki, Türkiyədən Moskvaya göndərilən nümayəndə heyətlərinin hamısı Bakıda Nərimanovdan məsləhət aldıqdan sonra oraya gedirdilər.

Tədbirdə Azərbaycan Respublikasının ictimai-siyasi və dövlət xadimi, diplomat, tarix elmləri doktoru Həsən Həsənov çıxış edərək xalqımızın böyük oğlu Ulu Öndər Heydər Əliyevin Nəriman Nərimanova olan sevgisindən bəhs etdi: "Nəriman Nərimanov milli kommunist ideologiyasının ən böyük nümayəndələrindən idi. O, bu idealogiyaya inanırdı. Mən deyərdim ki, Azərbycanda Nərimanovu hamıdan çox istəyən də elə Heydər Əliyev olub. Bir faktı qeyd edim. N.Nərimanovun heykəli 10 il Cəlal Qaryağdıoğlunun emalatxanasında saxlaınılıb. Onu qoymağa icazə verməyiblər. Yalnız Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olandan sonra həmin heykəlin emalatxana ömrünə son qoyuldu. Ulu Öndər Nəriman Nərimanovun yubleyini keçirmək üçün o zamankı SSRİ rəhbəri Leonid Brejnevlə görüşüb 100 illik yubileyini keçirməyə nail oldu".

Kulturoloq, Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü Fuad Məmmədov isə çıxışında vurğuladı ki, Nəriman Nərimanov Azərbaycan ziyalılığının ən gözəl nümunələrindən biridir: "O, həm yüksək mədəniyyətə malik, həm də sosialist və milli dəyərləri özündə birləşdirən bir şəxsiyyət olub. Onun yüksək mənəviyyatının iki əsas mənbəyi vardı: ailəsi və təlim-tərbiyə aldığı mühit. Bu amillər onun böyük şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayıb".

Tədbirdə Xəzər Universitetinin təsisçisi və ilk rektoru, "Xəzər" Universitetinin Direktorlar və Qəyyumlar Şurasının sədri, fizika-riyaziyyat elmləri doktoru, professor Hamlet İsaxanlı, tarix üzrə fəlsəfə doktoru, DİA-nın dosenti Rəna Bayramova, tarix elmləri doktoru, professor Solmaz Rüstəmova-Tohidi, "Borçalı cəmiyyəti" ictimai birliyinin sədri Ramiz Həsənov da çıxış edərək Azərbaycana həsr edilmiş bir ömrün müxtəlif sahələrinə işıq saldılar.

***Elşən QƏNİYEV,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

# Ruben Vardanyanın məhkəməsində zərərçəkmiş şəxslər ifadə verib

Azərbaycan Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi aprelin 15-də davam etdirilib.





AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni, rus dilində tərcüməçi, habelə müdafiəsi üçün özünün seçdiyi vəkillə təmin olunub.

Məhkəmə prosesi zərərçəkmiş şəxslərin dindirilməsi ilə davam etdirilib.

Zeynal Ağayev dindirmədən əvvəl zərərçəkmiş şəxslərə qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Məhkəmədə zərərçəkmiş şəxslər İlqar Orucov, Mərdan Musayev, Anar Alıyev, Xəzri Əhmədov, Həsən Əliyev, Elşad Əhmədov, Fərid İlyaszadə, Təbriz Ramazanov, Saleh Həsənov, Cavid Mehdizadə, Əzizağa Qarayev, Nəriman İbrahimov və digərləri Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələrinin müxtəlif istiqamətlərdə təxribatları zamanı yaralandıqlarını bildiriblər.

Zərərçəkmişlərdən Elvin Məmmədli ifadəsində Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən törədilən təxribat nəticəsində yaralanmış əsgəri sanitar maşınla təxliyə edərkən özünün də yaralandığını bildirib. O, sanitar maşının üzərində uzaqdan görünən qırmızı aypara işarəsi olmasına baxmayaraq, tankəleyhinə silahla vurulduğunu deyib.

Nizami Baxşəliyev dövlət ittihamçısı Fuad Musayevin suallarına cavab olaraq ön xətdən 7-8 kilometr geridə olarkən qarşı tərəfin atəşi nəticəsində yaralandığını bildirib və deyib: "Onların məqsədi torpaqları işğal etmək idi".

Ülvi Süleymanov isə özünün yaralandığını, döyüş yoldaşının isə şəhid olduğunu qeyd edərək bildirib: "Döyüş yoldaşlarımdan biri qucağımda can verdi".

İmran Həsənli isə dövlət ittihamçısı Təranə Məmmədovanın suallarını cavablandıran zaman Ağdərə rayonunun Sırxavənd kəndində partlayış nəticəsində qrup komandiri ilə eyni vaxtda yaralandığını deyib.



Tural Məmmədzadə də Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən törədilən hərbi təxribat zamanı artilleriya atəşi nəticəsində Ağdamda qəlpə yarası aldığını söyləyib.

Anar Rəhimli dövlət ittihamçısı Vüsal Abdullayevin suallarına cavab verərkən Ağdam rayonunun Yeddixırman ərazisində mülki şəxs kimi öz vəzifəsini icra edən zaman yaralandığını diqqətə çatdırıb. "Ermənistanın qanunsuz silahlı birləşməsinə rast gəldik. Onlar bizim avtomobili atəşə tutdular. Mən sol qolumdan güllə yarası aldım", - deyə o əlavə edib. Bildirib ki, nəticədə onun qolu sınıb, avtomobilin aşması nəticəsində isə sağ əlindən də sınıq xəsarəti alıb.

"Həmin vaxt bizim yanımızda hərbçilərimiz yox idi. Biz onları görərkən geri qayıtmaq istədik. Geri qayıdanda bizi atəşə tutdular. Onların atəşi qorxutmaq üçün deyildi, davamlı atəş açırdılar", - deyə o vurğulayıb.

Cavid Mehdizadə düşmənin Ağdamın Abdal-Gülablı kəndi istiqamətində təxribatı nəticəsində yaralandığını bildirib. O əlavə edib: "Yanımda iki döyüş yoldaşım şəhid oldu, bir neçə nəfər yaralandı. Xəsarət alarkən biz öz mövqeyimizdə idik. Qarşı tərəf mütəmadi olaraq təxribat törədirdi".

Valeh Nuriyev də düşmən tərəfin təxribatı zamanı yaralandığını bildirib.

Elşən İbrahimli Ağdamda snayper tüfəngindən açılan atəş nəticəsində yaralandığını söyləyib.

Zərərçəkənlərin hər biri təqsirləndirilən şəxsə ən ağır cəzanın verilməsini məhkəmədən xahiş edib.

Prosesdə, həmçinin məhkəmə-tibbi ekspertizanın rəyləri açıqlanıb.

Məhkəmənin növbəti iclası aprelin 22-nə təyin olunub.

Xatırladaq ki, Ruben Vardanyan Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100.1, 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 107 (əhalini deportasiya etmə və məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrum etmə), 113 (işgəncə), 114.1 (muzdluluq), 115.2 (müharibə qanunlarını və adətlərini pozma), 116.0.1, 116.0.2, 116.0.10, 116.0.11, 116.0.16, 116.0.18 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120.2.1, 120.2.3, 120.2.4, 120.2.7, 120.2.11, 120.2.12 (qəsdən adam öldürmə), 29,120.2.1, 29,120.2.3, 29,120.2.4, 29,120.2.7, 29,120.2.11, 29,120.2.12 (qəsdən adam öldürməyə cəhd), 192.3.1 (qanunsuz sahibkarlıq), 214.2.1, 214.2.3, 214.2.4 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218.1, 218.2 (cinayətkar birlik yaratma), 228.3 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1.2, 270-1.4 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278.1 (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279.1, 279.2, 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunur.

# Macarıstan parlamenti yalnız iki cinsin hüquqi tanınmasını təsdiqləyib

## Konstitusiyaya dəyişikliklərə əsasən, "insan ya kişidir, ya da qadın"

Macarıstan parlamenti aprelin 14-də ölkə konstitusiyasına "insan ya kişi, ya da qadın" kimi düzəliş etmək üçün səs verib. Deputatlar tərəfindən dəstəklənən qanunvericiliyə edilən digər dəyişiklik, bəzi müşahidəçilərin fikrincə, LGBT yürüşlərinin qadağan edilməsini dəstəkləmək məqsədi daşıyır.



Yerli media Macarıstan konstitusiyasının nikah və ailə ilə bağlı maddəsinə yeni redaksiyanı sitat gətirir: "Macarıstan nikah institutunu kişi və qadının könüllü birliyi, ailəni isə millətin varlığının əsası kimi müdafiə edir. Ailə nikah və valideyn-övlad münasibətlərinə əsaslanır. İnsan ya kişidir, ya qadındır. Ata kişidir, ana qadındır".

Bildirilir ki, müvafiq düzəlişləri 140 deputat dəstəkləyib. 21 deputat dəyişikliyin əleyhinə çıxış edib.

Beləliklə, konstitusiyanın dəyişdirilməsi üçün lazım olan üçdə iki səs çoxluğu əldə edilib. Müvafiq dəyişiklikləri Macarıstanın Baş naziri Viktor Orban və onun FIDES partiyası dəstəkləyib.

DPA agentliyinin xəbərinə görə, səsvermə zamanı müxalifət tərəfdarları Macarıstan parlamentinin binası qarşısında etiraz aksiyası keçiriblər. Aksiya daha əvvəl "Momentum" adlı kiçik bir partiya tərəfindən çağırılıb.

### Macarıstanda LGBT paradları qadağan edilib

Ötən ayın 18-də Macarıstan parlamenti ölkədə əvvəllər hər il baş tutan LGBT tədbirlərinin keçirilməsini qadağan edib. Hökumət bu qərarı ilk növbədə uşaqları homoseksuallıq mövzusu ilə təmasdan qorumaq istəyi ilə əsaslandırıb.

Macarıstan konstitusiyasına aprelin 14-də qəbul edilmiş əlavələrdən birində uşaqların "zehni və əxlaqi inkişafının" qorunmasının yaşamaq hüququ istisna olmaqla, bütün digər əsas hüquqlardan üstün tutaraq fundamental hüquq statusu qazanması təklif edilir.

Tənqidçilər qeyd edirlər ki, bu, mahiyyət etibarilə sərbəst toplaşmaq hüququnun əhəmiyyətini itirmək anlamına gəlir.

Preambulası "Milli etiqad" adlanan Macarıstanın hazırkı konstitusiyası ölkə parlamenti tərəfindən 2011-ci il aprelin 18-də qəbul edilib və 2012-ci il yanvarın 1-də qüvvəyə minib.

Bildirildiyinə görə, Macarıstan konstitusiyasına edilən hazırkı düzəlişlər sayca 15-cidir.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Revanşistlərin son çırpıntıları...

Ermənistanda revanşist qüvvələr sülh müqaviləsinin imzalanması prosesinin baş tutmaması üçün məkrli niyyətlərini aşkarda nümayiş etdirirlər. Amma buna əngəl olmaq üçün nə daxili, nə də xarici dəstəyə malik olduqlarını da çox yaxşı başa düşürlər. Ancaq bütün bunlara baxmayaraq yeni-yeni təxribatçı bəyanat və populist çıxışları ilə gündəmə gəlməkdə davam edirlər. Onlar Azərbaycanla şərti sərhəddə təxribatlar törətməklə yanaşı, sülh prosesinə əngəl ola biləcək fikirlər, hətta terrora çağırış, yeni müharibə hədələri ilə də çıxış edirlər.

Ermənistan Xüsusi Təyinatlı Polis Dəstəsi Veteranlar İttifaqının sədri polkovnik Qrişa Sarkisyan bildirib ki, Ermənistan Azərbaycanın strateji obyektlərinə - xüsusilə, Bakı-Tbilisi-Ceyhan neft kəmərinə və Mingəçevir Su-Elektrik Stansiyasına raket zərbəsi endirməlidir: "O zaman Azərbaycan özü Ermənistandan sülh diləyəcək".

Sarkisyan bu bəyanatlarla Ermənistanın aktiv media resurslarından biri - 214 min abunəçisi olan və müxtəlif erməni analitiklər üçün platforma rolunu oynayan "Noyan Tapan" telekanalının efirində çıxış edib. Müsahibə zamanı o, həmçinin Ermənistan konstitusiyasına görə, "Qarabağın Ermənistana məxsus olduğunu" bildirib və müharibəyə hazır olmağın vacibliyini vurğulayıb: "Müharibədən qorxmaq lazım deyil. Əgər düşmənin bizdən çəkinməsini istəyiriksə, istənilən anda döyüşməyə hazır olduğumuzu göstərməliyik. Biz o ölkəni daim qorxu içində saxlamalıyıq".

Bu arada erməni hüquq müdafiəçisi, ictimai xadim Nare Simonyan deyib ki, Qarabağdan Ermənistana köç etmiş şəxslərə qarşı nifrət nitqi yayılır ki, bu da qısa müddətdə Qarabağdan Ermənistana köç etmiş şəxslərin mübarizə aparmamasına, siyasi hüquqlarından əl çəkməsinə, uzunmüddətli perspektivdə isə bu təzyiqləri daim hiss etməsinə, özünü təcrid etməsinə və bəlkə də digər məsələləri nəzərə alaraq, onların ölkəni tərk etməsinə imkan yaratmağa yönəlib.

Onun sözlərinə görə, Nikol Paşinyan, Anna Hakopyan, Alen Simonyan və Arsen Torosyan Qarabağdan Ermənistana köç etmiş şəxslərə qarşı nifrəti təbliğ edirlər: "Siyahını çox uzun şəkildə sadalaya bilərəm. Bu təzahürlərin real həyatda ifadəsi çox böyükdür, Qarabağdan Ermənistana köç etmiş şəxslərin sosial-psixoloji durumuna təsiri çox güclüdür".

Göründüyü kimi, hər iki ölkə arasında sülh müqaviləsinin imzalanmasının aktual olduğu bir dönəmdə hərbi xuntanın və ona bənzər digər ara qızışdıranların bu cür sərsəm bəyanatlar verməsi, erməni xalqını növbəti dəfə fəlakətə sürükləmək cəhdidir. Qeyd edək ki, Azərbaycanla müharibədəki məğlubiyyət Hayastanı elə bir uçuruma yuvarladıb ki, xilası mümkün deyil. Bütün bunlar, o cümlədən Koçaryan və Sarkisyan kimi müharibə cinayətkarlarının hakimiyyətləri dövründən yığılıb qalmış ağır problemlər hazırki hakimiyyəti çətin vəziyyətdə qoyub. Əslində, revanşist qüvvələr çox yaxşı başa düşürlər ki, böyük siyasətə qayıtmaq üçün heç bir şansları yoxdur - xalq hələ onların hakimiyyət dövründəki acınacaqlı vəziyyəti unutmayıb. Ancaq yenə də özləri belə inanmayacağı qədər populist çıxışlarla gündəmi zəbt erməyə çalışırlar.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

Jurnalist araşdırması

# Abonent qazsız qalıb, "Azəriqaz" isə sayğac axtarır

**Yanar qazın ram edilməsi təkcə ağır sənayedə, metallurgiyada və elektrik enerjisinin istehsalında inqilabi dəyişiklik yaratmadı. Həm də məişətimizdə böyük yeniliyə səbəb oldu. Canımızı ocaq külündən və tüstüsündən, odun doğramaqdan və daşımaqdan qurtardı.**





Düşünmək belə çətindir ki, bu gün məişətdə təbii qaz olmasaydı, insanlar necə yaşayardı? Çünki qaz təkcə isti xörək və çay deyil, o həm də evin istiliyidir. Xüsusən qışın sazağının aydın sezildiyi aprel ayında, Albalılıq kimi küləklərin cövlan etdiyi, dənizə yaxın bir ərazidə.

Aprelin 5-də evin qazı kəsiləndə ilk ağlımıza gələn sayğaca yüklənən vəsaitin qurtarması oldu. Yoxladıq, hələ xeyli pul vardı.

İkinci fikir sayğacın bloka düşməsi oldu. Blokdan çıxarmağın ən asan yolunun hesaba əlavə vəsait daxil etmək olduğunu bilirdik. Üç dəfə, hər dəfə bir manat köçürdük. Amma sayğac tərslik edərək yenə açılmadı.

Vaxt itirməmək üçün Qəza xidmətini - 104-ü yığdıq. Sən demə, əsas vaxt itkisi elə həmin nömrəyə düşmək üçün cəhdlər zamanı baş verir.

Başı belə cəncələ düşmüşlər məsləhət gördülər ki, 185-i də yığaq. Dayanmadan 104 və 185 nömrələrini yığdıq. Nəhayət, böyük xoşbəxtlik... bizə cavab verdilər. Daha doğrusu, xeyli sorğu-sual etdilər. Sonra qeydə aldılar.

Sayğacın şəklini çəkib onlara göndərməyimizi istədilər və tezliklə gəlib baxacaqlarını bildirdilər.

5 aprel 2025-ci ildə səhər-səhər başımıza gələn bu vaqiənin günlərlə yox, hətta həftələrlə uzanacağı ağlımıza belə gəlməzdi...

Sayğaca əl vurmaq, onu təmir edərək nizama salmaq təhlükəli addım olardı... Çünki abonent tərəfindən sayğaca kənar müdaxilə qadağandır və belə bir hal yüksək cərimə ilə nəticələnir.

Gözləməkdən başqa yol yox idi. Günortayadək gələn olmadı. Yenidən zənglərə başladıq. Bu dəfə Qəza xidməti günün ikici yarısında gələcəyini bildirdi. Yenə verdikləri söz yalan çıxdı.

Təkrar müraciətdə isə aprelin 6-da səhər gələcəklərini söylədilər. Başqa nə edə bilərdik? Amma soyuqda qalmaq da olmazdı.

Şəhərə qayıdaraq aprelin 6-da - bazar günü yenidən geriyə döndük. Yenə aldatdılar! Yenə telefona əl ataraq dayanmadan zəng çaldıq. Nəhayət, cavab verdilər!

Daha doğrusu, "ibtidai istintaq"a başladılar...

Neçə dəfə zəng vurmuşuq, hansı nömrəli telefonlarla əlaqə yaratmağa çalışmışıq, kimlər zəng vurublar...

Bütün suallara dolğun cavablar verdikdən sonra yenidən "şirin vəd" aldıq. Amma bu vəd də əvvəlkilərdən fərqlənmədi. Yenə gələn olmadı.

Aprelin 6-da günün ikinci yarısında telefon zənginə cavab verəndə isə başqa söz dedilər. Daha doğrusu, həqiqəti söylədilər: "Altılıq" smart sayğacımız yoxdur...

Odur ki, sayğacı dəyişə bilməyəcəklər. Bəs nə etməliyik? Sayğac dövlət tərəfindən vətəndaşa pulsuz verilir. Vətəndaş ona müdaxilə edə, özü başqa sayğac alıb dəyişə bilməz. Yalnız "Azəriqaz"ın işçilərini gözləməlidir.

"Azəriqaz" isə deyəsən smart sayğaclarını mexaniki sayğaclarla dəyişmək fikrinə düşüb. Odur ki, smart sayğacları yoxdur. Maraqlıdır, niyə "smart"dan geriyə - mexanikiyə qayıdırlar?

Axı geriyə doğru inkişaf olmur.

İkincisi, sayğac verməli olanların sayğacı yoxdursa, ya zəlzələdən, ya da vəlvələdən bunun abonentə nə dəxli var? Pulunu veribsə, qazını almalıdır.

Amma heç bizə doğru addım ataraq vəziyyətdən müvəqqəti çıxmaq üçün bir təşəbbüs belə göstərmədilər. Dedik, neyləməli, bir həftə də gözləyərik. Hadisələr növbəti şənbə və bazar günləri - aprelin 12-də və 13-də eyni ssenari ilə davam etdi. 104-ə fasiləsiz zəng, cavab verənin sonsuz sorğu-sualı, əvvəlcə günün birinci, sonra isə ikinci yarısında köməyə gəlmək barədə boş vədlər və s.

Ən əsası gözləntimiz - operativ və məsuliyyətli davranış, çağırışlara dərhal reaksiya verərək, zəruri tədbirlər görmək isə olmadı...

Boş sözdən, arxayın danışmaqdan və yalan vəddən başqa bir şey görmədik. Odur ki, konkret fakt əsasında jurnalist araşdırması aparmaq qərarına gəldik. Və bütün baş verənləri xronoloji qaydada qeydə aldıq.

Qaz həm də yanğın deməkdir! Ondan betəri partlayışa da səbəb ola bilər!

Elə bir həftə yoxdur ki, elektrik naqillərində qısa qapanma və ya qaz sızmasından partlayış baş verməsin, evlər yanmasın, insanlar ciddi yanıq xəsarətləri almasın, dünyalarını dəyişməsinlər.

Yəqin ki, bunu ən yaxşı bilənlər yanğınsöndürənlər və bir də qazpaylayanlardır.

Yanğınsöndürənlər iş-işdən keçəndən sonra - yanğın və partlayış baş verəndən sonra hadisə yerinə gəlirlər. Qazverənlər isə hadisələri qabaqlaya, fəlakətlərin qarşısını ala bilərlər. Bu şərtlə ki, çağırışlara operativ reaksiya verərək gəlsinlər, qaz sızmasının və digər nasazlıqların qarşısını dərhal alsınlar! Amma həmişə belə edirlərmi?!

Birdən ağlımıza gəldi ki, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi var. Bəlkə ora müraciət edək, onlar hüququmuzu qorumaqla dərdimizə bir çarə qılsınlar. Sən demə, bu xidmət şənbə və bazar günləri işləmir. Yəni şənbə və bazar günləri istehlakçıların hüquqları qorunmur.

Gülməli deyilmi? İstehlakçı olur, amma hüququ qorunmur.

Ruhdan düşmədik, həftənin birinci günü - aprelin 14-də bu xidmətlə də əlaqə saxladıq. Bildirdilər ki, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi "Azəriqaz"la bağlı şikayətlərə baxmır. Bu sahəyə nəzarət edən Enerji Məsələlərini Tənzimləmə Agentliyidir.

Ümidlə üz tutduq həmin agentliyə. Zəngimizə cavab verən Mustafayeva soyadlı əməkdaş şikayətimizi tam dinlədikdən sonra məsələnin tez bir zamanda həll olunması üçün işə başlanılacağını vəd etdi.

Əvvəlki vədlərdən bir nəticə görmədiyimizdən xanım Mustafayevanın "tez bir zamanda"sını dəqiqləşdirmək məqsədilə problemin neçə saata həll ediləcəyini soruşduq.

Mustafayeva sayğacdəyişmə prosesinin günlərlə çəkə biləcəyini söylədi. Hətta onu da əlavə etdi ki, bu şikayətin həlli 15 təqvim günündə olunmalıdır. Ehtimal ki, məsələnin həlli ən yaxşı halda 2-3 gün çəkər.

Təəccüblüdür! Vətəndaş pulunu ödədiyi qazı ala bilmir. "Azəriqaz" həftələrlə min bir bəhanə və boş vədlərlə süründürməçilik edir, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi bu məsələnin onlara aid olmadığını söyləyərək Enerji Məsələlərini Tənzimləmə Agentliyinə yönləndirir, bu agentlikdən isə bildirilir ki, sayğac quraşdırılması 2-3 gün, hətta 2 həftə də uzana bilər.

Yeri gəlmişkən, Mustafayeva onu da söylədi ki, bu şikayəti Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi də qeydə alıb həll edə bilərdi, çünki bu məsələdə istehlakçı hüququ pozulub, sadəcə olaraq bizim agentlik daha operativ olduğu üçün bu növ şikayətləri bura yönləndirirlər.

Absurd deyilmi?!

Tez-tez müxtəlif televiziya kanallarında uzaq kəndlərdə qazsızlıqdan əziyyət çəkən və evlərini baha qiymətə aldıqları odunla isitmək məcburiyyətində qalan insanların şikayətini seyr edirik.

Bəzən isə evlərinin qarşısından qaz xətti keçənlərin və həmin xətdən evə fərdi boru çəkdirməyə imkanı olmayanların narazılığını eşidirik. Hər dəfə də "Azəriqaz"ın nümayəndələri onlara şirin vədlər verirlər. Amma eyni zamanda güzəştə getmirlər: pulun yoxdursa, soyuqda qal!

Vəzifəsi abonentə sayğac quraşdırmaq olan "Azəriqaz" buna əməl etmirsə, onda günahkar kimdir? Yenə də abonent?

Ölkə vətəndaşına belə soyuq, laqeyd və məsuliyyətsiz münasibəti ilə qurum nəyə nail olmaq istəyir?

Dövlət vətəndaş məmnunluğuna çalışır və bu yolda mümkün olan hər işi edir. Bəs "Azəriqaz"çılar nəyə kökləniblər?

Öz fəaliyyətsizlikləri səbəbindən qazsız qalan abunəçilərin narazılığına?

Görünür, bu üsul "xalqa xidmət"in təzə növüdür.

Bəs pulunu verib qazını ala bilməyənləri kim müdafiə etməlidir? Yoxsa bundan ötrü daha bir yeni xidmət də yaradılmalıdır. Belə getsə, xidmət qurumları çox olacaq, əsl xidmətin özü isə yoxa çıxacaq.

Hələ də müraciətimizin nəticəsini gözləyirik. Vətəndaş pulu ödəməyəndə qazı kəsilir, sayğaca toxunanda cərimələnir...

Olsun, müqavilə öhdəliyi belədir.

Bəs müqavilə öhdəliyini pozaraq keyfiyyətsiz, yaxud ümumən qaz verməyən, sıradan çıxmış sayğacı dəyişməyərək, abonenti qazsız qoyaraq müqavilə öhdəliyini pozan "Azəriqaz"ın cəzası nə olur? Heç nə? Yoxsa bu sahədə inhisarçı olduğuna görə istədiyini edə bilər?!

Jurnalist araşdırması isə davam edir.

Söz "Azəriqaz"ındır.

*Bəxtiyar ƏZİZLİ,*
*"Azərbaycan"*

# Azərbaycanda əhalinin sayı açıqlanıb



İlin əvvəlindən ölkə əhalisinin sayı 5 min 777 nəfər və ya 0,1 faiz artaraq, 2025-ci il martın 1-i vəziyyətinə 10 milyon 230 min 666 nəfərə çatıb. AZƏRTAC Dövlət Statistika Komitəsinə istinadla bildirir ki, əhalinin ümumi sayının 54,4 faizini şəhər, 45,6 faizini kənd sakinləri, 49,8 faizini kişilər, 50,2 faizini isə qadınlar təşkil edir.

# IDEA paytaxtda mozaikaların bərpasını davam etdirir





Bakının bir sıra rayonlarında bəzi binaları və parkları bəzəyən, xalqımızın tarixi-mədəni irsinin formalarından biri olan mozaika kompozisiyaları mövcuddur.



Əfsuslar olsun ki, xalq tətbiqi sənətinin geniş istifadə edildiyi bu formaya müvafiq diqqət yetirilmədiyindən XX əsrdə yaradılan mozaika kompozisiyalarında restavrasiya işləri aparılmasına ciddi ehtiyac yaranıb.

Bununla əlaqədar Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə Bakı şəhərinin bir çox ərazisində, o cümlədən Nərimanov rayonu, "Ulduz" metrostansiyasının yaxınlığında yerləşən keçmiş Bakı Şin Zavodunun fasadını bəzəyən nadir monumental sənət nümunəsi olan mozaikanın bərpası üzrə genişmiqyaslı işlər həyata keçirilib.

IDEA İctimai Birliyindən AZƏRTAC-a verilən məlumata görə, artıq Bakının bir neçə məkanında - Nəsimi rayonunda, Tbilisi prospekti 54 ünvanında, Xəzər rayonunda Zağulba prospektində yerləşən sanatoriyanın yaxınlığında, eləcə də Tbilisi prospekti ilə Əbdülvahab Salamzadə küçəsinin kəsişməsində yerləşən monumental mozaika nümunələri bərpa olunub. Bu işlər bir sıra digər ünvanlarda da davam etdirilir. Həmin layihə paytaxtın mədəni həyatında yeni bir səhifə açaraq, zamanın itirilmiş nəfəsini şəhər sakinlərinə və gələcək nəsillərə qaytarır.

Beləliklə, mozaika şəhərimizin canlı bədii elementi kimi keçmişlə gələcəyin, sənətlə gündəlik həyatın, sənaye tarixi ilə müasir ekoloji şəhərsalmanın arasında körpü rolunu oynayır.


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC ASCO-nun struktur idarələri və gəmiləri üçün əlvan metalların satın alınması məqsədi ilə *açıq müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 23 aprel 2025-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1047.**

***Tender komissiyası***



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC ASCO-nun struktur idarələri və gəmiləri üçün müxtəlif ölçüdə bolt, qayka, şayba, vint, dəmir kələbçə, metal sıxac, mismar, şurup, şplintlərin satın alınması məqsədi ilə *açıq müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 23 aprel 2025-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1047.**

***Tender komissiyası***



## "ERA" ASC-nin səhmdarlarının nəzərinə

"ERA" Açıq Səhmdar Cəmiyyəti 29 may 2025-ci il tarixdə saat 15:00-da səhmdarlarını ümumi yığıncağa dəvət edir.

***İclasın gündəliyinə aşağıdakı məsələlər daxildir:***

1. *"ERA" ASC-nin 2024-cü il üzrə maliyyə-təsərrüfat fəaliyyəti barədə hesabatı.*
2. *Digər təşkilati məsələlərin müzakirəsi.*

İclas səhmdar cəmiyyətin ofisində keçiriləcək.

**Ünvan: Nərimanov rayonu, İslam Abışov küçəsi, 20/94**
**Tel: 012 563-13-40 050 271-51-23**

***Rəhbərlik***


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının rəhbərliyi və əməkdaşları Baş nazirin köməkçisi Mehman Tağıyevə əzizi **MÜLAYİM XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanova qardaşı **MAQSUD ASLANOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3448
Sifariş 738

Qiyməti 60 qəpik